13 dekabr 2019-cu il
№47 (8862)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

Tarixin yaddaşında əbədiləşmiş böyük AZƏRBAYCANLI ⇨səh.2

Hərtərəfli inkişafa dəstək ⇨səh.7

İstedadları necə aşkar etməli? ⇨səh.8

"Qazandığımız uğurlara görə müəllimlərimizə borcluyuq" ⇨səh.16

# BİR olaq... BİRlikdə olaq...

## Azərbaycan tələbə-könüllülərinin Forumu keçirilib



Onlar ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələridirlər. Zahirən öz həmyaşıdlarından fərqlənmirlər, sadəcə bir üstün cəhətləri - keçirilən müxtəlif nüfuzlu tədbirlərdə onlarla tez-tez rastlaşmağımız, iştirakçılarla səmimi ünsiyyətləri, dəvət olunan qonaqlara bələdçilik etmələri, gülərüz olmaları və mehribanlıqları bu gəncləri bizlərə daha doğma edib. Söhbət ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatında fəallığı ilə seçilən tələbə- könüllülərdən gedir. Təhsil Nazirliyinin reallaşdırdığı "Bir" Tələbə-Könüllü proqramının üzvü olan tələbələr Azərbaycanda könüllülük hərəkatına öz töhfələrini verməkdədirlər. Adıçəkilən proqram uzunmüddətli olmaqla ölkənin inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, könüllülük fəlsəfəsini aşılamaq üçün 2015-ci il dekabrın 14-də yaradılıb. 6 istiqamətdə fəaliyyət göstərən proqram tələbələrin karyera imkanlarının qazanmasında, dərsdənkənar asudə vaxtlarının dəyərləndirilməsində, vətəndaş məsuliyyətinin formalaşmasında mühüm rol oynayır. Müəyyən olunan istiqamətlər tələbə-könüllülərin asudə vaxtlarının səmərəli keçirməsinə, onların müxtəlif sahələrdə təcrübə qazanmasına, bilik və bacarıqlarının artırılmasına, tələbə həyatını rəngarəng yaşamasına və əyləncəli vaxt keçirməsinə şərait yaradır.

⇨Ardı səh.3

# Məktəblini DOST bilənlər

Təhsil Nazirliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə 2016-cı ildən həyata keçirdiyi bir uğurlu layihəsi var. Dünyada sınanıb Azərbaycanda da tətbiq edilən layihələrdən biridir. Bakıdakı 30 ümumi təhsil müəssisəsində fəaliyyətə başlasa da, fəaliyyətdə olduğu məktəblərin sayı ilbəil artıb. Əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilkin tibbi və psixoloji yardım göstərmək olan bu layihə getdiyi məktəblərdəki fəaliyyəti ilə hələ gedib çıxmadığı məktəblərə də səs salıb. Məktəbdə geyiminin yaratdığı fərqi davranışı aradan qaldırıb və biri ilə aralarındakı məsafə bir anda, bir başqası ilə zamanla aradan qalxıb. Artıq onlar əsl dost olduqlarını sübut ediblər. Qısa zamanda şagirdlərin və onların valideynlərinin ürəyinə yol tapıblar. Bununla da, hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılması prosesinə qoşulublar. Məktəblinin dostlarını ötən 4 ildə çoxları tanıyıb. Necə deyərlər, bilən bilir, bilməyənlər də bundan sonra tanıyacaq.

Söz hər yaş mərhələsindən düşmüşkən, onların daha çox sinfinə, müəlliminə, məktəbinə alışa bilməyən, anasının isti qucağından ayrılması mümkünsüz görünən, dəyişən mühitə çətin adaptasiya olan birinci sinif şagirdlərinə, məktəbəhazırlıq qrupunun kiçik üzvlərinə lazım olduğunu düşünürsünüzsə, yanılırsınız. Məktəblinin dostları hər məktəbli ilə eyni məsafədədirlər. Üstəlik, bunun üçün məktəblinin addım atmasını da gözləmirlər. Sorğusuz-sualsız, qeydşərtsiz, ehtiyac duyan hər məktəblinin yanındadırlar. Hər yaşda məktəbli ilə dil tapa bilmələri üçün də məktəblinin dostları məhz 21-30 yaş arasında olan gənclər arasından seçilirlər.

Məsələn, Nəcibə İsmayılova 21 yaşını tamamlayan, hələ 30 yaşına çatmayan gənclərdəndir. Bu ildən məktəblinin dostunun vəzifələrini icra edir. Yəni, bu yolun hələ başındadır. Yəqin elə bu səbəbdəndir ki, dostlaşdıqları əsasən aşağı sinif şagirdləridir. Hələ ki, yetkinlik yaşına çatan məktəblilərin ürəyinə gedən yolu tapa bilməyib. Ancaq bu, tapa biləməyəcəyi anlamına da gəlmir. Dediyinə görə, onların "divarları" bir az hündürdür. Aşmaq elə asan olmasa da, mümkünsüz də deyil. Üstəlik, bu yolda yardımçıları da var. Fəaliyyətdə olduğu məktəbdə ondan başqa məktəblinin 4 dostu da iş başındadır. Nəcibənin çətinlik çəkə biləcəyi yaş qrupları ilə işi ondan daha təcrübəli olan Orxan boynuna götürür: "Bu yaşda məktəblilərin elə vaxtıdır ki, onlarla nə uşaq kimi davranmaq olur, nə də böyük kimi. Yeniyetmə oğlanlarla işi, əsasən mən öz üzərimə götürürəm. Onlarla hər hansı problemi müzakirə edib ortaq məxrəcə gələ bilirik. Biri ilə bir problemi çözmək başqalarının da GÜVƏNini qazanmağımıza kömək edir".

⇨Ardı səh.9

# Hədəf bütün rayonlarda xüsusi siniflərin olmasıdır

Hesablamalara görə, hər 100 şagirddən cəmi 3-4 faizi istedadlı olur. Azərbaycandakı ümumtəhsil müəssisələrində həmin istedadların axtarışı davam edir. Bu məqsədlə 2018-2019-cu tədris ilindən ümumtəhsil məktəblərində VII sinif üzrə riyaziyyat-informatika, VIII sinif üzrə isə təbiət elmləri təmayüllü xüsusi siniflər yaradılıb. Hazırda ölkə üzrə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri və 47 rayon üzrə 117 məktəbdə 162 xüsusi sinif fəaliyyət göstərir. Ümumilikdə 4000-ə yaxın şagird sözügedən siniflərdə təhsilini davam etdirir.

2019-2020-ci tədris ilindən xüsusi siniflərin təşkil olunduğu məktəblərin siyahısına Biləsuvardakı bir təhsil müəssisəsi də əlavə olunub. Təhsil Nazirliyi həmin məktəbə infotur təşkil edərək İctimai Şuranın üzvlərini və kütləvi informasiya vasitələrini prosesə tanış edib.

### Xüsusi siniflər təmayülləşmənin tərkib hissəsinə çevrilir

Xüsusi siniflər VII sinif şagirdlərindən təşkil olunur və vəzifəsi IX sinifdə bitir. Bu siniflərin təşkili və aparılan iş barədə danışarkən Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev deyib ki, gələcəkdə VI sinif şagirdlərindən də xüsusi siniflərin təşkili üzərində düşünülür: "X sinifdə isə şagirdlərin ali məktəb qayğıları başlayır. Ali məktəblərə hazırlıq məqsədilə şagirdlər seçdiyi profilə uyğun təmayüllü siniflərdə təhsil alırlar.

⇨Ardı səh.6

# Kreativ Azərbaycan naminə

## Təhsil sistemi yeni hədəflərə doğru

Məlumdur ki, müasir dövrdə davamlı inkişafın təməlində rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması durur. Bu prosesdə son illərdə ayrı-ayrı ölkələrdə inkişafın mühüm trendlərindən biri kimi yaradıcı sənaye və ya kreativ industriya (Creative industries) mühüm faktor rolunda çıxış edir. İqtisadiyyatın xüsusi sektoru kimi intellektual fəaliyyətə əsaslanan yaradıcı sənaye insan fəaliyyətində yeni texnologiyaların və kəşflərin yüksək rolu, mövcud biliklərin böyük həcmi və yeni biliklərin generasiyasına kəskin ehtiyacın olması ilə xarakterizə olunur. İntellektual mülkiyyətin istehsalı və istismarı yolu ilə əlavə dəyər və iş yerlərinin yaradılması potensialını özündə cəmləşdirən yaradıcı sənaye bacarıq və istedadın əsasını təşkil edən fəaliyyət kimi çıxış edir. Bu baxımdan, ölkəmizin elmi-texnoloji və sosial-iqtisadi inkişafı yolunda kreativ sənaye sektorunun formalaşmasının vacibliyi danılmazdır. Bu sektorun əhəmiyyətini ondan görmək olar ki, proqnozlara görə, yaxın 10 il ərzində kreativ industriya ümumdaxili məhsulun həcmini 4 dəfə artıra bilər.

Bu prosesdə təhsil sisteminin üzərinə hansı vəzifələr düşür? Təhsil sahəsi ölkəmizdə yaradıcı sənayenin inkişafına nə kimi töhfələr verə bilər?

Bütün bu sualların cavabını dekabrın 9-da Bakı Konqres Mərkəzində keçirilən "Kreativ Azərbaycan" portalının təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda keçirilən panel müzakirədə almaq mümkün oldu. Tədbir həm mövzunun aktuallığı, həm də ölkəmizin davamlı inkişafında töhfələri olan təhsil, mədəniyyət, iqtisadiyyat, nəqliyyat, rabitə və yüksək texnologiyalar, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin rəhbər şəxslərinin, bir sıra dövlət qurumlarının, biznes sektorun iştirakı ilə diqqəti cəlb edirdi.

Mədəniyyət naziri Əbülfəs Qarayev tədbirdə çıxış edərək belə bir toplantının keçirilməsini tarixi hadisə kimi qiymətləndirdi. İlk dəfə olaraq ələqədar qurumlar dünya düzənində yeni trend olan sənaye iqtisadiyyatı kontekstində ölkənin inkişafı üçün gələcək hədəfləri müzakirə etdilər. Ə.Qarayev vurğulayıb ki, ölkəmizdə yaradıcı sənayelərin milli iqtisadiyyatda vacib rola malik olduğunu və perspektiv imkanlar açdığını nəzərə alaraq, bu sənaye sahələrinin inkişafı və yaradıcılıq proseslərinin iqtisadi və sosial təsirlərinin artırılması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə müxtəlif layihələr həyata keçirilir.

⇨Ardı səh.3

# Azərbaycan Təhsil Şəbəkəsi

Azərbaycan Təhsil Şəbəkəsi - ölkənin müxtəlif pillələr üzrə təhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları (Təhsil Nazirliyi və tabe qurumları) vahid şəbəkədə birləşdirən ən iri təhsil intranet şəbəkəsidir. Cari ildə Təhsil Nazirliyi ATŞ-ə 360-dan çox təhsil müəssisəsini qoşaraq şəbəkənin əhatə dairəsini genişləndirib. İcrasına 2008-ci ildə "2008-2012-ci illər üzrə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı" çərçivəsində başlanılmış layihə hazırda ölkə üzrə 3186 təhsil müəssisəsini əhatə edir. Şəbəkəyə qoşulmuş ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin sayı ölkə üzrə ümumi şagirdlərin 93%-nə və pedaqoji heyətin 89%-nə bərabərdir. Azərbaycan Təhsil Şəbəkəsinin təqdim etdiyi başlıca imkanlar internetə yüksək sürətli çıxışın təmin olunması, internetin zərərli məzmunlardan süzgəclənməsi, intranet şəbəkəsinin qurulması və intranet üzərindən rabitənin (İP telefoniya, video-konfrans) təşkili, eləcə də şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsidir.

⇨Ardı səh.13



# Nobel mükafatları sahiblərinə verildi

## Stokholmda təqdim olunma mərasimi keçirilib

Səh.5

# Tarixin yaddaşında əbədiləşmiş böyük AZƏRBAYCANLI





## Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

***

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

“Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də “Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan”, - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasət yürütmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə çevrilib. Dünya birliyində hörmət və ehtiram ünvanına çevrilən ölkəmiz beynəlxalq aləmdə dostluq, tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqil ölkəyə çevrilib. Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi



Dekabrın 12-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Milli Konservatoriyasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinin tarixində silinməz iz qoyduğunu bildirib. Rektor milli musiqimizə bağlı olan ulu öndərin mədəniyyətimizin inkişafına verdiyi töhfələri diqqətə çatdırıb, anım mərasimində ümummilli liderin sevdiyi mahnıların səsləndiriləcəyini qeyd edib.

Təhsil Nazirliyi rəhbərliyinin və ali təhsil müəssisələri rektorlarının iştirak etdiyi tədbirdə xalq mahnıları, həmçinin vətənpərvərlik mövzusunda şeirlər ifa olunub.

## Təhsil işçiləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər



Dekabrın 12-də Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin kollektivi ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub.

# Kreativ Azərbaycan naminə

## Təhsil sistemi yeni hədəflərə doğru




⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini, Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə "Yaradıcı sənayelər: qlobal trendlər və yerli imkanlar" mövzusunda çıxış edib.

Daha sonra "Kreativ Azərbaycan" portalının təqdimatı olub. Mədəniyyət Nazirliyinin Beynəlxalq layihələr və innovasiyalar sektorunun müdiri Ramil Abbəkirov bildirib ki, "Kreativ Azərbaycan" portalı Mədəniyyət Nazirliyi tərəfindən sahəvi inkişaf proseslərinə dair aktiv təbliğat və maarifləndirmə işlərinin aparılması üçün yaradılıb. Qeyd edib ki, portalın yaradılmasında məqsəd həmçinin Azərbaycanın yaradıcı məhsullarının "Kreativ Azərbaycan" brendi altında təşviqidir.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov müasir dövrdə yaradıcı sənayelər anlayışı, onun mahiyyəti, ölkənin inkişafında mühüm rolu, mədəni sənayelər və kreativ sənayelər arasında fərq, ölkəmizdə innovasiyaların inkişafı barədə fikirlərini bölüşüb. O, çıxışında "kreativlik", "kreativ konseptlər" anlayışlarının mahiyyətinə toxunaraq dünyada kreativ iqtisadiyyatların inkişaf tempindən və Azərbaycanın bu kontekstdə mövqeyindən danışıb.

Təqdimat mərasiminin ardından müvafiq dövlət qurumlarının rəhbərləri və eləcə də kreativ sektorun təmsilçiləri olan ekspertlərin iştirakı ilə "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda panel sessiyası keçirilib.

Tədbirin mövzusu və eləcə də panel müzakirələrdə səsləndirilən fikirlər həm də təhsil sahəsi üçün aktual və həyatidir. Yaradıcı inkişafın formalaşması üçün insanlarda kritik düşüncə vacibdir və yaşadığımız dövrdə daha çox zəruri olan bu keyfiyyət əsasən təhsil sahəsində formalaşır. Təhsil sistemində yaradıcı təfəkkürün daha yaxşı şəkildə özünü göstərə bilməsi üçün hansı imkanlar var? Azərbaycanda bu sahədə perspektivlər necədir?

Təhsil naziri Ceyhun Bayramov panel müzakirəsində bu suallara aydınlıq gətirməklə yaradıcı düşüncənin formalaşmasına təhsil sisteminin verdiyi töhfələrdən bəhs etdi.

### Təhsil sistemi qarşısında duran ən ümdə məsələ

Ceyhun Bayramov hesab edir ki, yaradıcı sənayedən, beynəlxalq səviyyədə isə mədəni və yaradıcı industriyadan danışırıqsa, təbii ki, onun əsasında kreativ düşüncə tərzi durmalıdır. "Düşünürəm ki, kreativ düşüncənin formalaşdırılması hər bir təhsil sistemi qarşısında duran ən ümdə, vacib məsələlərdən biridir. Əsas məqam ondan ibarətdir ki, yaradıcı təfəkkür, düşüncənin formalaşması təkcə ayrı-ayrı fənlərin deyil, ümumilikdə bütün təlim-tərbiyə prosesinin əsasını, onun bazasını təşkil edir". Təhsil naziri qeyd edib ki, yaradıcı industriyadan danışanda təhsil sistemi qarşısında duran vəzifələr birinci növbədə kompetensiyalarla bağlıdır. Aşağı yaş qrupunda olan şagirdlərdə kreativ tənqidi təfəkkürün formalaşmasını olduqca vacib bir amil kimi dəyərləndirən Ceyhun Bayramov bu sahədə Təhsil Nazirliyi tərəfindən atılan addımlardan danışıb. Nazir xüsusən də son dövrlərdə dünya təhsilində geniş tətbiqini tapmış STEAM yanaşmanın ölkəmizin ümumtəhsil məktəblərində uğurla həyata keçirilməsini qeyd edib. "Biz xüsusi olaraq STEAM yanaşmadan danışmalıyıq. Bu sistemdə elm, texnologiyalar, mühəndislik, incəsənət, riyaziyyat eyni zamanda tətbiq edilməklə ayrı-ayrı fənlər vasitəsilə deyil, ümumilikdə layihələr vasitəsilə kompetensiyaların yaradılmasını formalaşdırır". C.Bayramov qeyd edib ki, ötən il Təhsil Nazirliyi STEAM yanaşmanın məktəblərimizdə tətbiqinə dair hazırlıq işlərinə start verib və cari ilin sentyabrından başlayaraq ilk olaraq 42 məktəbdə 6500 şagirdi əhatə edən bu layihə tətbiq olunmaqdadır. Paralel olaraq layihənin genişləndirilməsi istiqamətində də işlər aparılır. Ölkənin müxtəlif bölgələrini təmsil edən müəllimlər İsraildə təlim keçiblər. Növbəti mərhələdə STEAM yanaşması üzrə əlavə modul tətbiq olunacaq. Növbəti tədris ilindən 10 bölgənin layihəyə qoşulması ilə şagird sayının 20 minə çatdırılması hədəf seçilib. Layihə çərçivəsində, o cümlədən hər zaman təhsilə diqqət və qayğı göstərən Heydər Əliyev Fondunun dəstəyi ilə məktəblərə layihənin tərkib hissəsi olan 3 ölçülü printerlər paylanılıb.

### Ali təhsil müəssisələrinə qəbul yeni təsnifat əsasında aparılacaq

Bizim məzunlar qlobal əmək bazarında rəqabətə tab gətirə biləcəklərmi?

Təhsil naziri Ceyhun Bayramov panel müzakirəsində mütəxəssis hazırlığı və məzunların məşğulluq imkanları ilə bağlı məsələlərə də toxunub, bu sahədə yeniliklərdən danışıb.

Ceyhun Bayramov qeyd edib ki, müasir dünyada peşələr və ixtisaslar sürətlə dəyişir. Bunu nəzərə alaraq müəyyən vaxtdan bir yeni ixtisasların təsnifatına yenidən baxılır, yeni ixtisaslar təsdiq olunur. 2019-cu ilin fevral ayında ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə, o cümlədən YUNESKO tərəfindən qəbul edilmiş təsnifata uyğun, yeni ixtisaslar təsdiq edilib. "Hazırda ali təhsil müəssisələrimiz bu istiqamətlərdə tədris proqramlarını yeniləyirlər. Növbəti tədris ilindən etibarən ali təhsil müəssisələrinə qəbul artıq yeni təsnifat əsasında aparılacaq".

Təhsil naziri bildirib ki, burada çox vacib bir məsələni qeyd etmək lazımdır: "Təhsil Nazirliyi olaraq biz ali təhsil müəssisələrinin məzunlarının işlə təmin olunması əmsalını hər zaman ölçürük, onların əmək müqavilələrinin imzalanmasına, statistikasına baxırıq. Maraqlı statistika ondan ibarətdir ki, yaradıcı sahələr üzrə ali təhsil müəssisələrini bitirənlərin kifayət qədər çoxu- 70 faizə yaxını qısa müddət ərzində əmək fəaliyyətinə daxil olurlar". Təhsil naziri əlavə edib ki, yaradıcı təfəkkürün formalaşdırılması, bu sahədə peşəkarlığın artırılması ilə yanaşı, ənənəvi olaraq beynəlxalq səviyyədə qəbul olunan trend ondan ibarətdir ki, yaradıcı istiqamətlər üzrə özünəməşğulluq faizi olduqca yüksəkdir. Müxtəlif ölkələrdə bu, ortalama 30-60 faiz arasında dəyişir. "Düşünürəm ki, Azərbaycanda xüsusi olaraq diqqət yetirilməsi vacib olan istiqamətlər, o cümlədən sahibkarlıq, biznes etikası ilə bağlı kompetensiyaların tələbələrdə formalaşdırılması vacibdir ki, onlar gələcəkdə iş axtaran deyil, iş yeri yaradan insanlar olsunlar. Kreativ düşüncəli insanlar məhz bu istiqamətə yönəldilməlidir. Düşünürəm ki, biz cəmiyyət olaraq bundan xeyli faydalana bilərik".

Təhsil naziri diqqətə çatdırıb ki, bu sahədə həm ali təhsil, həm də peşə təhsili müəssisələrimiz çox fəal olmalıdırlar. "Bu istiqamətdə, o cümlədən yaşlı insanların təhsili məsələsi ilə bağlı bir sıra təşəbbüslər var. Yəni, bu unikal bir imkandır ki, təhsili olmayan insanlar qısamüddətli kurslar vasitəsilə əmək bazarına daxil ola bilərlər".

Ceyhun Bayramov çıxışında yaradıcı potensialın inkişaf etdirilməsi sahəsində mühüm əhəmiyyət daşıyan "Rəqəmsal bacarıqlar" layihəsinin məktəblərdə uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Beləliklə də tədbirin ümumi nəticələri kontekstindən çıxış edərək qeyd edə bilərik ki, bir sıra inkişaf etməkdə olan ölkələrə xas kreativ sənaye və onun əsasını təşkil edən prinsiplər Azərbaycan təhsil sisteminə də xasdır. Məhz təhsil sahəsində həyata keçirilən məqsədyönlü islahatlar, kreativ düşüncənin inkişafına yol açan maarifləndirmə işləri bizi kreativ Azərbaycan naminə əməli fəaliyyətə səfərbər edir. Azərbaycanı daha kreativ görmək hər birimizin arzusu və hədəfi olmalıdır.

# BİR olaq... BİRlikdə olaq...

## Azərbaycan tələbə-könüllülərinin Forumu






⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

Hazırda proqram 26 ali və 18 orta ixtisas təhsili müəssisəsini əhatə edir. Proqramda tələbə-könüllülər üçün özünüinkişaf mühiti formalaşdırılıb. Burada tələbə-könüllülərlə müntəzəm olaraq təlim, kurs, seminar, təcrübə və mübadilə proqramları həyata keçirilir. Proqramın fəal könüllüləri uğurlu fəaliyyətləri nəticəsində karyeralarında artıq ilk addımlarını atıb, bir çoxları isə beynəlxalq forumlarda ölkəmizi layiqincə təmsil ediblər.

Proqram tərəfindən "Elektron könüllü portalı" da yaradılıb. Belə ki, bu sistem vasitəsilə hər bir tələbə-könüllünün iştirak etdiyi tədbirlərin sertifikatı *www.konullu.edu.az* saytındakı hesabında yerləşdirilir. Həmçinin bu sayt vasitəsilə tələbə-könüllü şəxsi hesabını yaradaraq şəxsi məlumatlarını hesabına yükləyə və bütün həyata keçirilən tədbirlərdən xəbərdar ola bilər. Minlərlə tələbə-könüllü ötən müddət ərzində çoxlu sayda yerli və beynəlxalq səviyyəli tədbirin təşkilinə dəstək veriblər.

Elə dekabrın 10-da Beynəlxalq Könüllülər Günü münasibətilə təşkil olunan Azərbaycan tələbə-könüllülərinin Forumunda da tələbə- könüllülərin gördüyü işlərə, ayrı-ayrı fəaliyyət istiqamətlərinə bir daha nəzər salınıb.

Tədbirdən əvvəl Təhsil Nazirliyinin "BİR" tələbə-könüllüləri Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunan Forum elə bu ali təhsil müəssisəsində keçirilib. Forumda Təhsil naziri Ceyhun Bayramov, Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, 400-dən çox tələbə-könüllü və digər qonaqlar iştirak ediblər.

Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra tələbələrin könüllülük fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Forumda çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev könüllülük fəaliyyətini yüksək dəyərləndirərək rəhbərlik etdiyi ali təhsil müəssisəsinin tələbələrinin də könüllülük proqramının üzvü olduğunu qeyd edib. Rektor könüllülər arasında formalaşmış münasibətin uğurlu gələcəyə istiqamətləndiyini söyləyib. Elçin Babayev bildirib ki, müasir Azərbaycanın gələcəyi üçün kadr potensialı çox vacibdir: "Bugünkü gənclərimiz bilikli, savadlı, vətənə bağlı və dünyaya açıqdırlar. Bakı Dövlət Universitetində minlərlə gənc var. Gələcəkdə onlar yaşlı nəslin yerini tutacaqlar. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib və bundan sonra da ali təhsil müəssisəmiz elm və təhsilin inkişafında məqsədyönlü işlərini davam etdirəcəkdir".

Təhsil naziri Ceyhun Bayramov forum iştirakçılarını salamlayaraq onları görməkdən məmnunluq duyduğunu bildirib. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev tərəfindən hər zaman ölkədə gənclər siyasətinə xüsusi diqqət yetirilib, tarixi qərarlar qəbul edilib. Nazir hazırda dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət gənclər siyasəti, bu istiqamətdə görülən işlər və əldə olunan nailiyyətlər barədə danışıb. Təhsil naziri vurğulayıb ki, bu gün savadlı və hazırlıqlı, innovativ texnologiyalara dərindən yiyələnən, milli dəyərlərə sahib, qloballaşan dünyanın çağırışlarına hazır olan gənc nəslin yetişdirilməsi Azərbaycan təhsilinin başlıca hədəfidir. Ceyhun Bayramov daha sonra könüllülük fəaliyyətinin yaratdığı təcrübə və imkanlardan söz açıb, Təhsil Nazirliyi tərəfindən həyata keçirilən çoxsaylı layihələr içərisində "Bir" Tələbə-Könüllü Proqramının mühüm yer tutduğunu söyləyib: "Hesab edirəm ki, könüllülük hərəkatı gənclərin uğur hekayəsinə yol açan, onların özünü təqdimetmə imkanlarından düzgün istifadə etmək, gələcək inkişaf və karyera qurmaq arzularının reallaşdırılması baxımından önəmli bir fəaliyyət növüdür. Könüllülük fəaliyyəti gənclərə müəyyən təcrübə, imkanlar qazandırır ki, bu da ictimai işlərdə fəallıq göstərən tələbələrimizin özünü tanıtmaq, təsdiq etmək baxımından gözəl şansdır".

Təhsil naziri qeyd edib ki, son illərdə ölkəmizdə keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin təşkilində tələbə-könüllülərin fəaliyyəti danılmazdır. Tələbə-könüllülərin əhatə dairəsinin ildən-ilə artdığını, bu hərəkatın ayrılmaz parçası olan gənclərin sayının hazırda 23000-dən artıq olduğunu diqqətə çatdıran nazir bundan məmnunluğunu bildirib: "Bu isə öz növbəsində növbəti illərdə Azərbaycanda keçiriləcək ölkə və beynəlxalq miqyaslı tədbirlər üçün keyfiyyətli və təcrübəli könüllülər ordusu deməkdir".

Nazir Ceyhun Bayramov ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə tələbələrin könüllü kimi fəaliyyətini yüksək qiymətləndirdiklərini xüsusi vurğulayıb.

Ceyhun Bayramov çıxışında dövlət başçısı İlham Əliyevin BDU-nun 100 illik yubiley tədbirində gənclərlə bağlı söylədiyi fikirlərə xüsusi diqqət çəkib: "Hər bir gənc vətənpərvərlik dəyərlərinə önəm verməli, rəqabətqabiliyyətli peşəyə yiyələnməyi özünə əsas prioritet olaraq müəyyənləşdirməlidir".

Təhsil naziri çıxışının sonunda tələbə-könüllülərə uğurlar arzulayıb.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti də öz növbəsində tədbirdə iştirakına görə məmnunluğunu ifadə edib. Bu gün dünyada 1 milyarda yaxın insanın könüllülük fəaliyyəti ilə məşğul olduğunu deyən BMT rəsmisi son illər Azərbaycanda geniş vüsət almış könüllülük hərəkatını, xüsusilə tələbə-könüllülərin fəaliyyətini yüksək qiymətləndirib: "Azərbaycanda keçirilən istər yerli, istərsə də beynəlxalq tədbirlərdə tələbə-könüllülərin uğurlu fəaliyyətinin şahidiyik və onlar ölkənizi layiqincə təmsil edirlər və bu, bizi sevindirir".

Sonra Alessandro Frakassetti tərəfindən "Bir" Tələbə-Könüllü Proqramı BMT-nin İnkişaf Proqramının Dayanıqlı İnkişaf Məqsədlərini dəstəkləyən və könüllülüyü uğurla təbliğ edən ən böyük tələbə-könüllü platforması olduğuna görə mükafatlandırılıb.

Tədbir çərçivəsində "Bir" Tələbə-Könüllü Proqramının hesabatı təqdim olunub, tələbə-könüllülər öz fəaliyyət istiqamətlərindən danışıblar. Çıxış edənlər könüllülük hərəkatına qoşulmaqla asudə vaxtlarını səmərəli keçirdiklərini, müxtəlif sahələrdə təcrübə qazandıqlarını, bilik və bacarıqlarının artdığını, olduqca maraqlı tələbəlik həyatı keçirdiklərini söyləyiblər. Qeyd olunub ki, könüllülük həmrəylikdir, dostluqdur, birlikdir, uğurlu gələcəyin açarıdır. Tələbə-könüllülərin həyat devizi də məhz budur: "BİR olaq...BİRlikdə olaq...".

Forumda daha sonra ilin ən fəal tələbə-könüllüləri mükafata layiq görülüblər.

Tədbir könüllülərin himninin ifası ilə yekunlaşıb.

Qeyd edək ki, Forum Təhsil Nazirliyi və "Bir" Tələbə-Könüllü Proqramının təşkilatçılığı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin tərəfdaşlığı ilə keçirilib.

# XII Beynəlxalq "Future Stars" klassik musiqi festivalının açılışına həsr olunmuş konsert



Dekabrın 10-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında XII Beynəlxalq "Future Stars" klassik musiqi festivalının açılışına həsr olunmuş konsert keçirilib.

Konsertdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Təhsil naziri Ceyhun Bayramov, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, akademiyanın və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin kollektivi iştirak edib.

Tədbirdə həmçinin Uşaq Dövlət Filarmoniyasının Gənclər Simfonik orkestri və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin "Tutti" kamera orkestri də iştirak edib. Orkestrlərin ifasında müxtəlif əsərlər ifa olunub.

Tədbir geniş konsert proqramı ilə davam etdirilib.

# Təhsil naziri Sumqayıt şəhərində vətəndaşları qəbul edəcək

**Xızı, Qubadlı rayon və Sumqayıt şəhər sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 20 dekabr 2019-cu il tarixində saat 10:00-da Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Xızı, Qubadlı rayon və Sumqayıt şəhər sakinlərini qəbul edəcək. Qəbulda Xızı rayonunda və Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 11-17 dekabr (saat 18:00-dək) 2019-cu il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/-contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# Azərbaycan Tibb Universitetində beynəlxalq elmi-praktik konfrans keçirilib

Dekabrın 10-da Azərbaycan Tibb Universitetinin (ATU) insan anatomiyası və tibbi terminologiya kafedrasının 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən ATU-nun rektoru Gəray Gəraybəyli insan anatomiyası və tibbi terminologiya kafedrasının yaranma tarixi, keçdiyi yol və fəaliyyət istiqamətləri barədə danışıb. Gəray Gəraybəyli deyib ki, 1919-cu il fevralın 18-də fəaliyyətə başlayan kafedrada bu müddət ərzində 85 mindən çox tibbi kadr və səhiyyə işçisi təhsil alıb.

Konfransda iştirak edən Təhsil naziri Ceyhun Bayramov kafedranın tarixi ilə bağlı mühüm məqamlardan söz açıb, burada dərs deyən ziyalılar barədə məlumatı və onların ölkədə tibb təhsilinin inkişafı naminə gördüyü işləri diqqətə çatdırıb. Ceyhun Bayramov deyib ki, Bakı Dövlət Universitetinin ilk yeddi rektorundan altısı ixtisasca həkim olub. Nazir kafedranın inkişafında Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Məmmədəmin Əfəndiyev, İvan Şirokoqorov, Kamil Balakişiyev və digər məşhur Azərbaycan alimlərinin böyük xidmətlərinin olduğunu xüsusi qeyd edib.

Səhiyyə nazirinin müavini Elsevər Ağayev də öz növbəsində son vaxtlar səhiyyə sisteminin, o cümlədən patoloji anatomiya və insan anatomiyası üzrə mütəxəssislərin hazırlanması sahəsində ciddi uğurlar qazanıldığını söyləyib.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov, 1990-1995-ci illərdə insan anatomiyası və tibbi terminologiya kafedrasına rəhbərlik etmiş Əməkdar elm xadimi Rafiq Əsgərov, ATU-nun insan anatomiyası kafedrasının rəhbəri, Əməkdar elm xadimi Vaqif Şadlinski bir əsrlik yaşı olan insan anatomiyası və tibbi terminologiya kafedrasının milli kadrların hazırlanmasındakı xidmətlərindən danışıblar. Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqəti sayəsində 2018-2019-cu tədris ilində kafedranın maddi-texniki bazası yenidən qurulub, ən müasir innovativ avadanlıqlarla təchiz edilib. 2004-2005-ci tədris ilindən insan anatomiyası fənnin xarici tələbələr üçün ingilis dilində tədrisinə başlanıb.

Konfransda Türkiyə, Gürcüstan və Başqırdıstan tibb təhsili müəssisələrinin anatomiya kafedrasının rəhbərləri çıxış edərək ATU-nun sözügedən kafedrası ilə bağlı xatirələrini bölüşüb, kollektivi yubiley münasibətilə təbrik ediblər.

Konfrans öz işini plenar sessiyalarla davam etdirib, ayrı-ayrı mövzularda məruzələr dinlənilib.

# Körpə məktəblilər



## Məktəb onlarla yanaşı, valideynləri üçün də əyləncəli olur

**Ruhiyyə DAŞSALAHLI**

Ağzında sözünü danışa bilmir, belində şalvarını saxlaya. Amma çıxıb meydana şeir deyir, nağıl qəhrəmanlarını qiymətləndirir, çəkdiyi şəklin rənglərinə qərar verir. Şalvarını çəkə-çəkə şeirdəki bütün "r" səslərini "y" ilə "əvəzləyən" körpələrin sinfində vaxt sanki uçur. Onların söhbətini dinləmək, zamanı birdəfəlik unutdurur. Ancaq hamısı danışan deyil. Aralarında mısmırığını sallayıb oturan, öz aləminə dalan, bir kənara çəkilib "kubik"ləri könlü istəyən şəkildə yığan, şeir danışana qulaq belə asmayıb, rəsm çəkəndə isə uşaqlara özü qaynayıb-qarışanlar var. 3-4 yaşlı körpələrdən ibarət icma əsaslı məktəbəhazırlıq qruplarında 2 saat ərzində valideynlərlə tərbiyəçi müəllim əlbir olub uşaqları məktəbə hazırlayırlar.

### 33 bölgədə 6212 uşaq məktəbəqədər təhsilə cəlb edilib

Bu proses çoxdan başlayıb. Əvvəlcə, yəni 2017-ci ildən "UNİCEF Azərbaycan" və Avropa İttifaqının maliyyə dəstəyi ilə Təhsil İnstitutu tərəfindən "İcma qruplarının iştirakı ilə məktəbəqədər və ibtidai təhsilin keyfiyyətinin yaxşılaşdırılması" layihəsinə başlanılıb. Bu layihə hələ bitməmiş, Təhsil Nazirliyinin dəstəyi ilə "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsi də start götürüb. 2019-cu ilin oktyabr ayından reallaşdırılan layihə çərçivəsində artıq ilk dəfə olaraq Şamaxı, Ağsu, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Balakən, Zaqatala, Oğuz, Qax kimi rayonlarda da mərkəzlər təşkil edilib. Layihənin davam edəcəyi 3 il ərzində rayonların da, mərkəzlərin də sayının artacağı şübhə doğurmur. İndiyədək icma əsaslı məktəbəqədər təhsil qrupları ölkəmizin 33 bölgəsində yaradılıb. Layihə çərçivəsində bölgələrdəki ucqar kənd və sərhəd zonaları da daxil olmaqla, ümumilikdə 308 icma mərkəzi üzrə 321 icma əsaslı məktəbəqədər təhsil qrupu fəaliyyət göstərir. Bu qrupların hər birində orta hesabla 20 nəfər 3-4 yaşlı uşaq olur. Bu minvalla, indiyədək 6212 nəfərə yaxın uşaq məktəbəqədər təhsilə cəlb edilib. Layihə meneceri İlahə Rəsulovanın sözlərinə görə, 2020-2021-ci tədris ilindən daha 250 icma əsaslı məktəbəqədər təhsil qruplarının yaradılması nəzərdə tutulub.

### Uşaqlar canavarı sevdi

Ölkə üzrə icmaəsaslı təhsil qruplarının yaradıldığı 33 bölgədən biri də Masallıdır. Burada 19 icma mərkəzi üzrə 21 icmaəsaslı məktəbəqədər qrup fəaliyyət göstərir. Bu ildən Mahmudavar kənd tam orta məktəbində 2, Masallı şəhəri 4 nömrəli tam orta məktəbində 1 qrup fəaliyyətə başlayıb.

Mahmudavar kənd tam orta məktəbində təşkil edilən mərkəzdəyik. Qrupun təlimləri başlayıb. Uşaqlarla yanaşı, valideynlər də var. Dairəvi şəkildə oturan uşaqların başı tərbiyəçi müəllimlə nağıl müzakirəsinə qarışıb. Gülnur bu müzakirələrin ən fəal iştirakçısıdı. Bütün suallara, demək olar ki, o cavab verir. Nəvəsinə məşhur qırmızı papağı kim hədiyyə eləmişdi? Əlbəttə ki, nənəsi. Bəs, uşaqlar hansı qəhrəmanı sevdilər? Bəlkə inanmayacaqsınız, amma uşaqlar canavarı seviblər. Sonra hər kəs bildiyindən danışır. Əbdül şalvarını çəkə-çəkə şeir oxuyur: "Qaçma dayan, a dovşan, qaçma səni sevəyəm".

Maraqlı, uşaqlardan çox böyüklər üçün əyləncəli keçən bu müzakirələrə qatılmayanlar da var. Məsələn, Səma. Heç danışmır. Qarşısına yığdığı rəngli kubiklərlə oynayır. Maraq göstərib ona qoşulan olsa da, o heç kimə fikir vermir. Otağın bir küncünə çəkilib özü üçün qurub-quraşdıranları da ətrafda baş verənlər maraqlandırmır.

Uşaqları kənardan izləyənlər də var, uşaqlara qoşulub əylənənlər də. İcmaəsaslı təhsil qruplarının işində valideynlər də fəal iştirak edirlər.

Gülnurun babası Təvəkkül Ağayev deyir ki, kənddə bağça var: "Kəndimizin bağçasında 60-dan çox uşaq tərbiyə edilir. Ancaq bağça bizə uzaqdı. Həm də burada uşaqlarla daha yaxşı məşğul olurlar".

Məktəbin ailə üçün başqa üstünlükləri də var. Gülnuru məktəbə özündən böyük qardaşı gətirir. Bu da valideynlərin işini nisbətən yüngülləşdirir. Üstəlik, Gülnur məktəbi çox sevir: "O düşünür ki, hər gün məktəbə gəlir. Məktəbi çox sevir. Özü də çox ağıllıdır. Hər gün mənə məsləhətlər verir. "Maşını yavaş sür, adam vurarsan", - deyir.

Mahmudavar kənd tam orta məktəbində bağça da olmasına baxmayaraq, tələbat o qədər böyükdür ki, 2 qrup açılıb. Hər qrupa 20 uşaq olmaqla, 40 uşağı əhatə edib. Bir qrup məktəbə səhər, digər qrup isə günorta gəlir.

Günorta qrupunun üzvü Cənnət, Həqiqət Əliyevanın dördüncü uşağıdır. Ana-bala məktəbəhazırlıq qrupuna gəlib 2 saat ərzində həm əylənir, həm də öyrənirlər: "Bura gəlmək uşağımdan çox özümün xoşuma gəlir. Təzə gələndə qapalı olan uşaqlar belə yavaş-yavaş yoldaşlarına isinişirlər".

Həqiqət xanım burda uşaq tərbiyə etməyin əsasını öyrənib: "Mən uşaqlara çox cəza verirdim. Amma burada öyrəndim ki. Qışqırıb-bağırmaq, cəzalandırmaq yox, başa salmaq lazımdır. Başa salanda uşaq deyiləni daha yaxşı edir.

### Uşağının əl işinə baxıb gözünə inanmadı

Ruqayyə, Həsən, Rəvan, Aysu, Aytən, Xədicə isə Masallı şəhər Sakit Tağıyev adına 4 nömrəli tam orta məktəbdə yaradılan icmaəsaslı təhsil mərkəzində fəaliyyət göstərən icmaəsaslı təhsil qrupunun üzvüdürlər. Rəsm çəkməyi çox sevirlər. Qarşılarında su, boyalar və ağ kağızda qara cizgi ilə papaq şəkli var. Onların da bugünkü mövzusu "Qırmızıpapaq"dır. Ancaq rənglədikləri papaqlar arasında qırmızı olanın sayı azdır. Balaca barmaqlarını əvvəlcə suya, sonra rənglərə batırıb fərasətlə kağız üzərindəki papağın qara sərhədləri daxilində gəzdirirlər. Uşaqların bacarığına heyran qalmamaq mümkün deyil. Hətta övladının təlim zamanı çəkdiyi rəsmlərə, əl işlərinə baxıb gözünə inanmayan valideynlər belə olur. Qeyd edək ki, 3-4 yaşlı uşaqlar üçün ayrılan bu otağın divarlarını da elə onların öz əl işləri bəzəyir.

Uşaqların inkişaf dinamikasını izləmək məqsədi ilə onların hər addımına nəzarət edilir, çəkdiyi şəkillər belə təhlil olunur. Məsələn, uşaqlardan biri yanmış ağac çəkib. Bundan narahat olan mütəxəssislər məsələni araşdırıblar. Məlum olub ki, narahatlıq üçün əsas yoxdur. Uşaq həyətlərində olan yanmış ağacın şəklini çəkib. Valideynlər isə mərkəzə dəvət edilmə səbəbinin bu olmasına çox təəccüblüniblər.

Əslində isə, təəccüblü heç nə yoxdu. Layihənin məqsədlərindən biri məhz uşaqların yaradıcı və fiziki inkişaf dinamikasını izləməkdi. Buna görə də uşaqların hər davranışına, hər təpkisinə burada həssaslıqla yanaşır, üstünlük verdikləri rənglərdən tutmuş, davranışlarına qədər hər detalı təhlil edirlər.

Həmidə Həsənova artıq bu həssas münasibəti hiss edib və nəticələrini də görməyə başlayıb. Oğlu Məhəmmədin rəsm çəkməyi çox sevdiyini deyir: "Məhəmməd qapalı və adaptasiya olunmayan uşaq olsa da, təlimlər ona çox kömək edib. Əvvəlcə mənsiz dayanmırdı. İndi heç bir problem yaranmır. İmkan olanda gəlir, olmayanda gəlmirəm. O, sərbəst məşğul olur, hətta evə gedən kimi boyalar istəyir. Burda öyrəndiklərini evdə də davam etdirir".

Özü də məktəbdə texniki işçi olan Həmidə xanım imkanı olanda tərbiyəçi müəllimə kömək edir. Uşaqlarla oyunların qurulmasında, onlara əl işləri öyrətməkdə tərbiyəçi müəllimə dəstək verir. Həmidə xanım uşaq tərbiyə edərkən buraxdığı səhvləri də görməyə başlayıb: "Heç vaxt uşaqla vaxt keçirməmişəm. Heç fərqində də olmamışam ki, uşaqla oynamaq lazım ola bilər. Cizgi filmi açıb baxmasını, oyuncaqlar töküb oynamasını istəmişəm. O istəyib, mən vermişəm və sonra işimin-gücümün dalınca getmişəm. Burada uşağımla keçirdiyim vaxtın ikimizə də necə yaxşı təsir etdiyinin şahidi olduqca, səhvimi anlayıram. Danışanda çətinlik çəkən oğlumun danışığı düzəlib. Bütün analara tövsiyə edirəm ki, uşaqları sıxmasınlar. Onlara hər şeyi məhdudlaşdırmasınlar. "Ona dəymə", "Buna toxunma", - deyərək uşaq tərbiyə olunmaz".

### Layihənin nüfuzu çox böyükdür

Xatırladaq ki, icmaəsaslı məktəbəqədər təhsil qrupları məktəbəqədər təhsil müəssisələri ilə əhatə olunmayan yerlərdə açılır. 3-4 yaşlı uşaqlara məktəbəqədər təhsil imkanı qazandırmaqla yanaşı, eyni zamanda məktəbəqədər təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında vətəndaş cəmiyyəti nümayəndələri və icmaəsaslı qrupların, o cümlədən valideynlərin rolunu artırmağa xidmət edir. Bu qruplarda dərslər yerli və eston mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən hazırlanmış proqram əsasında keçirilir. Proqramda uşaqların sosial emosional, idrak və ümumi bilik, yaradıcı və fiziki inkişaf dinamikası izlənilir.

Elə bu işin nəticəsidir ki, layihə fəaliyyətə başladığı ərazilərdə böyük nüfuz qazanıb. Layihə meneceri İlahə Rəsulovanın sözlərinə görə, oktyabrdan fəaliyyətə başlayan mərkəzlərdə belə ikinci qrupun açılması üçün müraciətlər edilir: "Ancaq biz çalışırıq ki, yeni açılan qrupların daha yaxşı fəaliyyətinə önəm verək. Əvvəlki illərdə yaradılan mərkəzlərdə ikinci qrupun açılmasına şərait yaratsaq da, yeni mərkəzlərdə ikinci qrupun açılmasını məqsədəuyğun saymırıq".

İcmaəsaslı məktəbəqədər təhsil müəssisələrinə tələbat və maraq o qədər böyükdür ki, hətta uşaq bağçası olan kəndlərdə belə icmaəsaslı təhsil qruplarının açılması üçün müraciətlər edilir. İ.Rəsulovanın sözlərinə görə, belə müraciətlər bəzən çox böyük kəndlərdə nəzərə alınır. Hesab edilir ki, kənd böyük olduğundan mövcud olan bağça tələbatı ödəməyə bilir.

Bugünkü reallıq ondan ibarətdir ki, layihə, nəinki həyata keçirildiyi yerlərdə, hətta bütün ölkə ərazisində nüfuz qazanıb. Sorağını eşidənlər buradakı fəaliyyəti izlədikdən sonra layihənin uğuruna əmin olur. Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Etibar Əliyev layihənin müsbət nəticələr doğuracağına inananlardandır: "Layihəni təqdir edirəm. 3 yaşından yuxarı uşaqlar şeir deyir, şəkil boyayır. Bu, məktəbə hazırlıq üçün yaxşı mərhələdir. Dünyada qəbul olunan qaydalara görə, uşaqlar məktəbəqədər təhsil və tərbiyə ilə təmin olunmalıdırlar. Ölkəmizdə isə yaşayış məntəqələrinin 35 faizində uşaq bağçası yoxdur. Ona görə də məktəblərin bazasında bu boşluğu doldurmaq cəhdlərini yüksək qiymətləndirirəm".

Təhsil eksperti Nadir İsrafilov da məktəbəqədər təhsil müəssisələri ilə bağlı ölkə ərazisində müşahidə olunan problemlərə diqqət çəkib. Onun fikrincə, bağça olmadığından bu işlər məcburən məktəblərdə həyata keçirilir və yaxşı da nəticələr var.

İlqar Orucov innovativ metodlarla azyaşlıların nəinki məktəbə hazırlanması, hətta azyaşlı uşaqların istedadlarının üzə çıxarılması istiqamətində aparılan işi müsbət qiymətləndirib. Onun fikrincə, məktəbəqədər hazırlıq istiqamətində Azərbaycanda müşahidə olunan problemləri nəzərə alanda bu layihə gələcəyə dair böyük ümidlər vəd edir. Onun fikrincə, ölkədə məktəbəqədər, orta təhsil səviyyəsi yüksəlir. Belə fikir yaranır ki, şagirdlərin öz potensialını ortaya qoyması üçün məktəb bütün imkanları yaradacaq.

# Filarmoniyada növbəti xeyriyyə konserti

Dekabrın 5-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında beynəlxalq müsabiqələr laureatı, macarıstanlı musiqiçi Erdi Tamaş və Azərbaycanın əməkdar artisti, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyevin rəhbərliyi altında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestrinin xeyriyyə konserti təşkil olunub.



Konsert Macarıstanın ölkəmizdəki səfirliyi və "Nargis" Fondunun birgə təşkilatçılığı ilə reallaşıb.

Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi çıxış edərək iki ölkə arasında mədəni əlaqələrdən danışıb. Bildirib ki, belə tədbirlər qarşılıqlı əməkdaşlığın inkişafına töhfə verir.

Tədbirdə iştirak edən Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan və Macarıstan arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrindən söz açaraq bildirib ki, bu əlaqələr yüksək səviyyədə inkişaf edir, mövcud ikitərəfli əməkdaşlıq daha da genişləndirilib. Nazir müavini deyib ki, 600-dən çox Azərbaycan vətəndaşı Macarıstan hökumətinin təqaüdü ilə ali təhsilin müxtəlif səviyyələri üzrə həmin ölkədə təhsil almaq hüququ qazanıb. Firudin Qurbanov iki ölkənin ali təhsil müəssisələri arasında mövcud sıx əməkdaşlığa da diqqət çəkib.

Nazir müavini ötən il də Macarıstan səfirliyinin təşkilatçılığı ilə eyni məzmunlu xeyriyyə konsertinin təşkil olunduğunu, tədbirdən toplanmış bütün vəsaitin Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbi üçün Brayl çap maşının əldə olunmasına yönəldiyini xatırladıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışının sonunda xeyriyyə məzmunlu tədbirin təşkilinə görə təşkilatçılara təşəkkür edib.

Daha sonra Bakıda ilk dəfə konsert proqramı ilə çıxış edən, uşaq ikən görmə qabiliyyətini itirən Tamaş Erdi azərbaycanlı həmkarı Əyyub Quliyevlə səhnəni paylaşıb.

Konsertin xeyriyyə məqsədinə dəstək olaraq tədbirin bədii hissəsindən sonra Dövlət Filarmoniyasının foyesində Macarıstan səfirliyi tərəfindən kiçik xeyriyyə yarmarkası təşkil olunub. Yarmarkada tədbirə özəl gətirilmiş qış mövsümünün başlanğıcını simvolizə edən Macarıstan təamları və şirniyyatları satışa çıxarılıb.

Qeyd edək ki, konsertin bilet satışından əldə olunan gəlir Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin ehtiyaclarının qarşılanması və sağlamlıq imkanları məhdud olan uşaqlar və 5 nömrəli xüsusi internat məktəbinin şagirdləri üçün Brayl lövhələrinin alınmasına yönləndiriləcək.

## Təhsil naziri payız semestrinin imtahan sessiyasının təşkili barədə əmr imzalayıb

Təhsil naziri Ceyhun Bayramov ali və orta ixtisas təhsili müəssisələrində 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili ilə bağlı əmr imzalayıb.

Əmrə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri imtahan sessiyasını mövcud normativ sənədlər əsasında təşkil etməli, təhsil müəssisələrində imtahan qərargahı yaratmalı və qərargaha daxil olan hər bir şikayətin operativ şəkildə araşdırılmasını təmin etməlidirlər. Şəffaflığı təmin etmək üçün imtahanlarda ictimaiyyət nümayəndələri və valideynlərin iştirakına şərait yaradılacaq, nazirliyin "Qaynar xətt" xidmətinin fəaliyyəti və imtahan sessiyasının gedişi barədə kütləvi informasiya vasitələrinə müntəzəm məlumat veriləcək.

Qeyd edək ki, əmr imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması məqsədi daşıyır.

## Gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib

Dekabrın 6-da Təhsil naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Sami Abdullah Ğoşeh ilə görüşüb.

Görüşdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## Mərkəzin dərnək üzvləri beynəlxalq tədbirdə

Rusiyanın Moskva şəhərində uşaq və gənclərin "İstoki" adlı IX Beynəlxalq festival-müsabiqəsi keçirilib. Rus mədəniyyəti festivalının keçirilməsində məqsəd vokal janrı üzrə istedadlı və perspektivli uşaq və gənclərin aşkara çıxarılması, onlar arasında beynəlxalq əlaqələrin qurulması və möhkəmləndirilməsi, təcrübə mübadiləsinin yaradılmasından ibarətdir.

15 ölkədən uşaq və gənclərin qatıldığı beynəlxalq müsabiqədə Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri də uğurla iştirak ediblər.

Mərkəzin "Vokal" studiyasının üzvü Murad Musa festivalın I dərəcəli diplomuna layiq görülərək Bolqarıstana, Anastasiya və Darya Kşnyakinalar isə Qırğızıstanda keçiriləcək vokal müsabiqəsinə dəvət olunublar.

Həmçinin, Təhsil naziri Ceyhun Bayramov və nazirliyin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov festivalın Təşkilat Komitəsi tərəfindən "Təşəkkürnamə" ilə təltif olunub.

## 5 məktəbə "Merkur konstruktor dəstləri" təqdim olunub

Dekabrın 9-da Çex Respublikasının "İnkişafa yardım" layihəsi çərçivəsində Şamaxı rayonunda yerləşən Qaravəlli, Meysəri, Muğanlı, Qızmeydan, Əngəxaran kənd məktəblərinə "Merkur konstruktor dəstləri" təqdim edilib.

Təqdimetmə mərasimində Çex Respublikasının ölkəmizdəki səfiri Milan Ekert, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Tural Əhmədov, Şamaxı Rayon Təhsil Şöbəsinin müdiri Namiq Nağıyev və Respublika Uşaq və Gənclərin İnkişafı Mərkəzinin direktoru Firuzə Sultan-zadə iştirak edib.

Qeyd edək ki, ümumi təhsil müəssisələrinə təqdim edilən konstruktor dəstlərindən fizika fənninin tədrisi zamanı, habelə məktəblilərin asudə vaxtının səmərəli təşkil edilməsi məqsədilə istifadə olunacaq.

## Müəllimlər İsraildə "STEAM" təlimində

Təhsil Nazirliyinin "ORT İsrael" məktəblər şəbəkəsi ilə əməkdaşlığı çərçivəsində 50 nəfər təhsil mütəxəssisi İsrailə səfər edib.

Səfər çərçivəsində İsraildən olan mütəxəssislər tərəfindən STEAM mövzusundakı proqramın Azərbaycan kurikulumlarına uyğunlaşdırılması, bu məzmunun ölkəmizdən olan mütəxəssislərə çatdırılması və məktəblərdə tətbiqi ilə bağlı müəllimlərə metodik dəstək göstərilib. Müəllimlər PBL (Project Based Learning - Layihə Əsaslı Öyrənmə), Mobil Öyrənmə, Engineering Design Process (Mühəndisliyin Dizayn Prosesi), Nanotexnologiya, Neuroscience, Refleksiya, eləcə də digər öyrənmə metod və vasitələrdən istifadə etməyi öyrəniblər. 24 günlük təlim çərçivəsində ORT Tiv`, Kfar-Galim, ORT Kiryat Motzkin, ORT Achva Gilboa məktəblərinə infoturlar təşkil edilib. Məktəblərdə "High Tech" və "Low Tech" laboratoriyaları da fəaliyyət göstərir. Həmin məktəblərdə əsas fənlərdən əlavə elektronika, kompüter texnologiyaları, robotexnika və aqrotexnologiyalar tədris olunur.

Həmçinin mütəxəssislər üçün Tel-Əviv elm muzeyinə də ekskursiya təşkil olunub. Muzeyin tərkibində olan Elektrik Mühəndislik Laboratoriyasında müəllimlər kiçik layihələr üzərində işləyiblər. Təlimə qatılan müəllimlər "Personal Practice" və "Escape Box" Kvest Texnologiyalar seminarlarında iştirak ediblər.

Qeyd edək ki, STEAM (Science, Technology, Engineering, Art and Mathematics) təlimi dekabrın 10-da başa çatıb.

# Nobel mükafatları sahiblərinə verildi

## Stokholmda təqdim olunma mərasimi keçirilib



**Oruc MUSTAFAYEV**

Stokholm Filarmoniyasında 2019-cu ilin Nobel mükafatlarının təqdim olunma mərasimi keçirilib. Mərasim hər il olduğu kimi, bu dəfə də 1896-cı il dekabrın 10-da vəfat etmiş Alfred Nobelin anım günündə baş tutub. A.Nobelin vəsiyyətinə uyğun olaraq, Sülh mükafatı Osloda, digər bütün mükafatlar isə Stokholmda təqdim edilib.

Stokholmda keçirilən mərasimdə fizika, kimya, fiziologiya və təbabət, ədəbiyyat və iqtisadiyyat sahələrində laureatlara mükafatlar İsveç Kralı XVI Karl Qustav tərəfindən təqdim olunub. Dünyanın ən nüfuzlu 14 mükafat laureatı monarxın əlindən diplomlar və qızıl medallar alıblar.

Mərasimi açan Nobel Fondunun İdarə Heyətinin sədri Karl-Henrik Heldin dünya ictimaiyyətini elmi metodların qorunmasına çağırıb: "Alfred Nobel elmi tədqiqatların vacibliyinə qəti şəkildə inanırdı: yalnız faktlar əsasında dünya real tərəqqiyə nail ola bilər. Təəssüf ki, onun nikbinliklə dolu baxışları bu gün bütün dünyada şübhə doğurur və biz görürük ki, aparıcı siyasətçilər indi də faktların inkar edilməsi ilə məşğuldurlar. İrrasional düşüncə və dar düşüncələr elmi nailiyyətlər, biliklər və rasional düşüncə hesabına güc qazanır", - deyə o bildirib.

"Qarşılaşdığımız şeylərin bariz nümunəsi bizim həyat tərzimizin iqlimə mənfi təsir etdiyini göstərən təkzibedilməz sübutlara etimadın olmamasıdır. Gənclər ayağa qalxanda və tələb edəndə ki, hamımız elmə qulaq asaq və fəaliyyət göstərək, onlar bizim dəstəyimizə layiqdirlər. Elmi metodun qorunması iqlim dəyişikliyi kimi konkret məsələlərdə daha vacibdir", - deyə o qeyd edib.

Nobel komitəsi sədrinin giriş sözündən sonra laureatlar ənənəyə görə, minlərlə təzə güllərlə bəzədilmiş səhnəyə çıxıb, burada kralın əlindən qızıl medallar və fərdi diplomlar alıblar.




Xatırladaq ki, fizika sahəsində 2019-cu ilin Nobel mükafatına Ceyms Pibls, Mişel Meyir və Didier Kelo layiq görülüb. Kimya üzrə mükafat müvafiq olaraq, amerikalı Con Qudinafa və onun iki həmkarına - britaniyalı M.Stənli Uittinqemə və yaponiyalı Akira Yoşinoya verilib. Fiziologiya və təbabət sahəsi üzrə mükafatlara amerikalılar Uilyam Kelin, Qreqq L.Semenza və britaniyalı Peter Retkliff layiq görülüblər.

Builki mərasim onunla fərqlənib ki, ədəbiyyat sahəsində mükafatlar laureatlara həm 2018-ci, həm də 2019-cu illər üzrə təqdim edilib. Belə ki, 2018-ci il Nobel mükafatı polşalı yazıçı Olqa Tokarçuka, 2019-cu il üzrə isə avstriyalı yazıçı Piter Handkeyə verilib. İqtisadiyyat üzrə mükafata Hindistan əsilli amerikalı Abirjit Banerji, fransız əsilli amerikalı Ester Düflo və digər amerikalı Maykl Kremer layiq görülüblər.

Hər nominasiya üzrə pul mükafatının həcmi 9 milyon kron (təxminən 944 min ABŞ dolları) təşkil edir.

# Beynəlxalq konfrans iştirakçıları məktəbdə



Paytaxtdakı 20 nömrəli məktəb-liseydə “Ey Nəsimi, cahanı tutdu sözün…” mövzusunda beynəlxalq elmi-praktik konfransın bədii hissəsi keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Rəşad Tağıyev, Türkiyə, Özbəkistan, Qırğızıstandan olan araşdırmaçı alimlər, BŞTİ-nin nümayəndələri, ziyalılar, müəllimlər, şagirdlər, valideynlər və KİV nümayəndələri iştirak ediblər.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva 2019-cu ilin “Nəsimi ili” elan edilməsini Prezident İlham Əliyevin milli mədəniyyətimizə, xalqımızın tarixi dəyərlərinə göstərdiyi böyük diqqətin təzahürü olduğunu vurğulayıb.

Nazir müavini çıxışında ölkə Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən Nəsimi şəxsiyyətinə, yaradıcılığına xüsusi ehtiram göstərildiyini qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli Nəsiminin təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz adamlarından biri kimi qəbul edildiyini və böyük mütəfəkkirin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə mühüm təsir göstərdiyini vurğulayıb.

Azərbaycan, Türkiyə, Özbəkistan və Qırğızıstandan olan araşdırmaçı alimlər İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə təşkil edilən tədbirlərin ümumi əhəmiyyətinə, məzmununa və örnək ideyasına görə xüsusilə diqqət çəkdiyini bildiriblər. Azərbaycanın dəyərlərinə olan ehtiramı müşahidə etməyin çox xoş olduğunu deyən qonaqlar bütün bunların gələcəyimiz olan uşaqların düzgün istiqamətdə inkişaf etdiyini deməyə əsas verdiyini söyləyiblər.

Konfransda şagirdlərin ifasında görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin şeir və qəzəllərindən nümunələr səsləndirilib, əsərləri əsasında bəstələnmiş mahnılar ifa olunub. Həmçinin şagirdlər görkəmli şairin həyat və fəaliyyətindən bəhs edən ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.




# Video dərslər - təhsilin əlçatanlığı

Təhsil Nazirliyinin *video.edu.az* portalına 1280-dən çox video dərslər yerləşdirilib. Elektron portalda hər ay belə dərslərin sayı artırılmaqdadır.

Portalda 3D animasiyalı videolar, “Khan Academy” dərsləri və qiymətləndirmə sistemli video dərslər mövcuddur. Dərslər yerli və xarici müəllimlərin iştirakı ilə milli kurikuluma uyğun hazırlanır.

Qeyd edək ki, portal müəyyən mövzunun izahında iştirak edə bilməyən və yaxud mövzunu daha yaxşı mənimsəmək istəyən şagirdlər, həmçinin təcrübəli həmkarlarının dərslərini izləmək istəyən müəllimlər üçün geniş imkanlar təqdim edir. Eyni zamanda portal valideynlərin övladlarının təhsillərində iştirak etməsinə dəstək vermiş olur.

# Hədəf bütün rayonlarda xüsusi siniflərin olmasıdır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

## Bu siniflərin şagirdlərinə ümidlər daha böyükdür





Xüsusi siniflərin şagirdləri tam orta təhsilini təmayüllü siniflərdə tamamlayırlar. Bu da onu deməyə əsas verir ki, istənilən halda bu tipli siniflərdən daha yaxşı nəticələr gözlənilir”.

Yaxşı nəticələr isə elə-belə başa gəlmir. Bunun üçün siniflər üzrə il ərzində bir neçə dəfə səviyyə müəyyənləşdirmə imtahanı, müəllimlərin peşəkarlıq səviyyələrinin yüksəldilməsi istiqamətində seminar və mühazirələr təşkil edilir. Xüsusi siniflərə dərs deyən müəllimlər şəhər (rayon) üzrə müvafiq fəndən diaqnostik balı yüksək olanlar arasından seçilir. Bu siniflərin tədris planı və tədris proqramı digər siniflərdən fərqlidir.

Bəs, şagirdlər bu proqramın öhdəsindən gələ bilirmi? Yaxud, onlara olan ümidlərin fərqindədirlərmi?

### Praktik məsələlərin sayı daha çoxdur

VIII sinif şagirdlərindən təşkil olunan təbiət fənləri təmayüllü xüsusi sinifdə fizika, kimya, biologiya həvəskarlarıdır. Onlardan biri, Fidan Əsədli kimya fənni üzrə olimpiadanın rayon mərhələsinin qaliblərindən biridir. Təbiət fənlərinə marağı və ötənilki nəticələri onun xüsusi sinfə seçilməsinə səbəb olub: “Respublika fənn olimpiadasının zona mərhələsində də yarışdım. Ancaq həmin mərhələdəki uğurum son mərhələdə iştirakıma imkan vermədi. Ona görə xüsusi siniflərin təşkil olunması mənim üçün ən sevindirici hadisə oldu. Bu, mənim üçün respublika əhəmiyyətli yarışlarda daha böyük uğur deməkdir”.

Fərid Muradlı da yaxşı oxuyan şagidlərdəndir. Ötən il təbiət elmlərinə marağı və bu fənlərdən əldə etdiyi nəticələr müəllimlərinin və təhsil aldığı məktəbin diqqətindən yayınmayıb: “Kimya, biologiya fənlərini sevirəm. Bütün dərslərimi yaxşı oxumağa çalışsam da, bu fənlərlə məşğul olmaq daha çox xoşuma gəlir. Bu ildən sevdiyim fənn üzrə olimpiadada iştirak etmək istəyirəm. Müəllimim məsləhət bilsə, məni buna hazır hesab etsə, bilik yarışına qatılacağam. Dərslərimiz çox yaxşı keçirilir. Çox işləyirik. Mənim üçün bu dərslərdə iştirak etmək çox maraqlıdır”.

26 nəfərlik bu qrupun fizika elmini öyrənməsində ən yaxın bələdçisi 22 ilin müəllimi Gültəkin Əliyevadır. 1997-ci ildən Biləsuvar şəhər Nizami Gəncəvi adına1 nömrəli tam orta məktəbdə işləyən Gültəkin müəllim diaqnostik qiymətləndirmədə yüksək bal toplayıb. Bu üstünlüyü ona xüsusi sinifdə təhsil vermək haqqı tanıyıb: “Təbiət fənləri təmayüllü xüsusi sinifdə dərs zamanı müxtəlif təlim vasitələrindən istifadə edirəm. Bu və başqa yollarla şagirdlərdə məntiqi-yaradıcı təfəkkür formalaşdırmağa çalışıram. Dərsi elektron resurslardan, çətinliyi artırılmış məsələlərdən istifadə edərək qururam. Tədrisdə praktik məsələlərin sayı daha çox olduğundan şagirdlərimizin bu istiqamətdə bacarıqları da adi siniflərdə təhsil alan uşaqlardan fərqlənir. Bu üstünlüyü onlara həm də fənnə ayrılan saatların çox olması verir. Belə ki, adi siniflərdə təbiət fənləri üzrə dərslər, tutaq ki, 2 saat nəzərdə tutulubsa, xüsusi sinifdə 4 saat aparılır”.

Gültəkin müəllim məzunu olduğu bu məktəbin şagirdlərinə böyük ümid bəsləyir: “Sinfimdən 70-80 faiz yüksək nəticə gözləyirəm. Hazırda qrupda respublika fənn olimpiadalarının zona mərhələsinədək uğurla çıxış edən 3 şagirdimiz var. Onların uğurlarının daha da çoxalacağına, sinifdəki digər uşaqların da yüksək nailiyyətlər qazanacağına əminəm”.

Müəllimin fikrincə, hər hansı yarış və müsabiqədə nailiyyətləri olmasa belə, bu sinfin şagirdlərinin sevdikləri fənlər üzrə illik nəticələri yüksələcək və tam orta təhsili başa vuranda bu istiqamət üzrə hər hansı ali məktəbə girə biləcəklər: “Mən uşaqlara da demişəm, həftədə 4 saat fizika, kimya, biologiya keçmələri onlar üçün həmin fənlər üzrə əlavə hazırlıq kimidir. Qrupdakı uşaqların hər birindən eyni nəticəni gözləmək mümkün deyil. Biz maraqlı, fənni sevən və fənn üzrə nəticələri yüksək olan şagirdlər arasında istedadlı olanları seçib, onları daha yüksək səviyyələrə daşımağa ümid edir, hətta buna inanırıq. Bu sinifdə təhsil fənni sevən ən zəif şagird üçün də yaxşı nəticə deməkdir”.

### Qiymətləndirmə sualları da fərqlənir

1 nömrəli tam orta məktəbdə VII sinif şagirdlərindən təşkil olunan riyaziyyat-informatika təmayüllü 22 nəfərlik qrupda da yüksək əhvali-ruhiyyə müşahidə edilir. Xalid İsmayılzadə deyir ki, riyaziyyatı yaxşı bildiyi üçün buradadır: “Başqa fənləri də sevirəm. Ancaq yaxşı riyaziyyatçı olduğuma görə bu sinifdə təhil almaq şansım oldu. Riyaziyyatı da, informatika fənnini də sevirəm. Hər iki fənn üzrə bacarıqlarımı artırmaq imkanımın olması məni çox sevindirir. Bu il respublika fənn olimpiadasında iştirak edəcəyəm. Artıq özümə güvənirəm”.

Gülay Vəlizadə VI sinifdə oxuyarkən respublika fənn olimpiadasının iştirakçısı olsa da, qazandığı nailiyyət məktəb səviyyəsində qalıb. Artıq özündən daha yüksək nəticələr gözləyir: “Sevdiyimiz fənlər həm daha yaxşı tədris olunur, həm daha çox. İndi daha çox işləyirik”.

Gülay deyir ki, summativ qiymətləndirmələrdəki nəticələri qaneedicidir: “Bu tədris ilində artıq ikinci summativ qiymətləndirmə aparılır. Qiymətləndirmələrdə bu tədris ilində keçdiyimiz deyil, əvvəlki illərdə keçdiyimiz mövzular üzrə də suallar salınıb. Bu qiymətləndirmədə iştirak etmək üçün əvvəlki illərin materiallarını da təkrar etmişik. Belə getsə, bu tədris ilində keçirilən olimpiadada uğurlu nəticə göstərən şagirdlərdən biri də mən ola bilərəm”.

Riyaziyyat-informatika istiqaməti üzrə təşkil olunan xüsusi sinfin müəllimi Nailə Mənsimlinin sözlərinə görə, adi siniflərdə həftədə 5 saat tədris olunan riyaziyyat fənni bu qrupa 7 saat keçilir. Bu sinif də riyaziyyat üzrə illik nəticələri yüksək olan şagirdlərdən təşkil olunub. Bizim onlardan bundan sonrakı gözləntilərimiz respublika və beynəlxalq əhəmiyyətli yarışlarda da özlərini sınamalı və uğur qazanmalarıdır. Hazırlıq məhz bu məqsədə yönəlib. Düşünürəm ki, işimiz öz bəhrəsini verəcək və bir təhsil müəssisəsi olaraq kifayət qədər hazırlıqlı məzunlar buraxacağıq”.

12 ildir məktəbdə riyaziyyat müəllimi işləyən Nailə Mənsimli xüsusi sinfin summativ qiymətləndirmə suallarının da fərqləndiyini deyir: “Çalışıram ki, izah tələb edən sualların sayını daha çox edəm. Bu sinfin şagirdləri çətinliyi artırılmış suallara verdikləri cavablar əsasında qiymətləndirilirlər”.

### Xüsusi sinifdə oxumaq üçün kənddən hər gün şəhərə gəlir

Biləsuvardakı 1 nömrəli tam orta məktəbdə təşkil olanan xüsusi siniflərdə təhsil alanlar ancaq bu təhsil müəssisəsinin şagirdləri deyil. Siniflərin formalaşdırılması Biləsuvar rayonundakı bütün məktəblərin şagird bazasından seçilib. Nəticədə hazırda xüsusi siniflərdə ötən ilədək başqa məktəbin şagirdi olan məktəblilər təhsil alır. Onlardan biri də Elvin Fərəclidir. VIII sinif şagirdi Bəyidli kəndindən gəlib-gedir: “Atam eşitmişdi ki, belə bir sinif təşkil olunur. Mənim də məktəbdə bu istiqamət üzrə olan fənlərdə nəticələrim yüksək idi. Evdə demişəm ki, bu il keçiriləcək respublika fənn olimpiadalarına mən də qatılacağam. Çünki dərslərimiz çox güclü keçirilir və məncə, bu hazırlıqla mütləq nailiyyət qazanacağam”.

Fuad Qarayev 2 ildir başlayan layihənin nəticəsində kifayət qədər yaxşı nəticələr əldə olunduğunu deyir: “Hədəfimiz bütün rayonlarda belə siniflərin olmasıdır”.

### Xüsusi siniflərdən gözləntilər

Məktəblilərin 3-4 faizini təşkil edən istedadlıları tapmaq üçün çıxılan bu yolda ümidlər az deyil. Nəzərdə tutulan proqramı yerinə yetirən və materialı tam mənimsəyən uşaqların sayının artması təhsilin keyfiyyətinə mütləq töhfə verəcək. Bu prosesdə xüsusi istedadlıları aşkarlayıb, onların fərqli şəkildə yetişməsini təmin etmək Azərbaycan təhsilinin böyük hədəflərindəndir. Keyfiyyəti tam təmin etmək üçün təkmilləşdirmə işləri aparılsa da, çatışmazlıqlar da var. F.Qarayevin sözlərinə görə, ən böyük çatışmazlıq bəzən ayrı-ayrı rayonlarda belə siniflərin təşkili zamanı yaranır: “Bir sinfin formalaşması üçün şagirdlərin sayı 15-20 nəfər olmalıdır. Bəzən valideynlər övladlarının məktəbini, bəzən şagirdlər sinfinin dəyişməyini istəmir, istedadlı şagird rayon mərkəzindən kifayət qədər uzaq məsafədə yerləşən yaşayış məntəqəsində yaşayır və onun oxumaq üçün rayon mərkəzinə gəlib-getməyi mümkün olmur. Bu cür problemlər sinfin istənilən səviyyədə komplektləşdirilməsinə maneçilik törədir. Daha bir çatışmazlıq isə xüsusi siniflərin tədris materialları ilə bağlıdır. Hazırda xarici vəsaitlərin tərcüməsi və öz müəlliflərimizin yeni vəsaitlər hazırlaması prosesi gedir. Ancaq bu o qədər də asan deyil. Ümid edirik ki, bu çətinliklərin öhdəsindən qısa zamanda gələcəyik”.

### Ekspertlər də ümidlidir

Bəs, təhsil ictimaiyyəti nə düşünür?

Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov istedadlı şagirdlərin aşkarlanması və onların müvafiq istiqamətlər üzrə hazırlanmasını xüsusi qiymətləndirir. Onun fikrincə, məktəblərin təmayülləşdiyi bir dövrdə bunun region məktəbində bir nümunəsinin olması çox ümidvericidir.

İctimai Şuranın üzvü Etibar Əliyev də xüsusi siniflərin fəaliyyətinin təhsilin keyfiyyətinə təsir göstərəcəyinə inanır: “Bu barədə müəyyən informasiyaya malik olsam da, xüsusi siniflərlə ilk dəfə tanış oldum. Hesab edirəm ki, belə siniflərin təşkili olimpiadalara hazırlıqda məktəblilərə kömək olduğu kimi, həm də onların məktəb təhsilinin keyfiyyətinə də təsir edəcək. Ancaq bu istiqamətdə vahid dərsliklərlə məşğul olmalarını doğru hesab etmirəm. Burada vəsait çatışmazlığı qeyd olundu və düşünürəm ki, bu, çox vacib məqamdır. Vəsaitlərin sayı artırılmalı, dünyadakı xüsusi sinif təcrübəsindən bəhrələnərək bu iş təkmilləşdirilməlidir”.

Təhsil eksperti Nadir İsrafilov siniflərin komplektləşdirilməsi və həmin siniflərdə yüksək nəticə göstərən müəllimlərin tədris aparmasını təqdirəlayiq qiymətləndirib.

# Hərtərəfli inkişafa dəstək

## Təhsil sahəsində yeni Dövlət Proqramı hədəflərinə çatacaq

**Oruc MUSTAFAYEV**

Məlumdur ki, müasir dünya reallıqları şəraitində ölkənin inkişafı yüksək ixtisaslı, müasir səriştə və bacarıqlara sahib insan kapitalından, onun intellektual səviyyəsindən çox asılıdır. Bu isə bir çox hallarda ölkənin davamlı inkişafında həlledici rol oynayan elmi-tədqiqatçıların hazırlanmasını zərurətə çevirir. Bu mənada ötən ilin noyabrında Prezident İlham Əliyev tərəfindən imzalanmış "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" ölkəmizdə yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasına mühüm töhfədir. Özündə xaricdə doktorantura hazırlığı və beynəlxalq ikili diplom proqramlarının təsis olunmasını ehtiva edən yeni Dövlət Proqramının artıq reallaşdırılmasına başlanılıb. Azərbaycanın hazırda xarici universitetlərdə elm və təhsil sahəsində tədqiqatlar aparan gənc alimləri proqramın əhəmiyyəti barədə nə düşünür? Onlardan bəzilərinin "Azərbaycan müəllimi" ilə bölüşdükləri fikirləri oxucuların diqqətinə çatdırırıq.



Sevinc Məmmədova



Rəşad Əliyev



Fariz Hüseynli

### "Proqramın bütün cəmiyyət üçün böyük faydası olacaq"

*Sevinc Məmmədova, ABŞ-ın Corc Vaşinqton Universitetinin layihə direktoru, PhD məzunu:* - Mən düşünürəm ki, "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində doktorantura təhsili Azərbaycan təhsilinə böyük töhfələr verəcək. Çünki doktoranturada oxuyan tələbələr daha çox tədqiqatlar üzərində fokuslaşırlar. Tələbələrin tədqiqat aparmaq bacarığının inkişaf etdirilməsinin isə birbaşa iqtisadi inkişafa böyük təsiri var. Çünki tədqiqat bacarığı olan insanların dünyada olan yeniliklərdən, araşdırmalardan xəbərləri olur və öz bacarıqları ilə ölkə iqtisadiyyatına, ölkənin inkişafına kömək edir, öz töhfələrini verirlər. Mən bir misal gətirim. Məsələn, təhsil istiqaməti üzrə oxuyan doktorant və ya fəlsəfə doktoru (PhD) gələcəkdə Azərbaycanın, tutaq ki, təhsil problemlərini nəzərə alaraq dünyada olan yenilikləri tədqiqatlar vasitəsilə öyrənib Azərbaycan üçün hansısa təkliflər paketi hazırlaya bilər. Yəni, doktorantura proqramının bu kimi əhəmiyyəti var. Bu proqramın üstünlüyü ondadır ki, tələbələrdə tədqiqatçılıq bacarıqlarını artırır və müəyyən konkret mövzular üzrə daha dərin bacarıqlar və biliklərə malik olmalarına kömək olur. Doktorantura adətən bir sahə üzrə fokuslaşır. Adətən magistr və bakalavrlar ümumi biliklər əldə edərək ümumi sahəyə yiyələnirlər. Doktoranturanın ən böyük üstünlüyü ondan ibarətdir ki, konkret bir mövzu üzrə mütəxəssislər hazırlanır. Məncə, bu, Azərbaycana çox vacib olan bir qərardır. Çünki bizdə tədqiqatçılar var, ancaq dünya standartlarına cavab verən, qlobal iqtisadiyyatlarda rəqabət apara bilən bacarıqlar hələ ki, o səviyyədə deyil. Beynəlxalq ikili diplom proqramlarına gəlincə, hesab edirəm ki, bu layihə də Azərbaycan təhsil sisteminə ən yaxşı töhfələrdən biri olacaq. Burada iki məsələ var. Birinci məsələ odur ki, ikili diplom proqramından yalnız tələbələr yox, həm də ali məktəblərin müəllimləri də bəhrələnə biləcəklər. Yəni, proqram çərçivəsində Azərbaycana gələcək professorlarla əlavə tədbirlər, görüşlər planlaşdırılır. Bu cür proqramlara xaricdə sıçrayış təfəkkürü deyirlər. Yəni, təkcə proqram iştirakçıları deyil, başqa iştirakçılar da bundan bəhrələnə biləcəklər. İkinci ən böyük töhfə odur ki, Azərbaycana gələn əcnəbi professorlar bizim universitetlərdə işləyən yerli professorlarla əməkdaşlıq edəcək. Söhbət təkcə birgə dərs deməkdən getmir, həm də birgə tədqiqatlar aparmaq, layihələr işləmək kimi imkanlar yaranacaq. Bu baxımdan, ikili diplom proqramları, Azərbaycanda, mən deyərdim ki, təhsildə ən mütərəqqi addımlardan biridir. Çünki tək tələbələrin diplomla, tədrislə təmin olunması deyil, həm də yerli fakültəyə, yerli administrasiyaya yüksək dərəcədə köməklik göstərəcək ki, onlar həm inzibati, həm də tədqiqat bacarıqlarını inkişaf etdirsinlər. Proqramın təkcə tələbələrə deyil, həm də bütün cəmiyyət üçün böyük faydası olacaq.

### "Gözləntilər böyükdür!"

*Rəşad Əliyev, Dövət Proqramı təqaüdçüsü, 2018-ci ilə qədər ADA Universitetinin müəllimi, hazırda Koreyanın KAİST Universitetinin PhD tələbəsi:* - İlk növbədə qeyd edim ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın ölkəmiz, təhsil sistemimiz üçün çox müsbət nəticələri oldu. Həmin proqram məzunlarının bir çoxu artıq Azərbaycana qayıdaraq müxtəlif sahələrdə çalışır və ölkəmizin inkişafına öz töhfələrini verməkdədir. Dövlət Proqramının daha bir nəticəsi o oldu ki, ölkə daxilində daha yüksək səviyyəli müasir təhsilə tələbat artdı. Bu tələbatın nəticəsi olaraq artıq bir çox uğurlu yeni ali məktəblərimiz var. Yüksək keyfiyyətli bakalavr təhsili mövcuddur. Ancaq ölkədə elmin və sənayenin inkişafı üçün magistratura və doktorantura təhsili də güclü və müasir olmalıdır. Universitetlər yalnız dərs keçməklə deyil, elmi araşdırmalarla məşğul olmalıdır. Bunun üçün gənc və bacarıqlı alimlərə, müəllimlərə ehtiyac var. Fikrimcə, yeni, "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" da məhz bu istiqamətə yönəlib. Bu, çox vacib bir addımdır. Yeni proqramın məzunları artıq bir neçə il sonra elmi işlə, professor fəaliyyəti ilə məşğul olacaq. Bu isə ölkəmizin hərtərəfli inkişafına dəstək olacaq.

Qeyd edim ki, hazırda PhD təhsili aldığım Koreya Respublikası da hazırkı inkişaf səviyyəsinə çatmaq üçün vaxtilə xaricdə təhsil proqramından yararlanıb. Koreyada professorun əsas işi dərs yox, elmi araşdırmadır. Koreyanın ən məşhur ali məktəblərində dərs deyən professorların çoxu ABŞ-da doktorantura təhsili alıb. Yeni proqram bizdə də insan resurslarının inkişafına xidmət edəcək. Gözləntilər böyükdür!

### "Doktorantlar artıq qlobal kadra çevrilir"

*Fariz Hüseynli, ABŞ-ın Şimali Dakota Universitetinin dosenti, PhD məzunu:* - "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan doktorantura təhsili və beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi ali təhsilimiz üçün mühüm qərarlardır. İlk növbədə qeyd edim ki, doktorantura hazırlığı gənclərə geniş imkanlar açır. Əksər xarici universitetlərdə doktorantların təhsil haqqı qrant, ya da ümumi fakültənin, ixtisasın gəlirləri hesabına ödənilir. Yəni, Amerikada bir çox tələbə özü universitetin hesabına doktorantura oxuya bilər. Düzdür, son illərdə büdcə problemləri yaşayan universitetlərə qəbul olunan tələbələrin sayı azalıb. Belə bir vəziyyət azərbaycanlı tələbələrə əlavə şans verə bilər. Proqramın effektivliyi dövlətin məqsədlərindən asılıdır. Doktoranturanı bitirənlər ya ali məktəblərdə dərs deyib araşdırmalar edirlər, ya da yüksək vəzifəli idarəetmə işləri görürlər. Məzunların Azərbaycana qayıdıb uğurlu iş qurmaları üçün uyğun mühitin hazırlanması, onların biliyindən düzgün istifadə olunması öz müsbət nəticəsini göstərəcək. Səviyyəli universitetin doktoranturasını bitirən şəxs artıq qlobal kadra çevrilir.

O ki qaldı beynəlxalq ikili diplom proqramlarına, əlbəttə, bu, yaxşı haldır. Tələbələrin, müəllimlərin təcrübə qazanması üçün çox faydalıdır.

---

# "Kurikulum bələdçisi" kitabının təqdimatı



Dekabrın 9-da "Kurikulum bələdçisi" (izahlar və tətbiqlər) kitabının təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan BP-nin ünsiyyət və sosial sərmayələr üzrə meneceri Tamam Bayatlı layihənin əhəmiyyəti barədə fikirlərini bildirib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək sosial sərmayə layihələrinə xüsusi önəm verdiklərini və Təhsil Nazirliyi ilə səmərəli əməkdaşlıqdan məmnunluqlarını ifadə edib. Bəxtiyar Aslanbəyli bundan sonra da təhsillə bağlı layihələrin reallaşdırılmasına dəstək olmağa maraqlı olduqlarını söyləyib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini İlhamə Abdullayeva öz növbəsində kurikulum anlayışından bəhs edən kitabın ərsəyə gəlməsini yüksək dəyərləndirib və bu işdə rolu olan hər kəsə təşəkkürünü bildirib. İlhamə Abdullayeva qeyd edib ki, "Kurikulum bələdçisi" (izahlar və tətbiqlər) kitabı müəllimlərin müstəqil olaraq yeni pedaqoji anlayışları öyrənə bilmələrinə mühüm dəstək olacaq.

Təqdimat mərasimində çıxış edən Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri də hazırlanmış vəsaitin əhəmiyyəti barədə danışıblar. Qeyd edilib ki, kitabın nəşr ediləcək dövlət ümumi təhsil müəssisələrinə, müəllimlik ixtisasını tədris edən ali təhsil ocaqlarına paylanılması təşəbbüsünün dəstəklənməsi vəsaitin faydalılığını göstərir.

Kitabın hazırlanması ideyasını həssaslıqla qarşılayan və hərtərəfli köməyini əsirgəməyən Təhsil Nazirliyinə, BP-yə, vəsaitin müəlliflərinə minnətdarlığını bildirən "Azedu.az" Təhsil Portalının baş direktoru Elşad Eyvazlı layihənin uğurla başa çatmasından məmnunluğunu ifadə edib.

Tədbirdə çıxış edən kitabın müəlliflərindən Ənvər Abbasov "Kurikulum bələdçisi" (izahlar və tətbiqlər) vəsaiti barədə ətraflı məlumat verib. Ənvər Abbasov bildirib ki, kitab müəllimlərin müstəqil olaraq yeni pedaqoji anlayışları öyrənə bilmələrinə dəstək olaraq hazırlanıb. Kitabda təhsil islahatlarının tələbləri nəzərə alınıb, istər pedaqogikada, istərsə də psixologiyada bu gün üçün yeni olan ən zəruri anlayışlar əhatə edilib.

Qeyd edək ki, kurikulum resursları barədə kitab və pedaqoji terminlərə dair qısa lüğət müəllimlərin və universitet tələbələrinin qabaqcıl tədris metodlarına dair biliklərinin artırılması məqsədilə sosial sərmayə layihəsi çərçivəsində hazırlanıb. Azərbaycanda Sosial Sərmayə Təşəbbüsləri çərçivəsində BP və tərəfdaşları tərəfindən maliyyələşdirilən və "Azedu.az" Azərbaycan Təhsil Portalının təşkilatçılığı ilə hazırlanan layihənin əsas məqsədi müəllimlərin və universitet tələbələrinin qabaqcıl tədris metodlarına dair biliklərini artırmaqdan ibarətdir.

---

# Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının məlumatı

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası 2020-ci il üçün Dövlət Mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir.

Müvafiq sənəd və materiallar Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanı ilə təsdiq edilmiş Dövlət Mükafatları Komissiyasının Əsasnaməsində göstərilən qaydalara uyğun hazırlanmalı və 2020-ci il aprelin 1-dək Komissiyaya təqdim edilməlidir.

**Komissiyanın ünvanı:** AZ 1066, Bakı şəhəri, Lermontov küçəsi, 68, Azərbaycan Respublikasının Nazirlər Kabineti. **Əlaqə telefonu:** 492-83-29. **E-mail:** *nk@cabmin.gov.az*

---

# Tələbələr Almaniyaya təlimə göndərilir

Naxçıvan Dövlət Universiteti Elektroenergetika ixtisasının 7 tələbəsi bir həftəlik Almaniyaya təlimə göndərilir. Günəş panellərinin istehsalı prosesi və digər alternativ enerji texnologiyalarının tətbiqi sahəsinə həsr olunan təlim "Pure Energy Development" SARL şirkətinin Almaniyanın Wismar şəhərindəki fabrikində keçiriləcək.

Universitetin rektoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev tələbələrlə görüşüb, onlara uğurlar arzulayıb. O, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Rektor tələbələrin təlimdə iştirakını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun universitetə birbaşa qayğısı kimi dəyərləndirib, gənclərə gələcəkdə əsl peşəkar kadr kimi formalaşaraq bu sahə üzrə mütəxəssis olmağı tövsiyə edib.

# Məktəbdə və məktəblərarası təbəqələşmə



(Əvvəli ötən sayımızda)

Rüstəm QARAXANLI

## Təhsil göstəriciləri ailənin maddi vəziyyətindən asılıdırmı?

Məktəblər arasında təbəqələşmə bütün dünya üçün adi haldır. Dilləri daha dərindən tədris edən gimnaziyalar, riyaziyyat təmayüllü ödənişli liseylər, özəl məktəblər həm imkanlı valideynləri, həm də onların övladlarını cəlb edir. Belə məktəblərdə tədris prosesi daha keyfiyyətli təşkil olunub, mükəmməl texniki qurğular və laboratoriyalara söz ola bilməz. Bu amillər seçim prosesində mühüm rol oynayır. Üstəgəl, bizim bəzi mental xüsusiyyətlərimiz. Məsələn, mənim övladım bilirsən hansı məktəbdə oxuyur? Yaxud, filankəs oğlunun filan məktəbdə oxuması üçün ildə filan qədər vəsait ödəyir və s.

Qərbdə maddi imkanlara görə təhsil ocaqları seçimi prosesinin ənənəyə çevrilməsinin az qala 500 yaşı var. Təsəvvür edirsiniz, bir nəslin nümayəndələri 4-5 əsrdir eyni ali və ya orta məktəbə daxil və məzun olurlar. Bu səbəbdəndir ki, prezidentlər, baş nazirlər, tanınmış ictimai xadimlər, elm adamlarının eyni məktəbi bitirmələrinə dair çoxsaylı nümunələr var. Başqa sözlə, əgər məktəblər arasındakı fərqdən, yaxud "imkanlı və imkansız məktəbli" mövzusundan danışırıqsa, nəzərə almalıyıq ki, Qərbdə bu proses böyük tarixi yol qət edib, bizdə isə cəmi 20-30 ilin mövzusudur.

### "Kiçik gölməçədə böyük qurbağa effekti"

Aydındır ki, nüfuzunu cəmiyyətə sübut etmək istəyən və göstərdiyi xidmətləri maddi yatırım hesabına edən təhsil ocaqları prosesə şəhərin, yaxud ölkənin ən savadlı və hörmətli müəllim kontingentini cəlb etməyə çalışır. Və buna nail olur. Rahat şərait, qabaqcıl proqram, maddi-texniki baza və savadlı müəllimlər. Uşaq savadlı olmasın? Yaxud, uşaq adi məktəbdə oxuyan həmyaşıdından fərqlənməsin?

Ötən sayımızdakı yazımızda qeyd etmişdik: Qərbdə aparılan araşdırmalar göstərir ki, imkanlı ailələrin övladları kasıb valideynlərin uşaqlarından yaxşı oxuyurlar. Söhbət ondan getmir ki, kiminsə atası şirkət rəhbəridir, digərinin valideyni isə məmur. Sadəcə müasir dünyada yaxşı təhsil üçün maddi imkanın önəmi həddindən artıq böyükdür ki, bu məqama yuxarıda toxunmuşuq. Məsələn, kimin evində kitab ehtiyatı böyükdür? Yaxud belə deyək: kimin ev kitabxanası daha zəngindir? Kimdə kitab çoxdur, təbii olaraq onun övladı məktəbə daha məlumatlı, zəngin söz ehtiyatı və inkişaf etmiş dünyagörüşü ilə gələcək. Əlbəttə, o kitabları vərəqləyibsə. Yaxud, divara asılmış rəflərdəki kitablar evin dizaynının bir detalı deyilsə.

Gəncin təhsil ocağındakı uğuru onun valideynlərinin həyatlarından da asılıdır. Söhbət nədən gedir? Ata və ananın professional statusları, təhsilləri, dünyagörüşləri və aylıq gəlirləri. Məsələn, valideynin diplomu bir çox hallarda yeniyetmə üçün mükəmməl stimul rolunda çıxış edir. Uşaq ailəsindəki maddi rifahı görür və anlayır ki, valideynləri kimi oxuyub həmin o diplomdan əldə edərsə, onun da güzəranı ən azı belə ola bilər. Həyat tək evdə oturmaqdan və işə gedib-gəlməkdən ibarət deyil ki! Uşaq hər şeyi görür və müqayisə edir - teatra və muzeyə getməyi də, ticarət mərkəzlərində edilən alış-verişləri də, xarici ölkələrə və başqa şəhərlərə edilən səyahətləri də. Bütün bunlar onun gələcəkdə nə ilə məşğul olmaq istəməsinə dair qəbul etdiyi qərara ciddi təsirini göstərir.

Rusiyada həyata keçirilmiş bir araşdırmada birinci sinfə gedən uşağın ilin sonunda göstərdiyi nəticələrə ailəsinin maddi durumunun necə təsir etdiyini öyrənməyə çalışıblar. Göstərici olaraq uşağın riyaziyyat fənnindən uğurları, faktor analizi üçün isə 4 amil nəzərə alınıb: ananın təhsili, atanın professional statusu, evdəki kitabların sayı və ailənin orta aylıq gəliri. Məlum olub ki, uşağın bilik əldə etməyə başlamasında ailənin sosial-iqtisadi statusunun ciddi rolu var. Riyaziyyat üzrə fərqlər məktəb daxilindən daha çox, məktəblər arasında büruzə verilir. Yəni, imkanlı ailələrin seçdikləri məktəblərdə uşaqların göstəriciləri daha yuxarıdır.

Cəmiyyət eynicinsli deyil. Varlısı da var, kasıbı da. Bəzən bu təbəqələr arasındakı məsafə böyük olsa belə, onları bir-birlərindən gizlətmək mümkün deyil. Küçədə, məhəllədə, yolda və nəhayət, məktəbdə uşaqlar biri digərini görür, tanıyır və müqayisə edirlər. Biz tez-tez düşünürük ki, rəqabət, digərindən yaxşı olmaq istəyi uşaqları daha güclü nəticələr göstərməyə sövq edir. Bəli, belədir. Ancaq hərdən elə də olur ki, bu istək əks effekt verir. Misal üçün, imkansız ailədən olan uşaq özünü imkanlı həmyaşıdı ilə müqayisə etmək istəyərkən özünəinamını itirə bilər, özünə qapılar. Bu hala "kiçik gölməçədə böyük qurbağa effekti" deyilir. Sözügedən "effekt" yalnız maddi amil rol oynayarkən özünü göstərmir. Misal üçün, ola bilər ki, güclü sinifdə uşaq aktiv sinif yoldaşlarının fonunda öz gücünə daha az inanır.

Biz, eyni zamanda iddia edə bilmərik ki, güclü ətraf ortabab oxumaq qabiliyyəti olan uşağın özünəinam hissini hər zaman azaldır. Çünki "kiçik gölməçədə böyük qurbağa effekti" özünü əks istiqamətdə də göstərə bilər: şagird çox güclü sinifdə oxuyur, ətrafındakı həmyaşıdlarından geri qalmamaq üçün dərslərini daha səylə yerinə yetirməyə çalışır. Başqa sözlə, özünün və özgəsinin uğurlarını nəzərə almaqla ideal balansa nail olmaq mümkündür. Orta və bir qədər yüksək göstəriciləri olan şagird üçün güclü sinifdə oxumaq daha böyüyünü əldə etmək üçün təkan rolunu oynaya bilər.

### Əgər sinifdə varlı ailələrdən uşaqlar varsa...

Məktəblər arasında olduğu kimi, məktəblilər arasındakı təbəqələşmə də aktual problemdir. Məktəbdə tez-tez elə olur ki, bir parta arxasında diametral şəkildə fərqli maddi imkanı olan iki ailənin uşaqları oturur. Bu halda imkansız ailənin başçısı mütəmadi olaraq övladına niyə sonuncu model "İphone" ala bilmədiyinə dair izah verməli olur. Məsələ burasındadır ki, bizim kimi ölkələrin cəmiyyətləri gənc olduğu qədər, mövcud iqtisadi münasibətlər də yenidir. Sovetlər İttifaqının çökməsindən bir müddət sonra bu cəmiyyətlər varlılar və kasıblardan ibarət olmaqla təbəqələşməyə məruz qalıblar. Proses kifayət qədər tez baş verib, hər halda söhbət XX əsrin son illəri - XX yüzilliyin əvvəlindən gedir. Bu, heç də kapitalizmin rüşeym haldan hazırkı duruma gəldiyi prosesi əhatə edən 500 illik Avropa tarixi deyil. Müddət çox kiçik olduğundan bu təbəqələşmənin sosial mexanizmlərinin yetişməsinə vaxt çatmayıb. Nəticə göz qabağındadır: eyni partada oturan uşaqlardan birini məktəbə bahalı cipdə gətirirlər, digəri isə böyük qardaşından qalan paltarları geyinir.

Cəmiyyətdəki "əmlak bərabərsizliyi" ilə hər birimiz uşaqlıqdan tanışıq. Ən sadə əyani sübutu görmək istəyirsiniz? Yeni tədris ilinin ilk günündə birinci sinfə gedəcək körpələrin əllərindəki gül buketlərinə baxın və müqayisə edin. Elə valideyn var ki, övladının məktəbə qədəm qoymasını hansısa restoranda qeyd edir. Buna imkanı çatmayan ata və ana isə özlərini pis valideyn hesab edirlər. Ancaq etməməlidirlər. Sabah nələrin baş verəcəyi məlum deyil. Adi orta məktəbdə oxuyub tədris proqramını yaxşı əxz edən uşaq sabahın potensial tələbəsidir. Onun qarşısında biliklərini dərinləşdirmək, daha nüfuzlu ali məktəbdə təhsilini mükəmməlləşdirib bacarıqlı kadr olmaq üçün saysız-hesabsız imkanlar var. Odur ki, valideyn övladını təhsilə və savada həvəsləndirməyə davam etməlidir.

Pul mövzusu çox qəlizdir. Bu emosional problemin ağrılı eniş və yoxuşları var. Biri üçün məqbul olan yanaşma, digərinə mürəkkəb görünə bilər. Postsovet məkanının təmsilçisi kimi bizim də cəmiyyətimizdə mal-mülk, əmlak və pul mövzuları uzun müddət qadağan olunub. Bu gün isə vəziyyət fərqlidir. İndi gizlətmirik, nümayiş etdirib ətrafa üstünlüyümüzü çatdırmaq istəyirik. Odur ki, uşaqlarınızla ən kiçik yaşlarından maddiyyat mövzusunda müzakirələr aparmaqdan çəkinməyin. Ona niyə sinif yoldaşı filankəsdəki smartfondan ala bilmədiyimizi izah etməyi bacarmalıyıq. Yaxşı olar iqtisadi mövzudakı nəsihətlərinizi elə ailə büdcəsindən başlayasınız. Bu halda nədən onun sinif yoldaşının son model "İphone"si var, siz isə belə smartfon almaq iqtidarında deyilsiniz məzmunlu problemi övladınıza daha asanlıqla izah edə biləcəksiniz.

Avstriyanın "Raifeisen İnternational Bank"ında 6 yaşlı uşaqlara bank kartı açmağa icazə verilir. Bu yolla onlar özləri müəyyən edirlər ki, büdcələrini necə xərcləsinlər, nələrə sərf etsinlər. Bankın işə saldığı mobil əlavə vasitəsilə uşaqlar və yeniyetmələr oyun rejimində özlərinin büdcələrini idarə edə bilirlər.

Mövzumuzun sonunda bir daha ötən sayımızdakı yazının əvvəlinə qayıdaq: hər il yüzlərlə gənc Azərbaycanın ucqar bölgələrindən yüksək göstəricilərlə ali məktəblərin nüfuzlu fakültələrinə daxil olur, onların bir qismi hətta Prezident təqaüdünə layiq görülür. Böyük əksəriyyəti də adi orta məktəb məzunları olur. Odur ki, unutmayın: tədris proqramını keyfiyyətlə əxz edən şagird sabah ali məktəbin tələbəsi olacaq. Ətrafınızda olan iqtisadi fərqliliklərə çox önəm verməyin, dünya belə gəlib, belə də gedəcək. Uşaqları təhsilə və savada həvəsləndirməyə davam edin.

# İstedadları necə aşkar etməli?



**Tanıtım:** Gülmira Yusifova 20 yanvar 1972-ci ildə Dərbənd şəhərində anadan olub. 1978-ci ildən 1988-ci ilədək 3 nömrəli orta ümumtəhsil məktəbində təhsil alıb. 1988-1993-cü illərdə Dağıstan Dövlət Universitetinin (DDU) riyaziyyat fakültəsində oxuyub. Universiteti bitirdikdən sonra riyaziyyat müəllimi kimi 1993-1994-cü illərdə 20 nömrəli, 1994-2007-ci illərdə 4 nömrəli orta məktəblərdə işləyib. Rusiyanın fəxri ümumtəhsil işçisi, 2013-2017-ci illərdə riyaziyyat müəllimlərinin Respublika yaradıcılıq müsabiqəsinin qalibi, Rusiya prezidentinin "Ən yaxşı müəllim" qrantının sahibidir. Riyaziyyat üzrə Vahid Dövlət İmtahanı Ekspert Komissiyasının üzvüdür. 2007-ci ildən bu günə qədər 3 nömrəli gimnaziyada riyaziyyat fənnini tədris edir. 2017-ci ildən etibarən Dağıstan Respublikasının riyaziyyat müəllimləri üçün müntəzəm olaraq veb - seminarlar və ustad dərsləri keçir. 2017-ci ildə "İstedadlı uşaqlarla işin metodik-psixoloji aspektləri" məqaləsi ilə IV Respublika elmi-praktik konfransda çıxış edib. 2018-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində riyaziyyat müəllimlərinin Ümumrusiya qurultayında istedadlı uşaqlarla iş üzrə məruzə ilə çıxış edib. Məruzə hamının marağına səbəb olub və nəşrə hazırlamağı xahiş ediblər.

## Rusiyanın ən yaxşı riyaziyyat müəllimi iş təcrübəsini bölüşür

Oruc MUSTAFAYEV

Sənaye inqilabları dövründə gənc nəslin XXI əsr bacarıqlarına hazırlanması təhsil sistemləri, məktəb, müəllimlər qarşısında bir sıra aktual vəzifələr qoyur. Hərtərəfli, kreativ düşüncə tərzinə, yüksək analitik təhliletmə qabiliyyətinə, müasir səriştə və bacarıqlara malik istedadları necə aşkar etməli? Bu sahədə iş necə təşkil olunmalıdır? Dağıstandan olan riyaziyyat müəllimi Gülmira Yusifovanı doğma respublikada, pedaqoji fəaliyyətlə məşğul olduğu Dərbənd şəhərində yaxşı tanıyırlar. Onun adı Rusiyanın 100 ən yaxşı riyaziyyat müəllimi arasında çəkilir. İstedadların hazırlanması sahəsində iş təcrübəsi muxtar respublikada, Rusiyada geniş yayılıb. "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində Gülmira xanım öz iş təcrübəsini bölüşdü.

*- Gülmira xanım, bizim dövrdə riyaziyyata artan marağı necə izah edərdiniz?*

- Hər şey çox sadədir. Son illərdə sivilizasiyanın və cəmiyyətin özünün inkişafında başlıca diqqət informasiya texnologiyalarına yönəldilir. Ancaq bu texnologiyaların uğurlu inkişafı üçün savadlı proqramçılar, elmin və texnikanın müxtəlif istiqamətləri üzrə bacarıqlı mühəndislər tələb olunur. Diplomlu mütəxəssislər yox, məhz seçdikləri və ali təhsil müəssisələrində öyrəndikləri ixtisaslara mükəmməl sahib olan savadlı insanlar tələb olunur.

Riyaziyyat ağlı nizama alır. Səbirli olmağa və diqqəti qoyulmuş məsələlərin həllində cəmləşdirməyi öyrədir. Riyaziyyat inadkarlığı, məntiqi keyfiyyətləri inkişaf etdirir, düşüncənin sərhədlərini genişləndirir, gözlənilməz həlləri tapmağa kömək edir. Buna görə də məktəb illərində riyaziyyatı yaxşı mənimsəmiş insan seçdiyi ixtisas sahəsində də uğur qazana bilir.

Riyaziyyatın seçilmiş gələcək peşədə profil fənni olub-olmaması vacib deyil, lakin əsas baza olan riyazi anlayışlar və müddəalar, biliklərin fərdin yaradıcılıq fəaliyyətində böyük köməyi olacaq. Bir çox müasir peşələr kifayət qədər yaxşı səviyyədə riyazi bilik tələb edir. Riyaziyyata artan maraq da buradan qaynaqlanır.

*- Şagirdlərdə riyaziyyata marağı necə oyatmaq olar?*

- Bir uşaq məktəbə gəldikdə, çox şey onun diqqətini çəkir. Xüsusilə də ilk müəllimi - onun diqqəti, isti münasibəti və xeyirxahlığı. Uşaqların bir çoxu məktəbə gələndə artıq oxumağı, yazmağı, sadə problemləri həll etməyi bilirlər. Uşaqlarda riyaziyyata maraq oyatmaq üçün ev tapşırıqlarına, sadə də olsa, bir və ya iki olimpiada xarakterli misal əlavə etmək və onlardan tapşırıqları valideynlərin nəzarəti olmadan həll etməyi xahiş etmək faydalıdır. Tapşırıqlar müxtəlif mövzularda və maraqlı olmalıdır. Məsələlərin həllini dərslərdə bütün şagirdlərlə müzakirə etmək də faydalıdır.

İbtidai məktəbdə oyun şəklində dərslər riyaziyyata qarşı böyük maraq oyadır. Xüsusilə də bir məktəbdən və ya müxtəlif məktəblərdən olan bir neçə komandanın iştirakı ilə oyunlar maraq kəsb edir. Oyun şəklində təşkil olunan dərslərdə, uşaqlar öz aralarında rəqabət aparırlar, hətta kifayət qədər çətin mövzular belə, daha asan mənimsənilir. Qalib gəlmək arzusu onlara təslim olmamaqda, diqqəti mürəkkəb məsələlərin həllini tapmağa yönəltməkdə və gözlənilməz həlləri tapmaqda kömək edir .

Yuxarı siniflərdə isə, xüsusilə də çox sayda iştirakçı ilə təşkil olunan olimpiadalar daha səmərəlidir. Mütəmadi olaraq keçirilən bilik yarışları məktəblilərin istəyini motivasiya etməyə, fənn üzrə müəyyən uğurlar qazanmağa və liderliyə can atmağa kömək edir. Məşqçi müəllim kimi çalışdığım məktəblilərin "Ümid" mərkəzində 4-cü sinifdən başlayaraq müxtəlif vaxtlarda, bütün tədris ili ərzində respublika səviyyəli üç olimpiada keçirilir. Noyabrın 23-də IV-XI siniflər üçün keçirilən sonuncu "Pifaqor" olimpiadasında 1300 məktəbli iştirak edib. İstedadlar məhz bu cür olimpiadalarda tez-tez aşkar olunur, onları sonradan riyaziyyat dərnəklərinə dəvət edirik.

Lakin məktəblilərin bacarıqlarının inkişaf etdirilməsində riyaziyyat müəlliminin rolu da vacibdir. Əgər müəllim öz fənninə ürəkdən bağlıdırsa, onda o, şagirdlərini də tədris prosesinə cəlb edir. Belə bir mühitdə, əminəm ki, həmişə riyaziyyatı sevəcək şagirdlər olacaq. Və istedadlar özlərini göstərəcəklər.

*- Sizcə, istedadlı uşaqlarla iş təhsilin ilk səviyyəsindən təşkil olunmalıdır?*

- Çətin sualdır, hərçənd ki, sadə görünür. Əgər bu, ixtisaslaşdırılmış məktəb deyil, ümumi təhsil müəssisəsidirsə, onda istedadlı uşaqlar elə də çox olmur, paralel siniflərin hər birində bir neçə nəfər ola bilər. İlk növbədə, dərslərdə adi ev tapşırıqlarından başqa, həftədə heç olmasa bir dəfə şagirdlərin bəzilərinə əlavə tapşırıqlar olan vərəqlər verilməlidir. Uşaqların heç də hamısı, müəllimin fikrincə, bacarıqlı deyil. Şagird yüksək çətinlik dərəcəsi olan məsələlərin həllini öhdəsinə götürməyə və ya götürməməyinə özü qərar verməlidir.

Çox vaxt öz sinif yoldaşları arasında açıq-aydın seçilən bacarıqlı şagirdlər xüsusən də özlərini mürəkkəb məsələlərin həlli ilə yükləməyə çalışmırlar. Belə şagirdlər üçün onsuz da rahatdır. Onlar onsuz da sinifdə liderdir! Məktəb materialı onlar üçün çətinlik yaratmır və davamiyyətləri də əladır. Buna görə də çalışmağa hazır olanları və çətinliklərdən qorxmayanları cəlb etmək vacibdir.

Deyək ki, əvvəlcədən bu şagirdlər ən güclü olanlar deyil, hər şeyi anlamırlar. Amma addım-addım, müəllimin köməyi və öz şəxsi səyləri sayəsində onlar çox tezliklə lider olurlar. Ona görə də məktəbdə dərnək işini qaydaya salmaq lazımdır.

Şagirdlər mütəmadi olaraq istədikləri mövzu üzrə dərnəklərdə məşğul olmalıdırlar. Bundan əlavə, fakültativ məşğələlər təşkil etmək imkanı da var. Və ya yüksək çətinlik dərəcəli mövzular üzrə effektiv məşğələlər və ya olimpiada mövzulu dərslər təşkil oluna bilər. Bir daha demək istəyirəm ki, istedadlı müəllimin ətrafında həmişə bacarıqlı uşaqlar peyda olur, onlarla işləmək olar və lazımdır.

*- Siz istedadlı uşaqları necə müəyyən edirsiniz?*

- İlk dərslərimdən şagirdlərin sualları necə - dərindən və ya səthi cavablandırmasını izləməyə çalışıram. Tez-tez onlara 10-15 dəqiqəlik müstəqil iş verir, aldıqları qiymətləri jurnalda qeyd edirəm. Təəssüf ki, ev işlərinin yoxlanılması gedişində valideynlərin müdaxiləsi və internetdən hazır həllərin götürülməsi halları gözə dəyir. Zaman belədir. Bir çox şagirdlərin müstəqil işlərə görə aldıqları pis qiymətlərin məni məyus etdiyini büruzə verməməyə çalışıram. Amma bir neçə ay keçir, uşaqlar sinifdə və evdə sərbəst işə alışırlar. Və çoxlarının, hətta ən zəif şagirdlərin nəticələri yaxşıya doğru dəyişir. Sinifdə işlək mühit və şagirdlərin əksəriyyətində riyaziyyata hörmət və sevginin baş qaldırdığı vəziyyət yaranır.

Şagirdlərlə hər bir görüşümdə öz münasibətimlə onlara dərsimə nə qədər ciddi yanaşdığımı anlatmağa çalışıram. Şagirdlərimə də dərsə eyni münasibət bəsləməyi aşılayıram. Belə bir sinifdə riyazi qabiliyyətləri daha yaxşı inkişaf edən şagirdləri tapmaq və ayırmaq çətin deyil. Belə şagirdləri özümün və ya riyaziyyatçı həmkarlarımdan birinin məşğələlər apardığı dərnəyə dəvət edirəm. Əgər dərhal öz qeyri-adi düşüncəsi ilə seçilən şagirdə rast gəlirəmsə, onda onun əməksevərliyini yoxlayıram. Ağıllı olmaq azdır, həm də yüksək ağırlıq dərəcəsi olan məsələləri həll edərkən çətinlikləri aradan qaldırmaqdan qorxmamaq lazımdır.

Bizim respublikada bir neçə şəhərdə məktəblilərin "Ümid" mərkəzinin riyaziyyat dərnəkləri fəaliyyət göstərir. Belə bir dərnək yaşadığım və işlədiyim Dərbənddə də var. Bu dərnəkdə mən öz qrupumla məşğələlər aparıram. Dərnəkdə şəhərin müxtəlif məktəblərindən olan uşaqlar təhsil alırlar. Mənim şəhər qrupumda işlədiyim gimnaziyadan bir şagird var, qalanları isə digər məktəblərin şagirdləridir. Şagirdlərimdə riyaziyyata sevgi aşılamağa və öz iş təcrübələrimi məktəb, şəhər və respublikadan olan həmkarlarımla bölüşməyə çalışıram.

Yetirmələrimin olimpiadalarda qələbə qazanması mənim üçün xoşdur. Xoşdur ki, onlar dərslərə gəlirlər və məni özlərinin məşqçiləri adlandırırlar. Onların sayəsində anladım ki, "başqaların uşaqları" olmur. Onların hamısı bizimkidir. Bir halda ki, onlar mənə gəldilər, deməli, mən onlara cavabdehəm.

*- İstedadlı uşaqlarla iş sahəsində hansısa bir universal yanaşma olmalıdırmı?*

- Uşaqlar uşaqdır. Dərhal hansısa bir xarici əlamətə görə uşağın istedadlı olub-olmadığını necə müəyyən etmək olar? Belə bir universal üsul yoxdur və çətin ki, olacaqdır. Çünki hər bir insan unikaldır.

Amma hər bir müəllim, əgər o öz işinə bağlıdırsa, istedadlı uşaqlarla iş sahəsində öz yanaşmasını hazırlaya bilər. Əvvəlcə işləməyə başladığın hər bir şagirdin meyil və maraqlarını müəyyən etmək vacibdir. Sonra şagirdin əməyə meyilliliyini və nəticələrə nail olmaq bacarığını müşahidə etmək lazımdır. Bundan əlavə, istedadlı uşaqlarla iş üzrə hazırlıq proqramını düşünmək lazımdır, xüsusən də ona görə ki, həm olimpiadalara hazırlıq, həm də ali məktəblərə qəbul üçün hazırlıq məsələləri toplularının geniş seçimi var.

# Məktəblini DOST bilənlər

## Onlar şagirdlər üçün təhlükəsiz mühit yaradırlar



⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### Bu məktəblərə "Məktəblinin dostu" gəlib

Elə bu GÜVƏNin də nəticəsidir ki, artıq 70 məktəbdə 300 məktəblinin dostu fəaliyyət göstərir. Bu ilin may ayında verilən qərara əsasən layihənin əhatə dairəsi genişləndirilib. Bu ildən layihənin əhatəsinə 31 tam orta məktəb, 2 gimnaziya, 2 internat məktəb olmaqla, ümumilikdə 35 ümumtəhsil müəssisəsi əlavə edilib. Əlavə olunmuş ümumtəhsil müəssisələrindən 4-ü Sumqayıt şəhərindədir. 2 tam orta məktəb isə Abşeron rayonunda fəaliyyət göstərir. Ancaq bu da son deyil. Tezliklə məktəblərin sayının 150-yə çatdırılması planlaşdırılır. Məkəblinin dostlarına gəlincə, məktəbdə onların sayı şagirdlərin sayından asılı olaraq, 3, 5, 8, hətta 9-a çatdırıla bilər. Hazırda ən çox məktəblinin dostu 20 nömrəli məktəb-liseydədir.

Bu il məktəblinin dostlarına qapılarını açan ümumtəhsil müəssisələrindən biri olan Bakı şəhər 220 nömrəli məktəb-liseydə 5 məktəblinin dostu fəaliyyət göstərir. Məktəb-liseyin beş dostu Nəcibə İsmayılova, Orxan Yusifov, Aynur Arzumanova, Qəmər Cəfərova və Şahlar Məmmədzadədir. Onlar məktəbə ayaq basandan burada çox şey dəyişib.

### Məktəbdə sıxlıq: Məktəblinin dostlarının çıxış yolu

Nə dəyişib? Məktəbdə hərəkət planından tutmuş sosial-psixoloji mühitə qədər hər şey. Elə ondan başlayaq ki, 220 nömrəli məktəb-lisey şagird sıxlığı müşahidə olunan təhsil müəssisələrindəndir. 2600-ə yaxın şagirdi olan məktəbdə V sinifdən yuxarı olan şagirdlər hər dərsi ayrı-ayrı otaqlarda keçir və 5 dəqiqəlik tənəffüsdə onların hamısı sinifdə öz yerini tutmalıdır, o zaman tənəffüs vaxtı dəhlizdəki vəziyyəti təsəvvür etmək heç kimə çətin olmaz. Təəccüblü deyil ki, tənəffüslərdə tez-tez şagirdlər zədələnib, hətta ciddi xəsarət alanlar olub, tibbi müdaxilə zərurəti yaranıb. Məktəblinin dostları bu məktəbə gələnə qədər belə olub. Ən çox tibbi yardım çağrılan məktəblərdən birinin, necə deyərlər, artıq taleyi dəyişib.

Məktəblinin dostları danışır ki, V sinif şagirdi sıxlıq zamanı yıxılaraq ayağı bud sümüyündən qırılıb. Uşağa tibbi yardım göstərən məktəblinin dostları bu vəziyyətə birdəfəlik çıxış yolu düşünüb: "Məktəbdə hərəkəti rahatlaşdırmaq və şagirdlərin təhlükəsizliyini təmin etmək üçün giriş və çıxışı ayırdıq. Artıq tənəffüs zamanı dəhlizdə hərəkəti tənzimləmək üçün hər mərtəbədə 2 məktəblinin dostu vəziyyətə nəzarət edir".

### Məktəblinin dostu olmaq üçün...

Məktəblinin dostu olmaq göründüyü qədər də asan deyil. İbtidai təhsil pilləsində oxuyanın bir çətinliyi, yetkinlik çağına çatanların ayrı problemləri olur. Ona görə də məktəblinin dostu olacaq şəxsləri tək-tək, çox diqqətlə seçirlər. Bu vəzifəyə təyin olunana qədər keçdiyi yolu Nəcibə İsmayılova danışır. Azərbaycan Dillər Universitetinin məzunu, artıq qeyd etdiyimiz kimi, bu tədris ilindən ilk dəfə məktəblinin dostu vəzifəsinin icrasına başlayan 300-ə yaxın yeni əməkdaşdan biridir. İngilis dili müəllimliyi ixtisası üzrə bakalavr təhsilini 2017-ci ildə bitirib. Məktəblinin dostları ilə tələbəlik illərindən tanışdır: "Təcrübəyə getdiyim məktəb "Məktəblinin dostu" layihəsinin icra olunduğu təhsil müəssisələrindən idi. Orada məktəblinin dostlarının fəaliyyəti ilə tanış olmaq imkanım oldu. O vaxtdan diqqətimi çəkmişdilər. Xoş təəssüratlarım vardı. Universiteti bitirdikdən sonra mütəmadi təhsil səhifələrini izləyirdim. 2019-cu ilin iyul ayından etibarən yeni məktəblərdə məktəblinin dostu vəzifəsini icra edəcək əməkdaşların seçimi üçün verilən elanı gördüm. İctimai fəallığı ilə seçilən, könüllü kimi müxtəlif proqramlarda çalışan, xarici dil bilən 21-30 yaş aralığında ölkə vətəndaşlarına üstünlük verilməsi şansımı artırırdı. Bu şərtlərə uyğun gəldiyimi düşünərək mən də müraciət etməyə qərar verdim və seçilənlərdən biri oldum. "ASAN xidmət" Mərkəzinə dəvət edildim. Psixologiya, məntiq və dünyagörüşündən salınan 50 sualdan ibarət test imtahanından uğurla keçən 749 nəfərdən biri idim. Müsahibəyə dəvət olunan və bu mərhələni də uğurla başa vuran 272 namizədin arasına da qatıldım. Sonra təlimlər keçdik. Psixologiyadan, koordinatorluq, media təlimlərində olduq. FHN əməkdaşları bizə yanğın və başqa fövqəladə vəziyyətlərdə necə davranmağı öyrətdilər. Təlimlər çox maraqlı idi".

Yeri gəlmişkən qeyd edək ki, məktəblinin dostlarının fərdi və peşəkar bacarıqlarının inkişafı məqsədi ilə onlar mütəmadi təlimlərə cəlb edilirlər. Elə 220 nömrəli məktəb-liseydə fəaliyyət göstərən məktəblinin dostlarından biri Qəmər Cəfərova da təlimdə olduğundan bu günlərdə məktəblinin dostları burada 4 nəfərlə təmsil olunurlar. Biri ekran başında kameraların göstərdiyi nöqtələri daimi nəzarətdə saxlayır, digər üçü isə dəhlizlərdə, məktəbin həyətində dolaşaraq dəcəl məktəblilərin gizli niyyətlərini aşkara çıxarırlar.

### Məktəblinin dostu onu qoruyur

Onlar dostlarını hər şeydən qoruyurlar. Ailədaxili şiddətdən tutmuş hər problemə qədər zərbənin önünə keçirlər. Bu zərbə fiziki də olsa, psixoloji də. Cəmi 2 aydır işləməyinə baxmayaraq, Nəcibə İsmayılova məktəbdə artıq çətin psixoloji vəziyyətlə qarşılaşıb: "Dəhlizdə müəllimlərdən biri mənə yaxınlaşaraq sinifdə şagirdlərdən birinin öhdəsindən gələ bilmədiyini dedi. Həmin şagirdlə danışmağımızı, mümkün olmasa, Psixoloji Mərkəzin psixoloqlarının köməyindən istifadə etməyimizi xahiş etdi. Həqiqətən də uşaqla ünsiyyət qurmaq çətin idi. Dərs prosesinə mane olur, dərsdə ağlayır, özünü yerə çırpır, anasını istəyirdi. Uşaqla bir neçə həftə ərzində apardığımız davamlı iş, söhbətlər nəticə verdi. Birinci sinifdə oxuyan həmin şagirdlə bağlı artıq hər hansı problem yoxdur. Müəllimdən bunun üçün təşəkkür də aldıq. Hazırda isə məktəbimizdə təhsil alan sağlamlıq imkanı məhdud bir uşaqla işləyirik. İnklüziv sinifdə təhsil alır. Düşünürəm ki, tezliklə həmin uşaqla da problem qalmayacaq".

Nəcibə deyir ki, məktəblinin dostu olaraq işə başladığı ilk iki ayda yaddaşında ağır iz qoyan hadisə də olub: "Məktəblilərdən biri gözümün qarşısında huşunu itirib yıxıldı. Tez onun yardımına qaçdım. Sonra onunla tibb otağında bir az söhbətləşdik. Ünsiyyət qurub ürəyinə yol tapmağı bacardım. Öyrəndim ki, IX sinif şagirdi olan bu məktəblimiz atasından ciddi təzyiq görür. Bu hadisə atasının onları təhdid etdiyini deyən Aysələ olduğu qədər mənə də pis təsir etdi. Ancaq o gündən Aysellə çox möhkəm dost olduq".

Məktəblinin dostu Aynur Arzumanova isə sinifdə müəllimin şagirdə qarşı şiddətinin şahidi olub: "Şagird dərsi pozmuşdu. Müəllimi özündən çıxartdığı üçün vəziyyət bu həddə çatmışdı. Lakin hamımız bilirik ki, heç bir səbəb uşaqların vurulmasını, döyülməsini haqlı çıxara bilməz. Dəhlizdə gəzərkən gördüyüm faktla bağlı dərsdən sonra müəllimlə danışdım. Onu gördüyümü bilirdi. İrad tutan kimi üzr istəyərək bu halın bir daha təkrarlanmayacağına söz verdi. Buna baxmayaraq, üzərimizə düşəni etdik: faktla bağlı məktəb rəhbərliyinə, Nazirliyə və uşağın valideyninə məlumat verdik".

Məsələ burasındadır ki, məktəblinin dostları onları nəinki müəllimlərinin qəzəbindən, valideynlərinin hikkəsindən, elə öz həmyaşıdlarından, hətta özlərinə vura biləcəkləri ziyandan belə qoruyurlar. Uşaqların biri-birinə sağlam münasibətini formalaşdırmaq, aralarında səmimi ünsiyyəti bərpa etmək məktəblinin dostlarının iki ayda əldə etdiyi ən böyük uğurlardandır. Məsələn, 1 nömrəli Uşaq Evinin məktəbə gələn 66 sakinindən biri Azaddır. Çətin idarə olunan Azad Sarıyev artıq 20 yaşın içindədir. Yaşından da göründüyü kimi, vaxtında məktəbi bitirə bilməyib. Hazırda 220 nömrəli məktəb-liseyin XI sinif şagirdidir: "Bu ildən ingilis dilini öyrənməyə başlamışam. Artıq V sinfin materialını çox qəşəng bilirəm. Yaxşı təşkilatçıyam. Uşaq Evində də, məktəbdə də bu bacarığımdan istifadə edirlər. Məktəbdə sinif nümayəndəsi oldum. Məktəblinin dostu da məni bir layihəsinə cəlb elədi. Həyatla birlikdə "Arşın mal alan" tamaşasının ssenarisini hazırlayırıq".

Azadın barəsində danışdığı IX sinif şagirdi Həyat Allahverdiyeva da 1 nömrəli Uşaq Evində yaşayır. Azaddan fərqli olaraq o, özünə, davranışlarına nəzarət etməyi bacaran bir şagirddir. Təhsilinə uğurla davam edir. İndiyədək məktəbdə hər hansı problemi yaranmayıb. "Arşın mal alan" üzərində birgə işdə Azad qədər olmasa da, o da həvəslidir.

Həyatla Azadı birləşdirən yeni layihə ilə bağlı söhbəti "Məktəblinin dostu" layihəsinin PR meneceri Nərgiz Kərimova davam etdirir. Dediyinə görə, məktəblərdə maraqlı layihələr həyata keçirirlər: "Azad məktəbdə dəcəl, ipə-sapa yatmaz şagird kimi tanınır. Buna baxmayaraq, əməkdaşlarımız onun istedad və bacarığını aşkarlamağı bacarıb. Həyatla Azadın hazırlayacağı ssenariyə yazıçılardan rəy alıb, həmin ssenari üzrə tamaşanı səhnəyə qoyacağıq. Ümumiyyətlə, belə tədbirlərimiz çoxdur və istedadlı uşaqları çox uğurla üzə çıxarırıq. Rəsm, mahnı, şeir və başqa yaradıcı sahələr üzrə istedadları müəyyənləşdiririk. Bunun üçün məktəblilər arasında sorğu keçirib onların maraq sahələrini öyrənirik. Məktəblərdən birində diktorluğa həvəsi olan uşaqlar olduğunu aşkarladıq. Biz də Rafiq Həşimovla həmin uşaqları görüşdürdük. Maraqlandıqları suallara Rafiq Həşimovdan cavab aldılar. Ümumiyyətlə, sorğu nəticəsində uşaqlar üçün maraqlı olan insanları müəyyənləşdirir, onların görüşünü təşkil edirik. Uşaqların maraqlarına uyğun tədbirlər, müsabiqələr, yarışlar keçiririk. İstedadı olanları seçmək məqsədi ilə keçirdiyimiz belə tədbirlərdən uğurlu nəticələr əldə edirik. Hətta direktorlar belə, rəhbərlik etdikləri məktəblərdə təhsil alan uşaqların belə bacarıqlarının olduğuna təəccüblənirlər".

220 nömrəli məktəb-liseydə məktəblinin dostlarının təsir göstərdiyi və artıq dəyişməyə nail olduğu məqamlardan biri də valideynlərlə bağlıdır. Məktəblərin valideynlərlə sıx əməkdaşlığı əsas tələblərdən olsa da, bu əməkdaşlıq bəzi hallarda məqsədini aşır. 220 nömrəli məktəbdə də uzun illər belə olub. Valideynlərin məktəb binasına girişində, orada saatlarla qalmasında heç bir məhdudiyyət olmayıb. Lakin artıq valideynlər əvvəlki qədər sərbəst deyillər və təəssüf ki, bununla barışmaq istəməyənlər də olur. Hətta binaya buraxılmadığı üçün qapıçıya qarşı fiziki zorakılıq göstərən atalar da olub. Faktlardan birinin şahidi olan məktəblinin dostu Şahlar danışır ki, qapıçıya hücum edən valideyni sakitləşdirmək üçün araya girib: "Hər gün məktəbə gələn valideyndir. Qapıçı onu içəri buraxmayanda əsəbləşib ona hücum elədi. Yaxşı ki, ordaydım. Tərəfləri ayırdım. Əslində,valideynin qolundan tutub geri çəkəndə onun özünün də hərəkətindən peşiman olduğunu anladım. Sanki kiminsə onu ayırmasını, sakitləşdirməsini gözləyirmiş kimi, mən müdaxilə edən kimi çəkildi".

Bəs, hücum edən şəxs qərarında daha qəti olsaydı... Bir anlıq hirslə deyil, planlı şəkildə, məktəbliyə və məktəblilərə ziyan vurmaq məqsədilə gələn bir şəxs olsaydı... Orxanla Şahlar deyir ki, fərq etməz. Onlar hər hansı hücumun qarşısını almağa hazırdırlar. Yaxın döyüş növləri üzrə hər biri təlim keçib. İstənilən hücumu dəf etmək, hücum edən şəxsi zərərsizləşdirmək iqtidarındadırlar.

"Məktəblinin dostu" layihəsinin PR meneceri Nərgiz Kərimova təsdiq edir ki, təlimlərdə bu tip hazırlıqlara xüsusi əhəmiyyət verilib. Tapşırıqların yerinə yetirilməsində qızlara belə güzəştə gedilməyib: "Təlim tapşırığı olan birinci mərtəbədən tullanmaqda qızlara belə güzəştə getmədilər. Yerimək, hadisə yerindən özü çıxmaq iqtidarında olmayan məktəblini qorumağı və ordan uzaqlaşdırmağı hər bir əməkdaşa öyrədiblər".

Məktəblinin dostları 220 nömrəli məktəb-liseyin inklüziv təhsil siniflərindəki münasibətlərə də təsir göstərib. Məktəblinin dostları danışır ki, inklüziv təhsil siniflərində uşaqların sağlamlıq imkanları məhdud uşaqlara münasibətləri pis idi. Bu yanaşmaya doğru müdaxiləni edən məktəblinin dostları sinifdə səmimi ortam yaratmağa nail olub. İndi sağlamlıq imkanları məhdud uşaqlara münasibət nəinki dəyişib, hətta valideynlərinin onlarla bərabər dərsdə iştirakına da artıq ehtiyac qalmır. Sağlamlıq imkanı məhdud uşaqlara sinif yoldaşları kömək edirlər.

### Valideynin güvəni

İşi asanlaşan, həyatı nisbətən rahatlaşan, sadəcə sağlamlıq imkanı məhdud şagirdlərin valideynləri deyil. Məktəblinin dostu gələndən valideynlərin fikri məktəbdə, uşaqlarının yanında qalmır. Nərgiz Kərimova valideynlərlə iş və onlar arasında məktəblinin dostlarının nüfuzuna diqqət çəkir: "Yeni olan məktəblərdə valideyn iclası keçiririk. Onlara layihə ilə bağlı məlumat veririk. Tanışlıq məqsədi ilə keçirilən belə görüşlərdə məlum olur ki, valideynlər bizi tanıyır: Həmin toplantılarda uşağı ilə söhbət aparmağı xahiş edənlər çox olur. Belə müraciətləri valideynlərdən tez-tez eşidirik. Hətta, övladı ilə birlikdə özünün də iştirak istəyini bildirənlər olur".

Valideynlərin məktəblinin dostuna olan isti münasibətini Nigar Məlikova da təsdiq edir. Nigar xanımın iki övladı 220 nömrəli məktəb-liseydə oxuyur. Hələ ibtidai sinif şagirdidirlər: "Məktəb Bakının ən yaxşı təhsil müəssisələrindəndir. Bu məktəbi onun şöhrətini eşidib seçmişik. Məktəblinin dostları gələndən sonra da daha güvənli olub. Qızlarım dostlarını çox sevirlər. Adlarını bilməsək də, qızlarım da, mən də onları geyimlərindən tanıyırıq. Çox mehribandırlar. Evdar qadınam. Uşaqları məktəbə özüm aparıb-gətirirəm. Qapıdan onlara təhvil verir, onlardan da alıram".

Nigar xanımın sözlərinə görə, məktəblinin dostlarına çox güvənir. Bu güvəni isə həm öz təcrübəsi, həm də başqa bir valideynlə bağlı gördüyü hadisələr yaradıb: "Məktəblinin dostlarından biri dişi ağrıdığı üçün qızımı diş həkiminə aparıb. Mənə xəbər verdilər. Dərhal mən də uşağımın aparıldığı həkimin yanına getdim. Gedib gördüm uşağımın yanında gözləyir. Mən ora gələnə qədər uşağın başından çəkilməmişdi. Bir dəfə şahid olduğum fakt isə onlara güvənimi birə-beş artırdı. Valideynlərdən biri uşağının dalınca gələ bilməmişdi. Qonşusundan xahiş etmişdi ki, onun uşağını da aparsın. Mənim üçün maraqlı və çox təsirli hadisə oldu. Məktəblinin dostları valideynlə əlaqə saxlayıb qonşu valideynin dediklərinin doğruluğunu təsdiq etmədən uşağı ona vermədilər".



### Şagirdlərin sevgisi...

Bəs, bu dostluq haqqında məktəblilər nə düşünür? Onlar da bu dostluqdan məmnundurlarmı?

220 nömrəli məktəb-liseyin şagirdləri bəzən necə müraciət edəcəyini belə bilmədiyi məktəblinin dostlarını dost bildilər. Bəzən heç adını da bilmədən qarşılıqlı dost münasibətindən yararlandılar. Ötən iki ayda nə vaxt sevdilər, nə zaman doğmalaşdılar, özləri də anlamadılar. Azad Sarıyev deyir: "Hər gün onları burda qoyub gedirəm. Ancaq nə vaxt gəlirəm, görürəm burdadırlar. Təzə gələndə düşünürdüm ki, görəsən, bunların evi-eşiyi yoxdur?".

Yasəmən Nəsibova X sinif şagirdidir. Məktəblinin dostlarını çətin anında tanıyıb, sevib: "Sinif yoldaşımın ürək problemi var. Məktəblinin dostu olmasaydı, yoldaşımız üçün nə edə biləcəyimizi bilməzdik. İstər ilk yardım göstərməkdə, istərsə də onun həkimə çatdırılmasında dostlarımızın rolu danılmazdır. Onlar gələndən dəhlizlərimizdə də sakitlikdir".

Leyla Şəfaqətova isə XI sinif şagirdidir. Təmayüllü sinifdə təhsil alır. Diktor da olmaq istəyir, hüquqşünas da. Hələlik qərar verməyib. Elə sinifləri təmayülləşəndə də qərar verməkdə çətinlik çəkib: "Bütün ixtisas qruplarını "gəzmişəm". Qərar verməkdə çətinlik çəkdiyim üçün də təmayülləşmə zamanı müəllimlərim kömək etdilər. Onların tövsiyəsi ilə humanitar istiqamət üzrə təmayülləşdim. Məktəblinin dostlarının da məktəblilərə ixtisas seçimində istiqamət verdiyini bilirəm. Bu da daxil olmaqla, qərar verə bilmədiyim bir çox məsələlərdə onlarla söhbətləşirəm. Dərsdən sonra hazırlıqlarım başlayır və o vaxta qədər arada fasilə yaranır. Həmin vaxtda hər zaman qapının yanında olan məktəblinin dostları ilə söhbətləşmək imkanım olur. İstənilən məsələdə onların məsləhətini alıram".

Leyla üçün məktəblinin dostları həm də ədalətin təminatçısıdır: "Məktəbimizdə voleybol yarışı təşkil etdi məktəblinin dostları. Biz bu yarışda fərqli ab-hava gördük. Paxıllıq yox, ədalətsizlik yox. Sağlam rəqabət mühitində ədalətli bir yarış təşkil edildi. Təəssüratlardan gördüm ki, hər kəs əylənərək yarışdı və yarış mühitindən də, nəticələrdən də razı qaldılar".

Uzun sözün qısası, valideynlər də, şagirdlər də onları adbaad tanımır. Kimliyindən asılı olmayaraq, məktəblilər üçün onlar dostdur.

### ...onlar gördüyü işdən zövq alırlar

Məktəblinin dostları hər keçən gün məqsədinə yaxınlaşır. Məktəbli ilə arasındakı məsafə aradan qalxdıqca, valideynlərin onlara və məktəbə güvəni artır. Məktəb dəhlizlərində şagirdlərin sevgi dolu baxışlarını hiss etmək isə onları daha da ruhlandırır. Bu ildən məktəblinin dostu seçilən Aynur Arzumanova kimi.

Məlumat üçün qeyd edək ki, Aynur Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2016-cı il məzunudur. Fransız dili müəllimliyi ixtisası üzrə bakalavr təhsilini tamamladıqdan sonra kurslarda müəllimlik edib. Könüllü fəaliyyəti onun "Məktəblinin dostu" layihəsinədək olan yolunu qısaldıb: "Uşaqlarla indiyədək ünsiyyətim çox olduğundan bu işin öhdəsindən gəlirəm. Məktəblinin dostu olaraq daha çox uşaqlara kömək edə bildiyimə görə sevinirəm. Xüsusən ibtidai sinifdə oxuyan uşaqları sevindirmək, onların gözündə özünə qarşı sevgini hiss etmək çox gözəldir".

# Universitetlər yerləşdikləri regionun inkişafının əsas drayverinə çevrilir

## Mingəçevir Dövlət Universiteti və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə konfrans keçirilib



Mingəçevir şəhərində Mingəçevir Dövlət Universiteti və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə "Sosial-İqtisadi İnkişafın Dayanıqlı Enerji Təminatı: universitet-sənaye iş birliyi və innovativ kadr hazırlığı" mövzusunda I regional elmi-texniki konfrans keçirilib.

Hər iki ali təhsil müəssisəsinin professor-müəllim və tələbə heyətinin iştirak etdiyi konfransı açan Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov tədbirin təşkil olunmasında əsas məqsədin energetika sisteminin kadr və elmi-metodiki təminatında universitetlərin rolu, energetikanın müasir problemləri, regionların sosial-iqtisadi inkişafının təmin olunması baxımından elektrik stansiyalarının əhəmiyyəti və digər mövzularda müzakirələrin aparılmasından ibarət olduğunu bildirib. Ş.Bayramov Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası ilə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi çərçivəsində keçirilən konfransda universitet-sənaye işbirliyi mövzusunda ətraflı fikir mübadiləsinin aparılmasının və potensial əməkdaşlıq imkanlarının müəyyən edilməsinin nəzərdə tutulduğunu qeyd edib. Tədbirdə şəhər rəhbərliyinin, "AzərEnerji" ASC-nin səlahiyyətli nümayəndəsinin, "Mingəçevir Su Elektrik Stansiyaları Silsiləsi" MMC-nin və "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin rəhbər şəxslərinin iştirakının konfransın qarşıya qoyduğu məqsədlərə çatması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Hazırda universitetlərin missiyasının dəyişməsi və onların yerləşdikləri regionun inkişafının əsas drayverinə çevrilməsi konseptini vurğulayan Ş.Bayramov Mingəçevir Dövlət Universitetinin də Mingəçevir və ətraf rayonların sosial-iqtisadi inkişafına töhfə verməsinə çalışdığını diqqətə çatdırıb.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov qonaqları salamlayaraq konfransın çox aktual bir məsələyə həsr olunduğunu vurğulayıb. İ.İsmayılov Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn çağırışlar arasında mühüm yer tutan dayanıqlı enerji təminatı məsələsinə ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən dövlət siyasətinin məzmununda xüsusi önəm verildiyini diqqətə çatdırıb.

Azərbaycan Texniki Universitetinin rektoru professor Vilayət Vəliyev hər iki ali təhsil müəssisəsinin energetika sistemi üçün yüksək ixtisaslı kadr hazırlığı və müvafiq elmi-tədqiqatlar apardığı barədə məlumat verib, təşkil olunan konfransın bu istiqamətdəki fəaliyyətin təkmilləşdirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib. V.Vəliyev tədbir çərçivəsində aparılacaq müzakirələrdə əmək bazarının mövcud və potensial ehtiyaclarının öyrənilməsinin və universitetlər tərəfindən istehsal müəssisələri üçün təklif oluna bilən müvafiq tədris və tədqiqat xidmətlərinin müəyyən edilməsinin hədəfləndiyini diqqətə çatdırıb. Mingəçevir şəhərinin ölkəmizin energetika sistemində aparıcı yer tutduğunu vurğulayan V.Vəliyev Mingəçevir Dövlət Universiteti ilə birlikdə bu şəhərdə yerləşən istehsal müəssisələrilə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün sistemli və ardıcıl tədbirlər həyata keçirəcəklərini bildirib.

"AzərEnerji" ASC-nin vitse-prezidentinin müavini Vüqar Şahmuradov son illər ərzində ölkəmizin energetika sisteminin modernləşdirilməsi və elektrik stansiyalarında müasir texnologiyaların tətbiqi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. V.Şahmuradov hər iki universitet tərəfindən irəli sürülən əməkdaşlıq təşəbbüslərini yüksək qiymətləndirib və tədrisin məzmununun təkmilləşdirilməsi sahəsində ali təhsil müəssisələrinə müvafiq dəstəyin göstərilməsinə hazır olduqlarını qeyd edib.

Konfransın plenar iclasında Azərbaycan Texniki Universitetinin "Elektromexanika və elektrik avadanlığı kafedrasının" professoru, texnika elmləri doktoru Allahverdi Orucov "Elektroenergetikanın müasir problemləri və bu sahə üçün kadr hazırlığının aktual məsələləri" və Mingəçevir Dövlət Universitetinin "Energetika" kafedrasının müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Ülkər Aşurova "Azərbaycanın energetika sisteminin kadr və elmi-metodiki təminatında universitetlərin rolu" mövzularında məruzə ediblər.

Eyni zamanda, "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Təhmasib Hüseynov "Regionların sosial-iqtisadi inkişafında elektrik stansiyalarının rolu" və "Mingəçevir Su Elektrik Stansiyaları Silsiləsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş mühəndisi Azad Səmədov "Milli energetikamız yeni inkişaf mərhələsində" mövzularında çıxışları dinlənilib.

Sonra professor-müəllim və tələbə heyəti üzvlərinin laboratoriyaların inkişafı, tədrisin məzmunu, adlı təqaüd, təcrübənin təşkili, işə qəbul və digər mövzularla bağlı çoxsaylı sualları cavablandırılıb.

Plenar iclasın sonunda rektorlar tərəfindən "Azərbaycan Texniki Universiteti və Mingəçevir Dövlət Universiteti arasında təhsil, elm və innovasiya fəaliyyəti üzrə qarşılıqlı əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanıb.

Konfrans çərçivəsində "Azərbaycan İES" MMC və "Mingəçevir SES" MMC-yə səfər edən professor-müəllim və tələbə heyəti üzvləri istehsal prosesi ilə yaxından tanış olublar.

Konfransın işində fəal iştirak edən hər iki universitetin tələbələrinə sertifikatlar təqdim olunub.

Tədbirin təşkilində Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramının MDU tələbələrindən ibarət komandası fəal iştirak edib.

# Aqressiv təbiətli şagirdlərlə iş təcrübəmdən

**Əli QULİYEV,**
*Beyləqan rayonu Dünyamalılar kəndi, Əlibala Şirinov adına 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Pedaqoji fəaliyyətimdə müxtəlif təbiətli şagirdlərlə qarşılaşıram. Elə şagirdlər var ki, onlar aqressiv təbiətə malikdirlər. Onlar həm sinif yoldaşları, həm də müəllimlərlə tez-tez gərgin anlar yaşamalı olurlar. Ancaq bir müəllim olaraq mənim üçün bütün təhsilalanların bir adı var: Şagird. Və müəllimlik həyatımda Yan Komenskinin bir fikrini özüm üçün şüar etmişəm: "Yüksək əqli imkanlara və bacarıqlara malik uşaqlar var, lakin onların dəcəlliyi və inadkarlığı üzündən hamı onları inkar edir, yararsız hesab edir. Bu uşaqlara düzgün yanaşmanı tapıb tərbiyə etsək, onlar dahi olaraq böyüyərlər".

Tədris prosesində aqressiv təbiətli şagirdlərlə iş apararkən aşağıdakı qənaətlərə gəlmişəm:

1. *Ən yaxşı nümunə olmaq.* Jozef Jubert yazırdı: "Uşaqların nəsihətdən çox yaxşı nümunəyə ehtiyacı var". Unutmayaq ki, şagirdlər ən yaxşıları həyatlarına nümunə götürür və onların hərəkətlərini təqlid edərək böyüyürlər. Məhz nümunəvi müəllim olaraq aqressiv şagirdlər üçün ideal ola bilərsən. Onlar sənin əməllərindən ibrət ala, gələcəkdə sakit təbiətli bir insan ola bilərlər.

2. *Aqressiv təbiətli şagirdləri yaxşı tanımaq.* Məktəb həyatında onları hirsləndirəcək nüansları müəyyənləşdirmək və məntiqi şəkildə bu şeylərdən uzaq tutmaq lazımdır. Müəllim üçün ən vacib məsələ qarşısındakı şagirdləri dərindən tanımaq, onların xarakterindəki ən incə məqamları anında sezməkdir. Usta müəllim olmaq istəyirsənsə, usta da psixoloq olmalısan.

3. *Danışarkən səs tonunu nəzərə almaq.* Yüksək səslə danışıq aqressiv şagirdləri bir qədər də aqressivləşdirir, onlara şüuraltı mənfi təsir göstərir. Qışqırmaqla, onların üzərinə yeriməklə heç nə əldə edə bilməzsən. Əksinə, məsələləri daha da gərginləşdirə, fərqli məcralara yönəldərsən. Çalış ki, qəlblərə asta səslə usta yol tapan ol.



4. *Fiziki cəza tədbirlərini tətbiq etməmək.* Aristotel yazırdı: "Döyməklə uşağı yalnız korlamaq olar". Ən qəzəbli anda belə səsini yüksəltmək, şagirdlərə əl qaldırmaq düzgün üsul deyil. Qarşınızdakı şagirdlər də qışqıra bilərlər, özünümüdafiə tədbirinə əl atarlar. Ən yaxşı üsul onların sakitləşməsi üçün şərait yaratmaqdır. Hətta divarı belə yumruqlamalarına göz yummaq lazımdır. Çünki bu zaman onlar bütün hirslərini cansız əşyaların üzərinə tökəcək və sakitləşəcəklər.

5. *Sevgi ilə yanaşmaq.* Jilbern Sesborn yazırdı: "Sevgi görməyən uşaq uşaqlığını yaşaya bilmir. O, müdafiəsiz böyüyə çevrilir". Aqressiv şagirdlər müəlliminin onlara nə qədər sevgi hissi ilə yanaşdığını ruhən duymalıdırlar, daha özlərini təklənmiş, müəllim sevgi və şəfqətindən məhrum olmuş kimi hesab etməməlidirlər.

6. *Sosial davranış qaydalarını izah etmək.* Onlara cəmiyyətdə rolunu xatırlatmalı, etik davranış qaydalarından, şagirdlərin hüquq və vəzifələrindən hər fürsətdə danışmaq gərəkdir. Müəllimlər və digər məktəblilərlə necə münasibət qurmalı olduqlarını nəzərlərinə çatdırmalısan. Onlara davranışları ucbatından yoldaşlarını itirə biləcəyini xəbərdar etməlisən.

7. *Səbrlə səhvlərini izah etmək.* Aqressiv şagirdlər qəzəbli, sərt olduğu vaxtlarda onlarla ünsiyyət alınmaz. Sakitləşmələrini gözləmək, daha sonra nəyi səhv etdiklərini sakit səslə izah etmək lazımdır. Onlara "siz tərssiniz", "siz aqressivsiniz" kimi cümlələr işlətməməli, bu zaman özün də tərsləşməməlisən. Aqressiv olduğu zamanlarda şagirdlərə "yox" deməyi bacarmalısan. Ancaq sonra bu "olmaz"ın izahını da verməyi unutmamalısan.

8. *Hər bir dəcəlliyə qadağa qoymamaq.* Jan Jak Russo yazırdı: "Uşağınızdan müdrik bir insan yetişdirmək istəyirsinizsə, onun dəcəlliyini məhv etməyin".

Hansısa bir dəcəlliyə göz yummaq da ustalıq tələb edir. Dəcəlliyə görə qoyulan qadağa hər zaman effekt verə bilməz. Odur ki, hər hansı bir qadağa qoyarkən onu səbrlə izah etməli, qadağalar çərçivəsində qazandıqlarını, əks vəziyyətdə isə itirəcəklərini sadalamalısan.

9. *Müsbət hesab etdiyiniz davranışlarını qiymətləndirmək.* Aqressiv şagirdlərin də potensialları var. Peşəkar müəllim kimi bu potensialları üzə çıxarmalı, həmin şagirdləri yüksək qiymətləndirməli, hətta mükafatlandırmalısan. "Gözəl söz ən böyük mükafatdır" deyimini unutmayaq. Xeyislik etmədən ən yaxşı sözlərlə onlara qürur hissi yaşatmaq olar:

- "Əhsən! Mən sənə inanırdım!"
- "Bəli, Sən bunu bacardın!"
- "Afərin! Yoldaşların da səninlə fəxr edir!" və s.

Bu xoş sözlər onlarda özünəinam hissi yaradacaq.

10. *Yoldaşları ilə ünsiyyət qurmasını təmin etmək.* Məhəmməd peyğəmbər buyurmuşdur: "Sizin ən yaxşınız ən gözəl xasiyyətlinizdir, o kəsləriniz ki, özləri başqaları ilə ünsiyyət tuturlar, başqaları da onlarla ünsiyyət tuta bilir".

Ünsiyyətin sosial tələbat olduğunu bilərək aqressiv təbiətli şagirdlərin öz yoldaşları ilə birgə daha çox vaxt keçirmələrinə şərait yaratmalısan. Bu, onlara öz vəzifə və məsuliyyətlərini dərk etməyə yardım edəcək. Lakin onların digər aqressiv şagirdlərlə dostluq etməsinə imkan verməmək lazımdır.

11. *Gerçəkləri göstərməklə aqressiv şagirdlərin güvənini qazanmaq.*

Dərslərinin birində müəllim şagirdlərə belə bir tapşırıq verir:

- Hər kəs yumruqlarını sıxsın, növbə ilə əvvəlcə sağ əlinin şəhadət barmağını, daha sonra isə sol əlinin şəhadət barmağını yuxarıya qaldırsın.

Bunu deyən müəllim barmaqlarını yumruq şəklində yığaraq baş barmağını yuxarıya qaldırır. Şagirdlər də müəllimin bu hərəkətini təkrar edirlər. Bunu görən müəllim deyir:

- Əziz şagirdlər, mən sizə şəhadət barmağınızı yuxarıya qaldırın desəm də, özüm baş barmağımı yuxarıya qaldırdım. Sizlər isə mənim hərəkətlərimi eynilə təkrar etdiniz. Yadda saxlayın, şagirdlər müəllimlərinin dediklərini yox, göstərdiklərini daha tez öyrənirlər. Çünki mənə güvəndiniz.

Bəli, məhz güvənəcək müəllimlərinin sayəsində aqressiv şagirdlər də sabahın güvənli insanları olacaqlar.

Şagirdlərimizi qoruyaq, onlara nümunə olaq, onların nümunəvi olmasının təməllərini ataq.

***

Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasında yazırdı:

*Bir səf qız oturdu, bir səf oğlan,*
*Cəm oldu behiştə huri qılman.*

Məktəbi behiştə, şagirdləri isə hurilərə və qılmanlara bənzədən dahi şairimiz biz müəllimlərin ikinci evini və mənəvi övladlarını necə də gözəl təsvir etmişdir.

# Dinlə və öyrən

**Rəşad ZİYADOV**

Təhsildə inkişaf və innovasiyalar üzrə üçüncü qrant müsabiqəsinin qalibi Dinlə və Öyrən layihəsi artıq növbəti mərhələsini həyata keçirdi.

Layihə çərçivəsində 16 məktəb olmaqla hər məktəb üzrə 4 sinif, ümumilikdə isə rayon üzrə 64 sinif layihədə iştirak edir. 1500-dən çox şagirdin cəlb olunduğu layihədə əsas məqsəd şagirdlərin kiçik yaşlardan etibarən buraxılış imtahanlarında tətbiq olunan dinləmə üzrə test imtahanlarına hazırlıqlı olması və mükəmməl İngilis dili bacarığı üçün nəzərdə tutulmuşdur. Sintetik metodla təhsil alan şagirdlərimiz artıq iki ay müddətinə layihə üzrə proqramın bir hissəsini mənimsədikləri üçün imtahan mərhələsinə keçib. Təhsil şöbəsinin nümayəndələri Yaydagül Rəhimova və Səkinə Abbasovanın rəhbərliyi ilə şagirdlərin bilik və bacarıqları qiymətləndirildi. Qiymətləndirmə dinləmə, oxuma, yazma və danışıq qabiliyyətlərinə əsasən həyata keçirildi. Dinlə və Öyrən layihəsi üzrə açılmış pilot siniflərin nəticələri gözlədiyindən daha da yaxşı nəticələr verdi. Layihənin bu cür nəticələr əldə etməsi uğura gedən yolun ilk təməlləridir. Təməlləri möhkəm qoyulmuş təhsildə nəticə əldə etməmək qeyri-mümkündür. Xırdalan 3 nömrəli tam orta məktəbin qalib olduğu Dinlə və Öyrən layihəsi uğur qazana-qazana öz ətrafını böyütməyi qarşısına məqsəd qoyub. Hədəfə doğru gedən Dinlə və Öyrən komandasının hər bir üzvünə uğurlar!

# Fasiləsiz təhsilin ilk pilləsi

## Məktəbəqədər təlim-tərbiyə müəssisələrinin şəbəkəsinin genişlənməsi qarşımızda mühüm vəzifələr qoyur



**Mətanət İSMAYILOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin şöbə müdiri*

Çağdaş dövrümüzdə fərdin, cəmiyyət və dövlətin maraqları nəzərə alınmaqla məktəbəqədər təhsil fasiləsiz təhsil sisteminin ilk pilləsi olaraq davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsi kimi mühüm rol oynayır.

Prezident İlham Əliyevin 14 aprel 2017-ci il tarixli sərəncamı ilə qəbul olunmuş Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu bu sahənin inkişafını bir sıra mühüm istiqamətlər üzrə şərtləndirir. Bu mühüm dövlət sənədində qeyd olunduğu kimi, məktəbəqədər təhsil vasitəsilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnməsinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətinin, zəruri həyati bacarıqlara yiyələnməsinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur. 2014-2015-ci tədris ilindən fəaliyyətə başlayan Məktəbəqədər təlim və tərbiyə fakültəsi ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində tələbə sayına görə ən böyük fakültələrdən biridir. Hazırda 825-dən çox tələbənin təhsil aldığı Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə 156 məzunumuz olub. Fakültəmizdə Azərbaycan və rus bölmələri, eləcə də qiyabi təhsil bölməsi fəaliyyət göstərir.

Bu gün hərtərəfli bilik və peşə bacarıqlarına malik olan kadrlara məktəbəqədər təhsil sahəsində böyük ehtiyac vardır. Məktəbəqədər təlim-tərbiyə müəssisələrinin şəbəkəsinin ilbəil genişləndirilməsi ilə qarşımızda daha mühüm vəzifələr qoyulur. Rəhbərlik etdiyim şöbə inam və həssaslıq nümayiş etdirərək bu vacib amili daim diqqət mərkəzində saxlayır.

Məlumdur ki, bilik və bacarıqların böyük bir hissəsinin mənimsənildiyi məktəbəqədər mərhələdə ailədən əlavə, uşaqların formalaşmasında pedaqoji kadrların köməyindən yararlanmaq mühüm rol oynayır. Məktəbəqədər təlim və tərbiyə sahəsində zəngin təcrübəsi olan mütəxəssislərin bu istiqamətdə faydası olduqca böyük əhəmiyyət kəsb edir. Kollec rəhbərliyi sözügedən məsələnin mahiyyətini geniş təhlil edərək bir sıra uşaq bağçaları ilə müqavilə imzalanıb. Əldə olunan razılaşmaya əsasən IV kurs tələbələri həmin müəssisələrdə pedaqoji təcrübə keçərək bilik və bacarıqlarını təkmilləşdirirlər.

Təlim və tərbiyədə vacib dövr sayıldığına görə məktəbəqədər təlim prosesində yaş xüsusiyyətləri nəzərə alınaraq tədris olunacaq dərslər xüsusi həssaslıqla seçilir. Bu baxımdan Azərbaycan dilinin tədrisi böyük əhəmiyyət daşıyır. Uşaq psixologiyası, ümumi psixologiya, pedaqoji psixologiya, məktəbəqədər pedaqogika kimi pedaqoji və psixoloji dərslər də məktəbəqədər təlim və tərbiyə bölməsində xüsusi yer tutur. Həmçinin, difektologiya və loqopediya, pediatriya və gigiyena, uşaq anatomiyası kimi dərslərin də tədrisi sistemli şəkildə aparılır. Bu bölmədə musiqi, sadə riyazi təsəvvürlər, ingilis dilinin təlimi, ətraf aləmlə tanışlığın, incəsənətin, texnologiyanın tədrisi metodikası kimi dərslər də tədris olunmaqdadır.

Məktəbəqədər yaş dövrü həm də uşaqların elə bir dövrüdür ki, onların fiziki tərbiyəsi və oyun inkişafı ilə bağlı dərslərin tədrisi də diqqətdə saxlanılır.

Bu bölmədə əsas keçirilən dərslərdən biri inklüziv təhsillə bağlıdır. Məlumdur ki, sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması məqsədilə “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” həyata keçirilir. Bu istiqamətdə kollecimizdə də bir sıra tədbirlər, seminarlar təşkil olunur. İnklüziv təhsilin tətbiqi ilə bağlı olan təşəbbüslərə Pedaqoji Kollec də qoşulub. Məzunlarımızdan bir neçəsi bu layihələrdə bilik və bacarıqlarını nümayiş etdirməklə uğurlu fəaliyyətlərini qura biliblər.

Belə məzunlarımızdan biri də Məfsilə Məlikovadır. O, inklüziv təhsilə marağının II kursda uşaq anatomiyası, fiziologiyası və məktəb gigiyenası fənnini keçdiyi zamandan yarandığını deyir: “Bu fənni öyrəndiyimiz zaman müəllimimiz Mətanət İsmayılova inklüziv təhsilin mahiyyəti, imkanları haqqında çox maraqlı məlumat vermiş və marağımı, həvəsimi nəzərə alaraq mənimlə fərdi məşğul olmuşdur. Məni məhz bu sahəyə həvəsləndirmişdir. Çünki o, inklüziv təhsil üzrə ilk pilot layihələrin iştirakçısı olmuşdur. Loqopediya kurslarında, bir çox seminarlarda, təcrübə proqramlarında iştirak edirdim. Müəllimlik peşəsinin bütün cəmiyyəti dəyişmək gücünə malik olduğunu bir daha anladım. Həyat elə gətirdi ki, IV kursda orta məktəbdə pedaqoji təcrübə keçdiyimiz zaman təyin olunduğum sinifdə sağlamlıq imkanı məhdud olan uşaq var idi. Mən sinif müəllimi ilə danışaraq həmin uşaqla məşğul olmağa başladım. Artıq təcrübə müddətinin sonunda uşaqda böyük irəliləyiş müşahidə olunurdu… Hazırda UAFA təşkilatının “Məktəbəqədər inklüziv təhsil” layihəsində müəllim kimi işləyirəm”.

Təhsil sistemindəki yeniliklərdən biri də uğurla həyata keçirilən kurikulum təlimləridir. Kollecimizin müəllimləri də yeni proqramların tətbiqi, onları tələbələrə öyrətmək məqsədilə xüsusi təlimlər keçirlər.

Ölkə tarixində və həyatındakı önəmli hadisələrə həsr olunmuş ictimai-siyasi, əyləncəli tədbirlər, xeyriyyə aksiyaları tələbələrin dünyagörüşünün formalaşmasında önəmli rol oynayır. Tələbələrin asudə vaxtlarının səmərəli təşkili məqsədilə müntəzəm olaraq müxtəlif mövzularda elmi konfranslar, disput və debatlar və müsabiqələr keçirilir.

Məktəbəqədər təlim və tərbiyə ixtisasına tələbələrin yüksək balla daxil olması son illərdə bu sahəyə marağın artmasından xəbər verir. Məqsəd və hədəfimiz isə dəyişməz olaraq qalır:

* Müasir keyfiyyət standartları əsasında Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə pedaqoji təhsil sahəsində kolleclər arasında liderliyin əldə edilməsi;
* Əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı, səriştəli mütəxəssis hazırlığının həyata keçirilməsi;
* Tədrisin effektliliyini yüksəltməklə Məktəbəqədər təlim və tərbiyə ixtisasına keyfiyyətli tələbə kontingentinin cəlb edilməsi;
* Şöbənin ixtisas üzrə təhsil-tədqiqat-innovasiya mərkəzinə çevrilməsini və müasir dövrün tələblərinə cavab verə biləcək mütəxəssis hazırlığını təmin edən yeni standartların tətbiqi;
* Şöbənin ADPU-nun Məktəbəqədər təlim və tərbiyə fakültəsi ilə əlaqələrinin inkişaf etdirilməsi, tələbələrin, professor-müəllim heyətinin mübadilə proqramlarında iştiraklarının təmin edilməsi;
* Gənclər üçün innovativ yaradıcılıq mərkəzlərinin yaradılması (innovativ layihələrin reallaşdırılması, həmçinin yeni texnologiyalarla maraqlanan gənclərin, tələbələrin təlimi);
* Müxtəlif tədris, elmi-texniki və treninq informasiya mərkəzləri yaratmaqla innovativ layihələrin dəstəklənməsi.

Hədəf və məqsədlərimizi isə gerçəkləşdirməklə 100 illik yubileyini qeyd etməyə hazırlaşdığımız qocaman təhsil ocağı - doğma kollecimizə bayram hədiyyəmiz olacaq.



# Azərbaycan Dövlət Pedaqoji Kolleci 100 illiyini uğurlarla qarşılayır

## Bu, ölkədə həyata keçirilən təhsil islahatlarına bir töhfəmizdir



**Aytən HƏSƏNOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Azərbaycan dili və ədəbiyyat müəllimi, Pedaqoji Şuranın katibi*

Kollecimiz *Mektebgushesi.az* internet portalının növbəti sorğusunda da qalibiyyət qazanmışdır. Bu, heç də təsadüfi deyildir. Qazanılan qalibiyyət böyük bir əməyin bəhrəsidir.

Bu qalibiyyət Kollec rəhbərliyinin ölkə Prezidentinin təhsil sahəsində apardığı siyasəti əsas tutaraq qarşısına qoyduğu məqsədlərə, həyata keçirdiyi islahatlara verdiyi səmərəli fəaliyyəti ilə töhfəsidir.

Bu islahatlar müxtəlif sahələrdə özünü göstərir. Bura tədris planlarında edilən dəyişiklikləri, müəllimlərin bacarıqlarının artırılması üçün keçirilən təlim və seminarları (Müəllim - şagird münasibətlərinin inkişafı; Tələbə nailiyyətlərinin qiymətləndirilməsi və qiymətləndirmə texnologiyaları; Təqdimat bacarıqları; Effektiv kommunikasiya; Emosional-peşəkar tükənmə, zehni tükənmə; Münaqişələrin təhlili; Müəllimlərin kommunikasiya bacarıqlarının inkişafı; Müəllim bir psixoloq kimi), tələbələr üçün təşkil olunmuş təlimləri -Türkiyənin “ES Akademi” şirkəti Dr. Erdem Söylemezin “Peşəkar müəllimlik” - 3 səviyyədən 14 mövzudan ibarət təlim modulu (Etkin dinləmə; Öyrətmenlik məsləği eğitimi; Bədən dili; Müəllim və tələbə arasında ünsiyyət, idarəetmə və liderlik; XXI əsr gəncinin təhsilində müəllimin rolu, tədris prosesində vaxtın idarə olunması, qiymətləndirilmə və s.), bacarıqların artırılması istiqamətində keçirilən tədbirləri (“Prezidentin sosial-islahatlar paketi”nə istinadən təşkil edilmiş tədbir; “LEAD Education” Təhsil və İnnovasiya Mərkəzi - MİQ imtahanına hazırlaşmaq istəyən tələbələri maarifləndirmə proqramı; “Azərbaycan İqtisadçılar İttifaqı” ilə birgə Dayanıqlı İnkişaf Məqsədlərinin təbliği, “Ömür boyu təhsil” aid etmək olar.

Ekskursiya və səfərlərin təşkil edilməsi, vətənpərvərlik mövzusunda keçirilən tədbirləri, tələbələrin asudə vaxtının, sosial bacarıqlarını aşılayan layihə, yubileylərin və s. təşkilini, sosial məsələlər üzrə aparılan işləri də bu istiqamətdə həyata keçirilən mühüm tədbirlər kimi qeyd etməliyik.

Sözügedən təlim və tədbirlər tələbələrin bir insan kimi formalaşmasında, vətənpərvər ruhda yetişməsində, dünyagörüşlərinin artmasında, müxtəlif yeni məlumatlar əldə etməsində böyük rol oynayır.

Bu inkişaf özünü imtahan prosesində də göstərmişdir.Belə ki, 2018/2019-cu tədris ilinin imtahan sessiyasının nəticələrinə diqqət yetirsək, görərik ki, payız sessiyasında müvəffəq qiymət alanların sayı 853 nəfər olduğu halda, yaz sessiyasında bu rəqəm 1769-a yüksəlmişdir. İmtahandan qeyri-kafi qiymət alanların sayı payız sessiyasında 1965 nəfər olduğu halda, yaz sessiyasında bu rəqəm 1454 olmuşdur.

Fənn kreditinin 25%-ni ödəmək şərti ilə yenidən imtahan verən tələbələrin nəticələrinə nəzər salsaq, payız sessiyasında 1548 imtahana buraxılan tələbədən 1056-nın akademik borcunu ləğv etdiyini, 492 tələbənin isə yenidən qeyri-kafi qiymət aldığını, yaz imtahan sessiyasında isə 655 tələbədən 461-nin akademik borcunu ləğv etdiyini, 194 tələbənin isə qeyri-müvəffəq nəticə əldə etdiyinin şahidi olarıq.





İmtahan prosesində şəffaflığı təmin etmək üçün çarpaz yoxlama üsulundan da istifadə edilmişdir. 2018/2019-cu tədris ilinin yaz semestrinin imtahan sessiyasında İmtahan Qərargahı nəticələri çox yüksək və ya çox aşağı olan qruplardan seçmə yolu ilə 100 işi çarpaz yoxlamaya vermişdir. Nəticə etibarilə 16 işdə qiymətlərin çox şişirdildiyi, 16 işdə qiymətlərin çox azaldıldığı, 57 işin nisbətən düzgün qiymətləndirildiyi, 11 işdə isə qiymətlərin üst-üstə düşdüyü müəyyənləşdirilmişdir.

İmtahanlarda şəffaflığın təmin olunması üçün ADPU-nun İctimai Şurasının üzvləri hər sessiya zamanı ən azı 2 dəfə imtahanları izləyir, valideyn və tələbələrlə görüşür, təklif və rəylərini bildirirlər. Həmçinin, imtahanı bitirib zaldan çıxan tələbələr üçün Kollecin həmkarlar təşkilatının dəstəyi ilə sorğu təşkil olunmuş, tələbələr imtahanların gedişi ilə bağlı fikirlərini, rəy və istəklərini bildirmişlər.

Dövlət Attestasiya imtahanında da Pedaqoji Şuranın qərarı ilə dəyişiklik edilərək 2 və ya 3 imtahan birləşərək 1 imtahan şəklində keçirilmişdir. Bu da tələbələrin əksəriyyətinin imtahandan müvəffəq qiymətlər əldə etməsi ilə nəticələnmişdir.

Kollecdə gedən inkişaf imtahan sessiyası zamanı yaradılmış İmtahan Qərargahına olan müraciət və şikayətlərin sayında da özünü göstərir. Belə ki, 2018/2019-cu tədris ilinin payız imtahan sessiyasında 173 müraciət olduğu halda , yaz imtahan sessiyasında bu rəqəm 26-ya enmişdir.

Kolleci bitirən tələbələrin MİQ imtahanlarında göstərdikləri yüksək nəticələr də Kollecdə aparılan islahatların özünü doğrultduğunun göstəricisidir.

Bütün yuxarıda qeyd edilənlərdən göründüyü kimi, kollecin Mektebgushesi.az internet portalında keçirilən sorğuda I yeri qazanmasının arxasında əslində böyük bir əmək durur. Bu, həm müdiriyyətin, həm müəllim kollektivinin, həm də tələbələrin əməyidir.

Bu barədə kollecin direktoru İsrayil İsgəndərov da qeyd etmişdir:

“43 kollec arasında “Hansı kollecdə yay imtahan sessiyası şəffaf keçirilir?” sorğusunun qalibi olmağımız həyata keçirdiyimiz islahatlara verilən dəyərdir. Həmçinin kollecimizdə gedən proseslərin ölkənin təhsil siyasətinin, Təhsil Nazirliyinin, ADPU-nun rektoru Cəfər Cəfərovun apardığı təhsil islahatlarına uyğun olduğu bir daha təsdiqini tapdı. 100 yaşlı kollecimiz bu gün də öz əhəmiyyətini bu şəkildə qoruya və müasirləşmənin önündə ola bilirsə, bu təbii ki, bizim üçün böyük uğurdur. Üstəlik, *Mektebgushesi.az* internet portalının keçirdiyi virtual sorğularda ikinci dəfə önə çıxmağımızı kollektivin səmimiyyəti və keyfiyyətli təhsil konsepsiyası üzərində cidd-cəhdlə çalışmasının məntiqi nəticəsi hesab edirəm”.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

Dekan, kafedra müdiri, professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün:**

1. Məktəbəqədər təlim-tərbiyə və ibtidai təhsil fakültəsi üzrə - 1 yer;

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün:**

1. Tibbi biliklərin əsasları və mülki müdafiə kafedrası üzrə - 1 yer;
2. İngilis filologiyası kafedrası üzrə - 1 yer;
3. İbtidai təhsil kafedrası üzrə - 1 yer;
4. Pedaqogika və psixologiya kafedrası üzrə - 1 yer;

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Müasir rus dili kafedrası üzrə - 1 yer;

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Beynəlxalq münasibətlər kafedrası üzrə - 1 yer;
2. Tərcümə nəzəriyyəsi və praktikası kafedrası üzrə - 1 yer;
3. İbtidai təhsil kafedrası üzrə - 1 yer;
4. Rus ədəbiyyatı tarixi kafedrası üzrə - 1 yer;

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Riyaziyyat və informatika kafedrası üzrə - 1 yer;
2. İbtidai təhsil kafedrası üzrə - 1 yer;
3. Azərbaycan tarixi və ictimai elmlər kafedrası üzrə - 4 yer;
4. Azərbaycan multikulturalizmi kafedrası üzrə - 1 yer;
5. Müasir rus dili kafedrası üzrə - 1 yer;
6. İngilis filologiyası kafedrası üzrə - 1 yer;
7. Müasir Azərbaycan dili kafedrası üzrə - 2 yer;
8. Tərcümə nəzəriyyəsi və praktikası kafedrası üzrə - 2 yer;
9. Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası üzrə - 3 yer;
10. Pedaqogika və psixologiya kafedrası üzrə - 1 yer;
11. Xarici dillər kafedrası üzrə - 2 yer;
12. Beynəlxalq münasibətlər kafedrası üzrə - 1 yer;
13. Tibbi biliklərin əsasları və mülki müdafiə kafedrası üzrə - 3 yer;
14. Türkologiya kafedrası üzrə - 3 yer.

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər):

1. *Rektorun adına ərizə;*
2. *Kadrlar uçotunun şəxsi vərəqəsi;*
3. *Tərcümeyi-hal;*
4. *Ali təhsil haqqında diplomun surəti;*
5. *Elmi dərəcə haqqında diplomun surəti;*
6. *Elmi ad haqqında diplomun surəti;*
7. *Elmi və elmi metodiki işlərin siyahısı.*

**REKTORLUQ**

---

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

2019-cu ildə fəlsəfə və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya aşağıdakı ixtisaslar üzrə qəbul

## ELAN EDİR:

**2019-cu il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı**

| Elm sahələri və ixtisaslar | | Cəmi | Doktoranturaya qəbul planı | | | | Dissertanturaya qəbul planı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| **Sənətşünaslıq** | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 6203.01 | 1 | | | 1 | | | | |
| Teatr sənəti | 6212.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Musiqi sənəti | 6213.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Kino, tele və digər ekran sənətləri | 6214.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Təsviri sənət | 6215.01 | 1 | | | 1 | | | | |
| Dekorativ tətbiqi sənət | 6218.01 | 1 | | | 1 | | 1 | | 1 |
| **Cəmi** | | **6** | | | **6** | | **4** | | **4** |

**2019-cu il üçün elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul planı**

| Elm sahələri və ixtisaslar | | Doktorantura | | | | | Dissertantura | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən | | | | Cəmi | O cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| **Sənətşünaslıq** | | | | | | | | | |
| İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 6203.01 | 1 | | 1 | | | | | |
| **Cəmi** | | 1 | | 1 | | | | | |

Fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul qaydaları və təqdim ediləcək sənədlər barədə məlumat almaq üçün bu ünvana müraciət etmək olar:

**Telefon:** (012) 599-00-54 (daxili nömrə 130, 164)

*Sənədlər 28 dekabr tarixinədək qəbul edilir.*

**Ünvan:** Bakı şəhəri, İnşaatçılar pr. 39.

**REKTORLUQ**

---

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

2019-cu il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul

## ELAN EDİR:

**Fəlsəfə doktoru proqramı üzrə**

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | | | |
| 1203.01 | Kompüter elmləri | 2 | | 1 | | 1 | 1 | 1 | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | | 1 | | | | | |
| 2314.01 | Neft kimyası | | | | | | 1 | 1 | |
| 3303.01 | Kimya texnologiyası və mühəndisliyi | 1 | | 1 | | | | | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | 1 | | 1 | | | | | |
| 3340.01 | Elektrotexniki sistemlər və komplekslər | | | | | | 1 | 1 | |
| 3341.01 | Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | | | 1 | | 1 |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 2 | | 1 | | 1 | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | | | 1 | 1 | 1 | |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | | | 1 | | | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi,metodologiyası və tarixi | | | | | | 1 | | 1 |
| 7207.01 | Sosial fəlsəfə | 1 | | | | 1 | | | |
| **Cəmi** | | **12** | | **7** | | **5** | **7** | **5** | **2** |

**Elmlər doktoru proqramı üzrə**

| İxtisasın şifri | İxtisasın adı | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1203.01 | Kompüter elmləri | 1 | | 1 | | | | | |
| 2212.01 | Nəzəri fizika | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | | | 1 | | 1 |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | |
| 7207.01 | Sosial fəlsəfə | 1 | | | | 1 | | | |
| **Cəmi** | | **3** | | **2** | | **1** | **2** | **1** | **1** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli 737s saylı sərəncamına uyğun olaraq fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) ali təhsil alan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan) və elmlər doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) fəlsəfə doktoru və ya ona bərabər tutulan elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

1. *Rektorun adına ərizə;*
2. *Kadrların şəxsi - qeydiyyat vərəqi;*
3. *Tərcümeyi-hal;*
4. *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
5. *İş yerindən xasiyyətnamə;*
6. *Əmək kitabçasından çıxarış;*
7. *Çap olunmuş elmi işlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat);*
8. *"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üçün);*
9. *Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil pillələri üzrə) müvafiq qaydada təsdiq edilmiş surətləri (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün ali təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə);*
10. *Şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər 2019-cu il dekabrın 28-dək qəbul edilir.

Qəbul qaydaları haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 iyul 2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş və Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli Qərarı ilə dəyişiklik edilmiş "Doktoranturaların yaradılması və dokturanturaya qəbul qaydaları"ndan ətraflı məlumatı *(http://e-qanun.az/framework/19800)* almaq olar.

Sənədlər şənbə, bazar və istirahət günlərindən başqa hər gün səhər saat 9.00-dan 17.00-dək Sumqayıt Dövlət Universitetinin Doktorantura və magistratura şöbəsində qəbul edilir.

**Ünvan:** Sumqayıt şəhəri, 43-cü məhəllə.
**Telefon:** (018)642-12-63, 050 339-68-36

**REKTORLUQ**

# Azərbaycan Təhsil Şəbəkəsi

## Layihə 3186 təhsil müəssisəsini əhatə edir



⇦ Əvvəli səh.1

Rəşad ZİYADOV

### Məktəb idarəetmə sistemində və tədris prosesində informasiya texnologiyalarından effektiv istifadə

Ölkədə təhsil sahəsində ən böyük daxili şəbəkə olan Azərbaycan Təhsil Şəbəkəsi tədris prosesində innovativ yanaşma və mexanizmlərin tətbiqi üçün geniş imkanlar yaradır. Belə ki, Azərbaycan Təhsil Şəbəkəsinə qoşulmuş təhsil müəssisələrinin internet və intranet xidmətləri ilə təminatı, elektron təhsil resursları və idarəetmə sistemləri ilə təchiz edilməsi, tədris prosesində nəzarətin və qərarvermənin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması kimi mühüm istiqamətlər üzrə işlər həyata keçirilir.

Azərbaycan Təhsil Şəbəkəsinə qoşulmuş təhsil müəssisələrində elektron təhsil resurslarına, dərsliklərə, videomateriallara internet trafiki istifadə olmadan daxil olmaq mümkündür. Bu elektron tədris materialları isə şagirdlərdə məntiqi təfəkkür, yaradıcı yanaşma, təşəbbüskarlıq, problemlərin həlli, qərarların qəbul edilməsi, müstəqil öyrənmə kimi 21-ci əsr bilik və bacarıqlarının (kompetensiyalarının) inkifaşına kömək edir. Bu cür resurslar şagirdlərin diqqətini faydalı məzmuna yönəldir və internetdən təhsil almaq, inkişaf etmək məqsədi ilə istifadə etmələrinə şərait yaradır.

### Onlayn mühitin arzuolunmaz təsirlərindən mühafizə

Azərbaycan Təhsil Şəbəkəsi təhsil sisteminin İKT təchizatının yaxşılaşdırılması ilə yanaşı, bir sıra mühüm sosial əhəmiyyətli funksiyaların icrasını da öz üzərinə götürmüşdür. Bu cür funksiyalardan ən başlıcası təhsilalanların tədris prosesində istifadə etdikləri internetin zərərli təsirlərindən qorunması ilə bağlıdır. Bu gün Azərbaycan Təhsil Şəbəkəsini ölkə miqyasında unikal mexanizmə çevirən ən mühüm cəhətlərdən biri, görülən bütün tədbirlərin təhsil ekosisteminin mərkəzində duran və təhsil prosesinin benefisiarı olan təhsilalanların hərtərəfli formalaşmasına xidmət etməsidir. Azərbaycan Təhsil Şəbəkəsi çərçivəsində təhsil müəssisələrinə təqdim edilən internet avtomatik rejimdə bütün növ zərərli və tədris prosesinə aid olmayan məzmunlardan təmizlənərək təhsilalanların ixtiyarına verilir, beləliklə də şagirdlər onlayn mühitin arzuolunmaz təsirlərindən mühafizə olunur.

Xidmətin iş prinsipi ondan ibarətdir ki, onlayn axtarış sistemlərində müxtəlif dillərdə onlarla kateqoriya üzrə zərərli informasiyanın axtarışı məhdudlaşdırılır və təhsilalanların arzuolunmaz veb-məzmunlardan maksimal müdafiəsi təmin olunur. Bu isə öz növbəsində, uşaq psixikasının internetin zərərli təsirlərindən qorunması ilə yanaşı, tədris prosesində şagirdlərin diqqətinin yalnız faydalı məzmunlar üzərində cəmləşməsinə xidmət edir.

### Tədris prosesində interaktiv alətlərin tətbiqi və texniki dəstəklənmə

Müasir təhsil konsepsiyasının uğurlu icrasını şərtləndirən amillərdən biri də tədris prosesində interaktiv tədris metodikalarının tətbiqi ilə bağlıdır. Qeyd edək ki, ölkə üzrə təhsil müəssisələri kompüter avadanlığı, elektron lövhə və proyektorlar, təhsil robotları, elektron laboratoriya avadanlıqları ilə təchiz edilirlər ki, bu avadanlıqların da fəaliyyəti üçün müəssisədaxili şəbəkə infrastrukturunun mövcudluğu zəruridir. Azərbaycan Təhsil Şəbəkəsi korporativ intranet şəbəkəsi olduğundan, nəinki əhatə etdiyi təhsil müəssisələrini vahid şəbəkə çərçivəsində birləşdirir, eləcə də müəssisə daxilində lokal şəbəkə mühitinin formalaşdırılmasını mümkün edir. Bu kontekstdə tədris prosesinin yuxarıda sadalanan interaktiv imkanlarla zənginləşdirilməsi baxımından Azərbaycan Təhsil Şəbəkəsi mühüm əhəmiyyət kəsb edir.

### Tədrisdə idarəetmənin təkmilləşdirilməsi üçün infrastruktur imkanlar

Azərbaycan Təhsil Şəbəkəsinə çıxış məktəblərdə idarəetmə sistemini müasir tələblərə uyğun qurmağa imkan yaradır. Belə ki, bir sıra pilot məktəblərdə inzibati və insan resurslarının idarə edilməsi, müəssisədaxili qərarvermə, qiymətləndirmə, proqnozlaşdırma, monitorinq proseslərinin elektron formada aparılması istiqamətində işlər görülür. Əlbəttə ki, bu imkanların tətbiqi və istifadəsinin Azərbaycan Təhsil Şəbəkəsindən kənarda baş verməsi mümkün deyil. Belə ki, məlumatların şəbəkə üzərindən ötürülməsi və saxlanması üçün məhz Azərbaycan Təhsil Şəbəkəsinin resurslarından istifadə olunur.

### Videobağlantı məsafə maneəsini aradan qaldırır

Müasir dövrdə dayanıqlı və əlçatan kommunikasiyalar bütün digər sahələrdə olduğu kimi təhsil sistemində də çox məsələləri həll edir. Məsafədən asılı olmayaraq istənilən məkanda daim əlaqəyə çıxa bilmək imkanı qərarvermə prosesinin effektivliyinin artırılmasına müsbət təsir göstərir. Bu baxımdan, ATŞ-nin milli təhsil sistemi




üçün yuxarıda qeyd olunan çoxsaylı faydaları sırasında videobağlantı imkanı xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu imkan vasitəsi ilə təhsil müəssisələri bir-biri ilə real vaxt rejimində operativ, kəsintisiz və təhlükəsiz əlaqə yarada və interaktiv formada məlumat mübadiləsi apara bilirlər. ATŞ nəinki təhsil müəssisələrini, həm də təhsil sahəsinə cavabdeh olan dövlət qurumlarını da (Təhsil Nazirliyini və onun yerli idarə və şöbələrini) ortaq intranet şəbəkəsi daxilində birləşdirir və bir-biri ilə əlaqələndirilməsini təmin edir.

Qeyd edə bilərik ki, cari ilin iyun ayında Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran, Masallı, Yardımlı və Cəlilabad rayon sakinlərini canlı videobağlantı vasitəsilə qəbul etmişdir. Adıçəkilən rayonlarla yanaşı, Sumqayıt və Gəncə şəhərləri, İsmayıllı, Yevlax, Sabirabad rayonlarında da videokonfrans avadanlığı üzərindən rabitə imkanları yaradılmışdır. Müasir kommunikasiya vasitəsi ilə vətəndaşların Təhsil Nazirliyinə müraciət etmək imkanları genişləndirilmiş və regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanı yaradılmışdır.

### Pedaqoji heyətin peşəkar inkişafına şərait

Azərbaycan Təhsil Şəbəkəsinə qoşulmuş təhsil müəssisələrində elektron təhsil resurslarına, dərsliklərə, videomateriallara internet trafiki istifadə olmadan daxil olmaq mümkündür. Bu isə təhsilverənlər üçün özünütəhsil, araşdırma və biliklərin tətbiqi istiqamətində geniş imkanlar yaradır. Eyni zamanda, şəbəkə vasitəsi ilə aparıcı müəllimlərin dərslərinin digər ölkələrin təhsil müəssisələrində video nümayiş etdirilməsi imkanı vardır. Nəticədə müəllimlər digər ölkələrdən olan həmkarları ilə birgə təhsilin inkişafı yönümündə müxtəlif layihələr icra edir, beynəlxalq təcrübəni öyrənirlər. Qeyd edək ki, Azərbaycan 2013-cü ildən etibarən "eTwinning Plus" layihəsində iştirak edir. Sözügedən layihə çərçivəsində müəllimlər təhsil müəssisəsini tərk etmədən, onlayn şəkildə avropalı həmkarları ilə ortaq layihələrdə yeni bilik və bacarıqları səmərəli yolla əldə etməyi öyrənir, müxtəlif təlim və kurslarda iştirak edirlər. Sözsuz ki, bu imkanların tətbiqi və istifadəsində Azərbaycan Təhsil Şəbəkəsinə çıxışın olması mühüm rol oynayır.

### GEANT şəbəkəsi elmi-tədqiqat işlərinin aparılmasında ali məktəblər üçün qabaqcıl texniki və intellektual imkanlar

Azərbaycan Təhsil Şəbəkəsi milli təhsil sistemi üçün nəinki texnoloji, eləcə də elmi-intellektual müstəvidə geniş imkanlar təqdim edir. Şəbəkənin potensialı bu gün orta ümumtəhsil məktəbləri ilə yanaşı, respublikanın ali təhsil müəssisələri üçün də innovativ elmi-tədqiqat imkanları yaradır.

Belə ki, ölkə üzrə ali təhsil verən bütün müəssisələr Azərbaycan Təhsil Şəbəkəsinə qoşularaq şəbəkənin resursları üzərindən GEANT beynəlxalq akademik şəbəkəsinə çıxış əldə edə və bu şəbəkənin elmi araşdırma potensialından yararlana bilərlər.

GEANT - Avropa ali təhsil, elm və tədqiqat müəssisələrini informasiya texnologiyaları (IT) şəbəkələri səviyyəsində özündə birləşdirən ümumavropa elektron elm və təhsil şəbəkəsidir. Hazırda dünyanın ən nəhəng elmi araşdırma və tədqiqat şəbəkəsi olan GEANT-ın əhatə dairəsinə müxtəlif ölkələri təmsil edən 38 milli təhsil və tədqiqat şəbəkələri daxildir. Avropa Komissiyası tərəfindən maliyyələşdirilən GEANT layihəsi bütün Avropa üzrə hazırda 10 000 elmi-tədqiqat müəssisəsini və orada çalışan 50 milyondan çox istifadəçini əhatə edir. GEANT-ın əsas şəbəkəsinin maksimal fəaliyyət gücü 500 Gigabit/saniyəyədək təşkil edir. Gündəlik olaraq GEANT-ın şəbəkələri üzərindən 1000 terabaytdan artıq məlumat ötürülür.

GEANT şəbəkəsi bütün iştirakçılarına elmi fəaliyyət üçün bir araya gəlmək və birgə elmi tədqiqatlar aparmaq, eləcə də müştərək təhsil proqramlarını tərtib etmək üçün şərait yaradır. GEANT şəbəkəsinin texniki olaraq üzərinə götürdüyü başlıca vəzifə elmi araşdırmaların aparılması üçün İKT infrastrukturunun və resurslarının təmin edilməsindən ibarətdir. Bu, o deməkdir ki, vahid GEANT şəbəkəsinə daxil olan bütün elmi-tədqiqat və akademik təhsil müəssisələri bir-birinin elmi nailiyyətləri və nəticələri ilə tanış ola və onlardan yararlana bilərlər.

# Üçgünlük seminar-treninq keçirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərinin direktorları və Gənclərin çağırışaqədərki hazırlığı (GÇH) rəhbərləri üçün üçgünlük seminar-treninq keçirilib.

Seminarda Təhsil Nazirliyinin Audit şöbəsinin müdiri Vaqif Məmmədov, Audit şöbəsinin Əmlakın monitorinqi sektorunun müdiri Bəhruz Müslümov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) nümayəndəsi İdris İsmayılov iştirak edib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və ANAMA tərəfindən keçirilən seminar-treninqlərin əsas məqsədi GÇH fənninə aid kabinetdə təlim silahlarının, sursatlarının və elektron silahların saxlanma qaydaları barədə geniş məlumat vermək, təhlükəsizlik qaydalarına riayət edilməsinin vacibliyini çatdırmaq, GÇH rəhbərlərinin bilik və bacarıqlarını daha da inkişaf etdirmək, onları vəzifə öhdəlikləri ilə bağlı maarifləndirməkdən ibarətdir.

Seminarda çıxış edənlər GÇH fənninin şagirdlərin hərbi xidmətə mənəvi-psixoloji cəhətdən hazır olması, vətənpərvər ruhlu vətəndaş kimi formalaşması baxımından mühüm rol oynadığını bildiriblər. Müvafiq dövlət standartları əsasında hazırlanmış proqramlara və dərsliklərə uyğun tədris edilən bu fənnin eyni zamanda məktəblilərin ordu həyatı ilə tanış olmalarına, Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsinə, habelə ilkin tibbi yardım, mülki müdafiə bacarıqlarının aşılanmasına xidmət etdiyini qeyd ediblər.

Təlim zamanı şagirdlərin silahları söküb-yığması, minaların zərərsizləşdirilməsi, əleyhqazlardan istifadə olunması, hədəfin nişan alınması və digər normativlərin yerinə yetirilməsində təhlükəsizlik qaydalarına dəqiq riayət edilməsinin, partlamamış hərbi sursatlar və təqlid vasitələri ilə davranış qaydaları, müvafiq hallarda dərhal Daxili İşlər Nazirliyinin 102 və ya Fövqəladə Hallar Nazirliyinin 112 "Qaynar xətt"inə məlumat verilməsinin önəmi vurğulanıb.

Sonda təlim silahlarına, sursatlarına baxış və onların yoxlanması qaydaları ilə əlaqədar müvafiq tövsiyələr verilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# "Cahana sığmayan şair" adlı tədbir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 283 nömrəli tam orta məktəbdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

"Cahana sığmayan şair" adlı tədbirdə Qənirə Paşayeva, YAP Binəqədi Rayon Təşkilatının sədri Ramiz Göyüşov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, BŞTİ-nin müdir müavini İlhamə Abdullayeva, İdarənin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov, Ümumi təhsil sektorunun müdiri Fuad Babayev, 283 nömrəli tam orta məktəbin direktoru Tünzalə Zeynalova, müəllimlər, şagirdlər və valideynlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan 283 nömrəli tam orta məktəbin direktoru Tünzalə Zeynalova böyük Azərbaycan şairi Nəsiminin həyat və yaradıcılığından, yaşadığı dövrdən, şairin əsərlərindən bəhs edib, onun zəngin bədii irsinin tədqiqi istiqamətində aparılan işlərdən danışıb.

Çıxış edən Qənirə Paşayeva Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin ölkədə "Nəsimi ili" elan edilməsinin çox əlamətdar və təqdirəlayiq hadisə olduğunu vurğulayıb. Qeyd edilib ki, Nəsimi yaradıcılığındakı mübarizlik, haqqı bütün varlığı ilə müdafiə etmək, nahaqqa qarşı son damla qanınacan vuruşmaq bütün xalqın, ilk növbədə, gənc nəslin formalaşmasına müsbət təsirini göstərib.

BŞTİ-nin müdir müavini İlhamə Abdullayeva "Nəsimi ili" ilə əlaqədar ölkəmizdə və ölkəmizdən kənarda silsilə tədbirlərin, təqdimatların keçirilməsinin və şairin ədəbi irsinin yenidən öyrənilərək dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən danışıb. Müdir müavini Nəsimi adının nəinki ölkəmizdə, hətta beynəlxalq arenada da uca tutulduğunu və dünya ictimaiyyətinin də onun yaradıcılığı ilə tanış olduğunu bildirib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri olduğunu vurğulayıb.

Sonra şagirdlərin ifasında görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin şeir və qəzəllərindən nümunələr səsləndirilib, əsərləri əsasında bəstələnmiş mahnılar ifa olunub. Həmçinin, şagirdlər görkəmli şairin əsərləri əsasında hazırlanan ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Respublikasının Təhsil İnstitutu

## 2019-2020-ci il üçün doktorantura və dissertanturaya qəbul

## ELAN EDİR:

**2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planı**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 5 | 1 | | | 4 | | | | 1 | | | 1 | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 5 | 1 | | | 4 | | | | | | | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 5 | 1 | | | 4 | | | | 1 | | | 1 | | | | |
| 5806.01 | Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası | | | | | | | | | | | | | | 1 | | 1 (ADBTIA üçün məqsədli yer) |
| 5808.01 | Sosial pedaqogika | | | | | | 1 | 1 (MDU üçün məqsədli yer) | | | | | | | | | |
| 6104.01 | Pedaqoji psixologiya | | | | | | 1 | 1 (MDU üçün məqsədli yer) | | | | | | | | | |
| | Cəmi: | 15 | 3 | | | 12 | 2 | 2 | | 2 | | | 2 | | 1 | | 1 |

Azərbaycan Respublikasının Təhsil İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli 737 s nömrəli sərəncamı ilə təsdiq olunmuş Plan əsasında 2019-2020-ci il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə doktoranturaya (əyani və qiyabi) və dissertanturaya qəbul elan edir.

Doktorant və dissertant hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun (13 noyabr 2019-cu il tarixli 443 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına olunmuş əlavə və dəyişikliklərlə) olaraq həyata keçirilir.

**1. Doktorantura və dissertanturada təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir:**
- ərizə (institut direktorunun adına);
- kadrların şəxsi qeydiyyat vərəqəsi (iş yerində imzalanmış və möhürlənmiş);
- tərcümeyi-hal (çap və elektron formada);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplom və diploma əlavələrin (əsli şəxsən təqdim edilir) notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası və xarici ölkə vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- çap olunmuş elmi işlərin siyahısı (forma 2.4) və ya seçilmiş ixtisas üzrə referat;
- iş stajı olanlar üçün əmək kitabçasının sonuncu iş yerində möhürlənmiş təsdiqi;
- işləyənlər üçün iş yerindən xasiyyətnamə-təqdimat;
- 4 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti (əsli şəxsən təqdim edilir);
- magistr təhsili olanların dissertasiyası (çap və elektron daşıyıcıda).

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (əyani və qiyabi) qəbul, dissertanturaya təhkim olmaq istəyən iddiaçılar xarici dil (ingilis, alman və ya fransız), fəlsəfə və ixtisas fənlərindən ali təhsil müəssisələrinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində imtahan verirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji stajı, fəaliyyəti və nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilir. Həmin şəxslərlə qəbul müsahibə formasında keçirilir. Fəlsəfə doktoru proqramı üzrə qəbul olmaq istəyənlər üçün tələb olunan sənədləri və əlavə olaraq fəlsəfə doktoru (elmlər namizədi) diplomunun notarial qaydada təsdiq edilmiş surəti, fəlsəfə doktoru (elmlər namizədi) dissertasiyası və avtoreferatı ilə birgə (çap və elektron daşıyıcıda) təqdim edilir.

**Qeyd: 1.** Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, bir qayda olaraq, azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.

**2.** Pedaqoji sahədə fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının ali təhsil müəssisəsində yiyələndiyi ixtisas üzrə təhsil sahəsində pedaqoji stajı iki ildən az olmamalıdır (Azərbaycan Respublikası Prezidentinin 2019-cü il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş, "Elmi dərəcələrin verilməsi qaydaları haqqında" Əsasnamənin 2.14 bəndinə əsasən).

### İmtahan formatı

Fəlsəfə doktoru proqramı doktoranturaya (əyani və qiyabi) və ya dissertanturaya qəbul olunmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar. Bərabər ballar toplandığı halda, müsabiqədə ixtisas fənnindən daha yüksək qiymət alan və çap edilmiş elmi əsərləri olan şəxslərə üstünlük verilir.

**Sənədlər 09-27 dekabr 2019-cu il** tarixlərində Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi-pedaqoji mərkəzi yerləşdiyi ünvanda (Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96) Elmi-pedaqoji kadr hazırlığı şöbəsində (II mərtəbə, otaq № 17) saat 10:00-dan 17:00-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) qəbul edilir.

Nəzərdə tutulan elmi rəhbərlə (məsləhətçi) görüş və müsahibə **06-10 yanvar 2020-ci il** tarixlərində təşkil olunacaq.

Qəbul imtahanları və müsahibələr 10 yanvar - 10 fevral 2020-ci il tarixlərində keçiriləcəkdir.

Daha ətraflı məlumat almaq üçün (012) 493-82-71 nömrəli telefonla əlaqə saxlamaq olar.

HTTP: *www.arti.edu.az* (xarici dil və fəlsəfə fənləri üzrə proqramlarla saytda tanış ola bilərsiniz)

e-mail: *phd@arti.edu.az* (*www.arti.edu.az* saytında göstərilən CV və tərcümeyi-hal formalarından istifadə edin).

**DİREKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

## 2020-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə qəbul

## ELAN EDİR:

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 04 dekabr tarixli 737 s nömrəli sərəncamına uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır.

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qiyabi şöbəyə, büdcə hesabına**

1. Botanika - 1 yer
2. Sami dillər - 1 yer
3. Jurnalistika - 1 yer
4. İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi - 1 yer

**Doktoranturaya qiyabi şöbəyə, ödənişli əsaslarla**

1. Müəssisələrin təşkili və idarə olunması - 1 yer

**Doktoranturaya əyani şöbəyə, ödənişli əsaslarla**

1. Ümumi iqtisadiyyat - 1 yer
2. Müəssisələrin təşkili və idarə olunması - 2 yer
3. Beynəlxalq münasibətlər - 1 yer
4. Musiqi sənəti - 2 yer
5. Təsviri sənət - 1 yer
6. Sosial fəlsəfə - 2 yer

**Dissertanturaya büdcə hesabına**

1. Parazitologiya - 1 yer
2. Pediatriya - 1 yer
3. Kompüter qurğuları və texnologiyası - 1 yer
4. Ümumi iqtisadiyyat - 1 yer
5. Müəssisələrin təşkili və idarə olunması - 1 yer
6. Ümumi tarix - 1 yer
7. Vətən tarixi - 1 yer
8. Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi - 1 yer
9. Cinayət hüququ və kriminologiya, cəza-icra hüququ - 1 yer
10. Dil nəzəriyyəsi - 1 yer
11. German dilləri - 1 yer
12. Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 2 yer
13. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer
14. Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası - 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

1. Analiz və funksional analiz - 1 yer
2. Ümumi iqtisadiyyat - 1 yer
3. Müəssisələrin təşkili və idarə olunması - 1 yer
4. Beynəlxalq hüquq, insan hüquqları - 2 yer
5. Mülkü hüquq, sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq - 1 yer
6. Roman dilləri - 1 yer
7. Azərbaycan ədəbiyyatı - 1yer
8. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- *Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *Tərcümeyi-hal;*
- *iş yerindən xasiyyətnamə;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (15-20 səh.);*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *fakültə elmi şurasından çıxarış;*
- *kafedra elmi şurasından çıxarış.*

Doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildə (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanı verirlər.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və Nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaf, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Nazirliklə razılaşdırmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

**Elmlər doktoru proqramı üzrə doktoranturaya qiyabi şöbəyə, büdcə hesabına**

1. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer

**Elmlər doktoru proqramı üzrə dissertanturaya büdcə hesabına**

1. Vətən tarixi - 1 yer
2. Roman dilləri - 1 yer
3. Dünya ədəbiyyatı - 1 yer
4. Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer
5. Musiqi sənəti - 1yer

**Dissertanturaya ödənişli əsaslarla**

1. Vətən tarixi - 1 yer

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- *Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *Tərcümeyi-hal;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı;*
- *"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *fakültə elmi şurasından çıxarış;*
- *kafedra elmi şurasından çıxarış.*

Doktorantura və dissertanturaya sənədlər 25 dekabr 2019-cu il tarixə qədər saat 09:00-dan - 17:00-a kimi Naxçıvan Dövlət Universitetinin əsas binasında Elmi hissədə qəbul edilir.

(Şənbə və bazar günləri sənədlər qəbul olunmur).

**REKTORLUQ**

## İldırım çaxacağını proqnozlaşdıracaq süni intellekt



Samirə KƏRİMOVA

Lozanna Universitetinin alimləri hadisədən 30 saniyə əvvəl, yalnız hava məlumatları əsasında şimşək çaxacağını proqnozlaşdıra biləcək süni intellekt yaradıblar.

**www.hightech.fm** saytının məlumatına görə, o, müxtəlif növlərdə və meteoroloji şəraitdə buludların axıntılarının qradiyent texnikasından istifadəsi barədə təlim keçib. Yeni texnika, sələflərinin səhvlərindən öyrənən, nisbətən qeyri-dəqiq proqnozlaşdırılan neyron şəbəkələrinə əsaslanır.Daha sonra onlarla hava stansiyasının məlumatları sinir şəbəkəsinə yüklənib. Onların əsasında süni intellekt temperatur, rütubət və hava təzyiqindəki xarakterik dəyişikliklərdən, eləcə də digər hava məlumatlarından ildırım vurmağını proqnozlaşdırmağı öyrənib. Bu proqnozun dəqiqliyi 76 faiz təşkil edir.

Mütəxəssislər qeyd edirlər ki, süni intellekt dünyanın ən ucqar guşələrində də istənilən hava stansiyasının toplaya biləcəyi məlumatlardan istifadə edərək ildırımın çaxacağını əvvəlcədən proqnoz edə bilir.

Xatırladaq ki, daha əvvəl ABŞ-dan olan tədqiqatçılar tərəfindən zəlzələ fizikasını anlamaq və yaxınlaşan təbii hadisələrin əlamətlərini müəyyən etmək üçün süni intellektdən istifadə olunub. Laboratoriya zəlzələlərinin müvəffəqiyyətlə proqnozlaşdırmasından sonra, geofiziklər qrupu Sakit okeanın şimal-qərbində maşın təliminin alqoritmini tətbiq ediblər.

## İnsult və infarkt hallarının qarşısını alacaq unikal plastır




Ürək ritmində bəzən (həftədə 1-2 dəfə) baş verən dəyişiklikləri qeydə almaq asan məsələ deyil. Sinəyə yapışdırılan “Zio” adlı plastır məhz ürək döyüntüsünün qeyri-adi ritmini aşkar edərək, minlərlə insult və infarkt hallarının qarşısını ala bilər.

**www.meddaily.ru** saytının məlumatına əsasən, suya davamlı plastır eyni zamanda elektrodlar və ürək döyüntüsünü qeydə alan modulla təchiz edilib. Onu 2 həftə ərzində sinədə fasiləsiz daşımaq olar ki, bu da ürək ritmində baş verən təhlükəli dəyişiklikləri qeydə almağa imkan verir. İstifadəçi narahatlıq hiss etdikdə plastırın düyməsini sıxır. Sistem ürək ritminin istənilən pozuntularını ayırd edərək, müəyyən nöqtədən əvvəl və sonrakı 45 saniyəni yazır.

2 həftə istifadə etdikdən sonra pasiyent plastırı çıxarır və onu istehsalçıya geri göndərir. Şirkət məlumatları təhlil edir və pasiyentin həkimi üçün hesabat hazırlayır.

Qeyd edək ki, London Kral Kollecinin xəstəxanasında aparılmış tədqiqat çərçivəsində insult keçirmiş 120 pasiyentə plastır və ya ürək döyüntüsünü izləyən adi portativ sensor verilib. Plastır standart sensorlardan 8 dəfə daha effektiv olub.

## İlk dəfə beyin əməliyyatında robot iştirak edib



Robotlar tibb sahəsində artıq bir ildən çoxdur ki, istifadə olunurlar. Bununla yanaşı onların çətinliyi və funksiyalarının sayı hər il artır. Distant ürək əməliyyatından sonra həkimlər mexaniki manipulyatordan istifadə edərək xəstənin beyninə cərrahi müdaxilə ediblər.

**www.4pda.ru** saytının məlumatında bildirilir ki, Kanadada cərrah Vitor Mendes Pereyroy anevrizmanı aradan qaldırmaq üçün mürəkkəb əməliyyat həyata keçirib. Belə ki, submillimetr hərəkətlərin dəqiqliyini təmin edən ikinci nəsil “CorPath GRX” robot qolundan istifadə edərək joystiklər və sensor ekranla idarə olunub. Robotun “barmaqlarında” alətlərin dəyişdirilməsi əməliyyat masasında texniki heyət tərəfindən həyata keçirilib.

Robot operatorun pultu ilə kabelə qoşulsa da, tərtibatçılar ümid edirlər ki, gələcəkdə bu kimi əməliyyatlar daha uzaq məsafələrdən də aparılacaq. Pereyroy xəstəni əməliyyat etməzdən əvvəl onun beyninin quruluşunu dəqiq köçürən 3D model üzərində təlim keçib və bir qrup əməkdaş ilə qarşılıqlı əlaqəni yerinə yetirib.

Cərrahın sözlərinə görə, həkimlər gələcəkdə insultdan əziyyət çəkən pasiyentlərin distant müalicəsi üçün robotlardan istifadə edə biləcəklər.

## Tədqiqatçılıq müsabiqəsinin ilk mərhələsi başa çatıb

Paytaxt məktəblərinin “Kiçik Akademiya” üzvləri arasında təşkil olunmuş tədqiqatçılıq müsabiqəsinin məktəbdaxili mərhələsi başa çatıb.

Müsabiqənin ilk mərhələsində hər məktəbdən bir şagirdin ən yaxşı araşdırma işi müəyyənləşdirilərək II mərhələyə təqdim olunub.

II mərhələdə Təşkilat Komitəsi tərəfindən 30 tədqiqat işi seçilərək final mərhələsində (III mərhələdə) dinləniləcək. III mərhələdə isə 9 ümumi təhsil məktəbinin tədqiqat işi seçilərək müvafiq olaraq I, II, III və həvəsləndirici yerlərə (2 məktəb I, 2 məktəb II, 2 məktəb III, 3 məktəb həvəsləndirici) layiq görüləcək.

Qaliblər BŞTİ tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.



Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) əmrinə əsasən təşkil olunan müsabiqə şagirdlərin elmi axtarışlara sövq edilməsi, müasir tədqiqat metodlarına yiyələnməsi, bu sahədəki fəaliyyətlərinin stimullaşdırılması, elmi-tədqiqat fəaliyyətinə meyli olan istedadlı şagirdlərin vaxtında aşkara çıxarılması, “Kiçik Akademiya”ların fəaliyyətinin təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi məqsədlərinə xidmət edir.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6506, **Sifariş** 4244

**Məsul növbətçi:** O.Mustafayev


## Gimnastika Məktəbi yetirmələrinin uğuru

Yaponiyanın paytaxtı Tokioda Batut Gimnastikası üzrə Dünya Yaş Qrupu yarışları keçirilib.

Azərbaycanı təmsil edən İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbinin yetirmələri bu yarışa uğurla qatılıblar. Belə ki, onlar tamblinq və batut gimnastikası üzrə milli yığma komandanın heyətində yüksək nəticə əldə ediblər.

Yığma komandanın tərkibində Aleksey Karataşov 11-12 yaş oğlanlar arasında tamblinq üzrə yarışlarda qızıl, Hüseyn Abbasov və Maqsud Maqsudov 11-12 yaş oğlanlar arasında batut gimnastikası üzrə sinxron çıxışlarda gümüş, Maqsud Maqsudov eyni zamanda fərdi çıxışlarda qızıl medala layiq görülüb.




## Etibarsız sayılır

**SSRİ-nin 50-illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1990-cı ildə Əliyeva Başxanım Zülfüqar qızına verilmiş TB-088660 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əliyeva Jalə Elxan qızına verilmiş B-503729 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 21 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Həsənov Sənan Vidadi oğluna verilmiş A-416045 nömrəli şəhadətnamə, 2016-cı ildə verilmiş A-527647 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yenikənd kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Əmrəliyev Xəyal Əlipənah oğluna verilmiş A-564585 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mədəni-Maarif Texnikumu** tərəfindən 2006-cı ildə Babayeva Ayşən Habil qızına verilmiş BB-II-037732 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Peşə Liseyini** 2017-ci ildə bitirmiş Məmmədov Allahverdi Ruslan oğluna verilmiş A-589945 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Teymurov Abuzər Ələsgər oğluna verilmiş A-620074 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 123 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Hüseynova Röya Alim qızına verilmiş 271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** V.Cəfərov adına Milabad kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Əliyeva Nabat Vəli qızına verilmiş 175459 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Məktəbəqədər Pedaqoji Texnikumu** tərəfindən 1996-cı ildə Yusifova Aynur Ələddin qızına verilmiş AB-II-005543 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam Dövlət Sosial-İqtisad Kolleci** tərəfindən 2008-ci ildə Həsənova (Qasımova) Şahnaz Yaqub qızına verilmiş BB-081155 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Həsənov Xalid Abbasəli oğluna verilmiş B-169489 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı-I kənd tam orta məktəbinin IX sinfini 2005-ci ildə bitirmiş Bəylərov Alxan Xanoğlan oğluna verilmiş 230221 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Tumasova Səriyyə Seymur qızına verilmiş C-056892 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Xal-xal kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Bağırov Cəbrayıl İmran oğluna verilmiş A-741632 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** I Nügədi kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Orucov Murad İslam oğluna verilmiş B-198577 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Cəfərov Xalıq Mehdi oğluna verilmiş A-552421 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Rzayev Elgün Əli oğluna verilmiş A-046754 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 86 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Məcidzadə İlkin Pərviz oğluna verilmiş A-437537 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2004-cü ildə Cəlilov İlham Vəli oğluna verilmiş BB-II-032395 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2008-ci ildə Hacıyeva Zibeydə Aydın qızına verilmiş BB-II-065641 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kirovabad Baza Tibb Məktəbi** tərəfindən 1982-ci ildə Xəlilova Afət Osman qızına verilmiş ДТ-I-764646 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**S.Hacıbəyov adına Sumqayıt şəhər orta ixtisas musiqi məktəbi** (İndiki Sumqayit musiqi kolleci) tərəfindən 1990-cı ildə Qurbanova Azadə Azay qızına verilmiş HT-I-563404 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 200 nömrəli məktəb-lisey kompleksini 2016-cı ildə bitirmiş Bağırova Tamella Ramiz qızına verilmiş A-508935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2017-ci ildə Hüseynova Nərgiz Vüqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əliyeva Gültəkin Arif qızına verilmiş A-530887 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2000-ci ildə Şalbuzov İslam Şakir oğluna verilmiş A-045542 nömrəli bakalavr diplomu tapıldığı üçün etibarlı sayılır.

**Tovuz rayon** R.İsmayılov adına Düz Cırdaxan kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Abbasova Nahidə Əhəd qızına verilmiş 173224 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Abdurəhimova Gülnar Vüqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Məmmədyarova Lətifə İlqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Vəliyeva Jalə Şikar qızına verilmiş A-533629 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 1994-cü ildə ümumi orta təhsil səviyyəsi üzrə bitirmiş Cəfərov Yasəf Cəfər oğluna verilmiş MƏ-831 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 37 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Osmanov Tural Mahir oğluna verilmiş B-447309 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Çaxırlı kənd tam orta məktəbini 1989-cu ildə bitirmiş Vahidov Fizuli Bahadur oğluna verilmiş 552338 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qənbərli Asim Elçin oğluna verilmiş A-318255 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Yusifova Maya Sabir qızına verilmiş B-291460 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu** tərəfindən 1997-ci ildə Bayramov Rəşad Aydın oğluna verilmiş A-000183 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Beyləqan Peşə Məktəbi** tərəfindən 2015-ci ildə Həziyeva Həmayıl Eldar qızına verilmiş A-063993 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

# BMU tələbələrinin növbəti uğuru



Bakı Mühəndislik Universitetinin (BMU) tələbələri Gürcüstanın Tbilisi şəhərində Biznes və Texnologiya Universitetində keçirilmiş “44-cü ICPC 2019-2020 NERC-Tələbələrin beynəlxalq proqramlaşdırma müsabiqəsi”nin yarımfinal mərhələsində və “Cənubi Qafqaz açıq çempionatı”nda iştirak edib.

Müsabiqələrdə BMU 2 komanda ilə təmsil olunub. “Cənubi Qafqaz açıq çempionatı”nın fərdi müsabiqəsində iştirakçılara 4 saat ərzində 12 alqoritmik məsələnin proqramını tərtib etmək və avtomatik qiymətləndirmə sistemində sınaqdan keçirmə tapşırığı verilib. Fərdi müsabiqənin nəticələrinə görə, BMU-nun tələbəsi Ülvi Aslanlı “Yüksək nailiyyət sertifikatı”na layiq görülüb.

Sonra keçirilən ICPC NERC regionu üzrə yarımfinal komanda müsabiqəsinin nəticələrinə əsasən BMU-nun Baku EU 1 komandası (Ülvi Aslanlı, Nicad Hüseynov, Əyyub Nəcəfzadə, komanda rəhbəri: Etibar Seyidzadə) “ICPC 2019-2020 Azərbaycan Çempionu Sertifikatı”na, həmçinin “Cənubi-Qafqaz Açıq Çempionatının Yüksək nailiyyət sertifikatı”na, Baku EU 2 komandası (Nizam Novruzov, Müzəffər Məmmədli, Zəkəriyyə Zəkəriyyəli, komanda rəhbəri: Etibar Seyidzadə) isə “ICPC 2019-2020 Fərqlənmə sertifikatı”na layiq görülüblər.

Yarışmaya ümumilikdə Azərbaycanın 9 ali təhsil müəssisəsindən 16 komanda qatılıb. Komanda müsabiqəsi, eyni zamanda Sankt-Peterburq, Barnaul, Almatı şəhərlərində də keçirilib. 11 ölkənin ali təhsil müəssisələrindən 301 komanda təmsil olunub.

Qeyd edək ki, Azərbaycanın ali təhsil ocaqlarının “44-cü ICPC-Universitet tələbələrinin beynəlxalq proqramlaşdırma müsabiqəsi”nin regional mərhələsində BMU tələbələrindən ibarət Baku EU1 komandası 10 bal toplayaraq ilk yeri tutmuşdu.


Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Avrasiya Universiteti

2019-cu il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya aşağıdakı ixtisaslar üzrə qəbul

## ELAN EDİR:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Qəbul planı | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura üzrə | | | Dissertantura üzrə |
| | | Cəmi | Əyani | Qiyabi | |
| 5704.01 | Dil nəzəriyyəsi | 2 | 1 | 1 | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | 1 |
| 5708.01 | German dilləri | 2 | 1 | 1 | 1 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | 1 |
| 5719.01 | Folklorşünaslıq | 1 | | 1 | 1 |

**1.** Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müsabiqə əsasında qəbul olunurlar. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir. Təhsil ödənişlidir, təhsil haqqı doktorant və dissertantla bağlanmış müqavilə əsasında müəyyənləşdirilir.

**2.** Doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

**3.** Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi DİM tərəfindən müəyyənləşdirilir.

**4.** Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

**5.** Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, *azı iki il elmi və ya elmi-pedaqoji* iş stajına malik olmalıdırlar.

**6.** Dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) qəbul imtahanı verirlər.

**7.** Doktorantura və dissertanturaya sənədlərin qəbulu **12 dekabr 2019-cu il tarixdən 28 dekabr 2019-cu il** tarixədək keçirilir.

**8.** Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- rektorun adına ərizə;*

*- kadrların şəxsi-qeydiyyat vərəqi;*

*- tərcümeyi-hal;*

*- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*- iş yerindən xasiyyətnamə;*

*- əmək kitabçasından çıxarış (iş stajı olanlar üçün);*

*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*

*- xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatı (IELTS, TOEFL, TestDaF, DELF, DALF) (varsa);*

*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər Bakı Avrasiya Universitetinin Elm, magistratura və doktorantura sektorunda (II mərtəbə, 218-ci otaq) hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat 9:00-dan 16:00-dək qəbul olunur.

**Ünvan:** Akademik Həsən Əliyev küç.135A
**Əlavə məlumat üçün:** www.baau.edu.az;
**Əlaqə telefonları:** 564-63-67; 564-63-65
(daxili nömrə 118)

**REKTORLUQ**


Moskva şəhərində Vladimir Spivakov Fondu tərəfindən XVI “Moskva dostları qarşılayır” Beynəlxalq Festivalı keçirilib. Festival Fondun ən genişmiqyaslı layihəsi kimi diqqəti cəlb edib. Dünyanın 36 ölkəsindən 1000-ə yaxın gənc istedadın qatıldığı festival müddətində Rusiya paytaxtının müxtəlif konsert salonlarında maraqlı musiqi proqramları və gənc rəssamların yaradıcılıq nümunələri nümayiş olunub. Azərbaycan Milli Konservatoriyasının tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının şagirdləri də bu mötəbər yarışmada ölkəmizi layiqincə təmsil ediblər. Beynəlxalq Musiqi Evinin Svetlanov zalında reallaşan festivalın açılış mərasimində konsert proqramı ilə yanaşı iştirakçılara təqdim olunan gənc rəssamların əsərlərindən ibarət sənət nümunələri İncəsənət Gimnaziyasının təsviri və tətbiqi sənət şöbəsinin şagirdləri Mədina Həmzətova və Fərəh Kərimovaya məxsus olub. Dövlət Akademik Böyük Teatrının Bethoven zalında respublika və beynəlxalq müsabiqələr laureatı, kamança ifaçısı Hüseyn Nağıyev bəstəkar Həsən Rzayevin “Çahargah” rapsodiyasını böyük məharətlə ifa edib və gurultulu alqışlarla qarşılanıb. Bu günlərdə gimnaziyanın istedadlı şagirdləri ilə görüşüb festival barədə təəssüratlarını, bu məsuliyyətli yarışmada yaşadıqları sevincli və həyəcanlı anları bizimlə bölüşmələrini xahiş etdik.

# “Qazandığımız uğurlara görə müəllimlərimizə borcluyuq”

## İncəsənət Gimnaziyası şagirdlərinin uğur hekayələri



Mədina Həmzətova



Fərəh Kərimova



Hüseyn Nağıyev

**Sifai SƏFƏROVA**

*Mədina Həmzətova:* 10 yaşım var. AMK tərkibində İncəsənət Gimnaziyasının 5-ci sinif şagirdiyəm. 2 ildir ki, gimnaziyada təsviri və tətbiqi sənət şöbəsinin üzvüyəm. Lalə Əsgərovanın sinfində rəssamlıq peşəsinin sirlərinə yiyələnirəm. Vladimir Spivakov Fondu tərəfindən “Moskva dostları qarşılayır” beynəlxalq festivalında ölkəmizi təmsil etməyim mənim üçün sevindirici olduğu qədər də olduqca məsuliyyətli idi. Festivalın açılış mərasimində həvəslə iştirak etdim, televiziya kanallarına müsahibə verdim. “Şərq bazarı” adlı rəsmim nümayiş olundu. Sərgi haqqında ilk təəssüratımı atamla, sonra gimnaziyanın direktoru Aytən Əhmədovaya zəng vurub sevincimi onunla bölüşdüm. Aytən xanım bizim mənəvi anamızdır. Deyir ki, mən şagirdlərimlə fəxr edirəm. Fəxr edirəm ki, istedadlılar gimnaziyamızda günü-gündən artmaqdadır.

...Moskvada 4 gün qaldıq. Həmin müddətdə Rusiya paytaxtının tarixi abidələrinə və mədəniyyət ocaqlarına da baş çəkdik. Qeyd edim ki, iki dəfə Türkiyədə keçirilən Caspi ART rəsm yarışmalarına da qatılmışam və I yeri qazanmışam. 2019-cu ildə Ukraynada keçirilən beynəlxalq rəsm müsabiqəsində iştirak etmişəm və Qran-pri mükafatına layiq görülmüşəm. Fransada keçirilən beynəlxalq yarışmada isə “Uşaqlar müharibə əleyhinə” rəsm əsərim münsiflər heyəti tərəfindən bəyənilərək II yerə layiq görüldü. Gərgin çalışqanlığım, əziyyətim sayəsində imza atdığım nailiyyətlər gələcəkdə ən böyük arzularımın reallaşacağına məndə əminlik yaradır. Sevinirik ki, festivalda fəal iştirakımıza görə Moskvadan direktorumuz Aytən Əhmədovanın ünvanına da təşəkkürnamə yollayıblar. Bu, direktorumuza ən qiymətli töhfəmiz idi.

*Fərəh Kərimova:* 15 yaşım var. Kiçik yaşlarımdan rəsm çəkməyi xoşlayıram. Hər müsabiqədə qalib olanda bir daha əmin oluram ki, çəkilən zəhmət hədər getmir. Hər qələbəmizdə biz əslində çəkdiyimiz əziyyətin, necə deyərlər, yuxusuz gecələrimizin bəhrəsini görürük. Bu festival mənə daha böyük sevinc hissləri yaşatdı. Bəs necə?! Festivalın layihə rəhbəri Vladimir Spivakova həsr etdiyim rəsm “Moskva dostları qarşılayır” beynəlxalq festivalda sərgiləndi, hamı tərəfindən bəyənildi və maraqla qarşılandı. Mənim üçün bundan qiymətli və ruhverici, qürurverici nə ola bilərdi?! Şübhəsiz qazandığımız bütün uğurlara görə müəllimlərimizə borcluyuq. Hazırda ixtisas fənni üzrə Mehriban Həşimovanın sinfində təhsil alıram. Təsviri və tətbiqi sənət şöbəsi üzrə direktor müavini Kəmalə Kərimovanın da biz şagirdlərin bütün qələbələrində payı var. Mənim ilk sərgim 1-ci sinifdə oxuyarkən keçirilib. Sərgidə 60-a yaxın rəsmim nümayiş olundu. İlk uğura onda imza atdım və diplomla mükafatlandırıldım. Üçüncü sinifdə ikinci sərgim keçirildi. Bu dəfə isə 70-ə yaxın rəsmim iştirakçılara təqdim olundu. Rəsmlərimdə daha çox yağlı və sulu boyalardan, açıq, mavi, çəhrayı rənglərdən, bir də fantaziyamdan istifadə etmişdim.

2017-ci ildə Türkiyədə “Barış və dostluq” mövzusunda keçirilən beynəlxalq rəsm müsabiqəsində I yerə, 2018-ci ildə isə Yunanıstanda keçirilən “Dünyanın musiqi yollarında”, Çexiyada keçirilən “Su altında həyat” və sair mövzularda beynəlxalq rəsm müsabiqələrində diplomlarla mükafatlandırılmışam. Bakıdakı 3 nömrəli Uşaq-Gənclər rəsm qalereyasında “Bilik günü” ilə bağlı keçirilən rəsm müsabiqəsində “XXI əsrin bilik günü” rəsmim diploma layiq görüldü. Türkiyədə keçirilən “Kaspi ART” beynəlxalq incəsənət müsabiqəsində “Qədim Bakı”, “Qarabağ atı” və “Caz Baku” rəsmlərim I yerə layiq görülüb. Respublika üzrə “Xalq Cümhuriyyəti İli” çərçivəsində rəsm sərgisinə qatıldım. Qeyd edim ki, gimnaziyada fəaliyyət göstərən rəqs dərnəyinin və xor kollektivinin üzvüyəm. “Ən yaxşı vokal ifaçısı” adını qazanmışam və diploma layiq görülmüşəm. Dövlət tədbirlərində həmişə iştirak edirəm. Bacarığıma, potensialıma çox güvənirəm. Üzgüçülük və gimnastika ilə məşğul olmuşam. Hazırda “Qış nağılı” kompozisiyası üzərində çalışıram. Müəllimlərimin və direktorumuzun göstərdikləri etimadı istedadlı şagird dostlarımla bərabər doğruldacağıma mən də söz vermişəm.

*Hüseyn Nağıyev:* Festival möhtəşəmliyi ilə seçilirdi. Biz əvvəlcədən ifalarımızı festival təşkilatçılarına göndərdik.. Mənim ifamı çox bəyəndikləri üçün festivalda iştirakımı vacib saydılar. Belə bir mötəbər festivalda ölkəmizi təmsil etmək mənim üçün olduqca sevindirici məqam idi. Dövlət Akademik Böyük Teatrının Bethoven zalında dünyanın müxtəlif ölkələrindən istedadlı uşaqlar iştirak edirdilər. Respublika və beynəlxalq müsabiqələr laureatı, kamança ifaçısı Hüseyn Nağıyevin adı çəkiləndə bir anlığa həyəcanlandım. Ancaq əvvəlki yarışmalarda qazandığım təcrübədən bəhrələnərək həyəcanımı boğdum və bəstəkar Həsən Rzayevin “Çahargah” rapsodiyasını böyük məharətlə ifa etdim. İfam tamaşaçılarda xoş ovqat yaratdı.

Yeri gəlmişkən Təhsil Nazirliyinə bu mötəbər sənət yarışmasına qartılmaq üçün mənə dəstək verdiyinə görə təşəkkürümü bildirirəm. İkinci təşəkkürüm isə təbii olaraq gimnaziyanın direktoru Aytən Əhmədovaya, ixtisas müəllimim Samirə Nəcəfovaya və konsertmeysterim Svetlana Əhmədovayadır.

2004-cü il Bakı şəhərində anadan olmuşam. Hazırda gimnaziyanın 10-cu sinfində təhsil alıram. 2015-ci ildən kamança ilə məşğul oluram. Bu musiqi aləti ilə məşğul olduğum illər ərzində bir çox uğurlarım olub. 2017-ci ildə “İncəsənət Olimpiadası”nda I yerə, 2018-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan 3-cü Respublika müsabiqəsində I-ci yerə, “Testene Art Baku” II Beynəxalq müsabiqəsində II-ci yerə, kamança hazırlanması və ifaçılıq sənətinin UNESCO-nun qeyri-maddi reprezentativ mədəni irs siyahısına daxil olunmasına həsr olunmuş Habil Əliyev adına gənc kamança ifaçılarının II Respublika müsabiqəsində I yerə layiq görülmüşəm. Aktyor kimi uğurlarım da kifayət qədər olub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrında Şekspir “III Riçard” tamaşasında Uels Şəhzadəsi, H.Cavidin “Şeyx sənan” tamaşasında Cocuq, İ.Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” tamaşasında Nemət obrazlarını və Azərbaycan Dövlət Akademik Musiqili Teatrında AXC-nin 100 illiyinə həsr olunmuş Ə. Əmirlinin “Nuri didə-Ceyhun” tamaşasında Ceyhun Hacıbəylinin uşaqlıq, S.Bekket “Qodonun intizarında” tamaşasında Oğlan obrazlarını canlandırmışam. 2018-ci ildə məhz bu obrazlarıma görə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının təsis etdiyi “Mövsümün ən yaxşı uşaq rolunun ifaçısı” mükafatına layiq görülmüşəm. 2019-cu il Albaniyanın Elbasan şəhərində keçirilən 21-ci Skampa Beynəlxalq Teatr Festivalında aktyor kimi çıxış etmişəm. Təhsil Nazirliyi tərəfindən keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsinin, Respublika Fənn olimpiadasının və məktəblər arasında keçirilmiş “Respublika idman çempionatı”nın mükafatlandırma mərasimində kamança ifaçısı kimi iştirak etmişəm. Dəfələrlə Azərbaycan Dövlət Akademik Filarmoniyasında, Kamera və Orqan zalında, Beynəlxalq Muğam Mərkəzində və dövlət tədbirlərində Xalq Çalğı Alətləri Orkestri, Q.Qarayev adına Kamera Orkestri ilə çıxışlarım alqışlarla qarşılanıb.